Xalqın qəzeti!

# Xalq qəzeti

№ 272 (30966) 26 dekabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan dünyanın aparıcı idman ölkələrindən birinə çevrilib



İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmanın və idman qələbələrinin ictimai məkanda çox böyük rolu var. Xüsusilə gənc nəslin yetişdirilməsi, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması üçün idman amili çox böyük məna daşıyır. İdmançılarımız Azərbaycan xalqını öz qələbələri ilə daim sevindirirlər.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman nə qədər vacibdirsə, bir o qədər də hərbi hazırlıq və fiziki hazırlıq vacibdir. Fiziki güc mənəvi saflığa da yol açır və şadam ki, bizim idmançılarımızın mütləq əksəriyyəti idmanda da, məişətdə də, cəmiyyətdə də nümunədirlər, örnəkdirlər. Onların davranışı, cəmiyyətdəki fəaliyyəti məni və əminəm ki, bütün xalqımızı sevindirir. Azərbaycan gənci məhz belə olmalıdır - vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən saf, öz xalqına, dövlətinə bağlı, heç bir kənar təsirə boyun əyməyən və layaqətli Azərbaycan gənci.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

## Azərbaycan–Çin: Uzaq ölkələr, yaxın xalqlar



Səhifə ⇨ 15

## "Şahdəniz" yatağında hasilat artır



Səhifə ⇨ 8

## Ağdam ölkənin 4-cü sənaye şəhərinə çevrilir



Səhifə ⇨ 13

## Azərbaycan regional sabitliyin aparıcı ölkəsidir



Səhifə ⇨ 13

## Azərbaycan yeni "səlibçilər"lə 30 il təklikdə döyüşdü



Səhifə ⇨ 6

## TRIPP "Sülhün kəsişməsi" deyil



Səhifə ⇨ 6

## Zəngəzur dəhlizi Cənubi Qafqazın dünya qapısı olacaq



Səhifə ⇨ 5

## Mərkəzi Bank illər ayrıcında



Səhifə ⇨ 8

## 2 əsrlik Bakı sirki yenidən səhnəyə qayıdıb



Səhifə ⇨ 14

## Təhsil krediti tələbələrə dövlət dəstəyidir



Səhifə ⇨ 14

# Azərbaycan Respublikası idmançılarının və idman mütəxəssislərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdullayev Yaqub Bəkir oğlu
Ağarəhimov Cahangir Ağababa oğlu
Aslanova Elmira Aydın qızı
Bayramov Cahangir Tofiq oğlu
Əliyev Coşqun Ceyhun oğlu
Hüseynov Fikrət Akif oğlu
Məhərrəmov Azər Asif oğlu
Məmmədov Eduard Tofiq oğlu
Musayeva Vəfa Təbriz qızı
Rəcəbov Nurəddin Rəcəb oğlu.

**2** Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adı verilsin:

Gözəlbəyli Zöhrab Katib oğlu
İmaməliyev Ələkbər Əbdülbağı oğlu
Qədimova İlahə Akif qızı
Mirəliyev Mövlud Mustafa oğlu.

**3** Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Əliyev Qərib Tələt oğlu
Həsənov Tərlan Əliheydər oğlu
Xudiyev Asim Xəlil oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2025-ci il**

# Apellyasiya instansiyası məhkəməsinin kollegiya sədrinin, birinci instansiya məhkəməsi sədrinin və bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

1.1. Səməd Fəxrəddin oğlu Cəfərov Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

**ağır cinayətlər məhkəmələri üzrə:**

1.2. Murad Şamxal oğlu Aslanov Lənkəran Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.3. Firdovsi Zülfü oğlu Əliyev Masallı Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.4. Kamil Çingiz oğlu Əliyev Yevlax Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.5. Aygün Arzu qızı Qurbanova Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

1.6. Asif Əmrah oğlu Əliyev Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilsin;

**inzibati məhkəmələr üzrə:**

1.7. Natiq Əvəz oğlu İsmayılov Şamaxı Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

1.8. Ramin Nizaməddin oğlu Quliyev Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

1.9. Fərid Nadir oğlu Əliyev Tovuz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gəncə İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

**kommersiya məhkəmələri üzrə:**

1.10. Xədicə Əlicabbar qızı Səfərli Gəncə Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gəncə Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

1.11. Rəşad Seylan oğlu Məmmədov Gəncə Kommersiya Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.12. Səidə Hüseynağa qızı Məmmədova Şirvan Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi təyin edilsin;

1.13. Fuad Bəhruz oğlu Babaşov Bərdə Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.14. Vüsalə Yadigar qızı Məmmədova Xaçmaz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Sumqayıt Şəhər Məhkəməsinin hakimi təyin edilsin.

**2** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**ağır cinayətlər məhkəmələri üzrə:**

**Bakı Ağır Cinayətlər Məhkəməsi**
Quliyev Vüqar Elbrus oğlu
Namazov Fərid Arif oğlu
**Gəncə Ağır Cinayətlər Məhkəməsi**
Məmmədzadə Mikayıl Maarif oğlu
Vəliyev Elşən Yaşar oğlu
**Lənkəran Ağır Cinayətlər Məhkəməsi**
Məmmədov Neymət Hüsən oğlu
**Sumqayıt Ağır Cinayətlər Məhkəməsi**
Cəfərzadə İlham Nizami oğlu
**Şəki Ağır Cinayətlər Məhkəməsi**
Məmmədov Xaliq Musa oğlu

**inzibati məhkəmələr üzrə:**

**Bakı İnzibati Məhkəməsi**
Babayev Aydın Vahid oğlu
Cəlalov Bəhlul Məmmədcəfər oğlu
Əlizadə Fariz Ariz oğlu
Musayeva Ləman Samir qızı
**Gəncə İnzibati Məhkəməsi**
Əliyeva Gülşən Talıb qızı

**kommersiya məhkəmələri üzrə:**

**Bakı Kommersiya Məhkəməsi**
Namazova Günay Rüstəm qızı
**Şirvan Kommersiya Məhkəməsi**
Abbasov Zaur Vahid oğlu

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
Bağırov Zamiq Rəşid oğlu
**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Abdullayeva Aynur Aydın qızı
Eyvazova Samirə Əli qızı
**Bakı şəhəri Xəzər Rayon Məhkəməsi**
Rüstəmov Emin Şahin oğlu
**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**
Aslanova Gülnar Faiq qızı
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Abbasov Nail İbad oğlu
Heydərova Əfsanə Elbrus qızı
**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
Mirzəliyev Ruslan Əsəd oğlu
Rəcəbova Elnurə Hüseyn qızı
**Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi**
Kərimov Namiq Həsrət oğlu
Mirzəyeva Firuzə Fuad qızı
Mirzəyeva Ünsüyyət Hacımehdi qızı
**Bakı şəhəri Yasamal Rayon Məhkəməsi**
Sultanova Məmmədova Ayşən Ramiz qızı

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Ağcabədi Rayon Məhkəməsi**
Musayev Şahəli Calal oğlu
**Gəncə Şəhər Məhkəməsi**
Əlizadə Elxan Novruz oğlu
Fərhadov Fuad Əlirza oğlu
**Lənkəran Rayon Məhkəməsi**
Pənahov Anar Elman oğlu
**Neftçala Rayon Məhkəməsi**
Quliyev Samir İdris oğlu
**Salyan Rayon Məhkəməsi**
Məmmədli Ənnağı Əbdül oğlu
**Samux Rayon Məhkəməsi**
Kərimova Tərifə Əbülfət qızı
**Sumqayıt Şəhər Məhkəməsi**
Həxiyeva Şəbnəm Səlim qızı
Quliyev Ramiz Mübariz oğlu
**Şəmkir Rayon Məhkəməsi**
Məhəmmədi Həvayət Kəmaləddin qızı
**Şirvan Şəhər Məhkəməsi**
Mustafayev Ceyhun Mustafa oğlu.

**3** "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**hərbi məhkəmələr üzrə:**

**Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi**
Eminov Əziz Mürsəl oğlu
**Gəncə Hərbi Məhkəməsi**
Şəbəndəyeva Təhminə Əlistan qızı

**Naxçıvan Muxtar Respublikasının rayon məhkəmələri üzrə:**

**Babək Rayon Məhkəməsi**
Əhmədova Aynur Əvəz qızı

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

**Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi**
İbrahimli Toğrul Salman oğlu
Yusifova Ülkər Fizuli qızı
**Bakı şəhəri Xətai Rayon Məhkəməsi**
Əlizadə Orxan Arzuxan oğlu
Ramazanov Zəfər Akif oğlu
**Bakı şəhəri Xəzər Rayon Məhkəməsi**
Hüseynova Mələk Bəxtiyar qızı
Məhərrəmov Vüqar Sarvan oğlu
**Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi**
Maxsudova Ülkər Taleh qızı
Məmmədova Nigar Kərəm qızı
**Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi**
Əzizova Şəbnur Rəfail qızı
**Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi**
Həsənov İlyas İnqilab oğlu
İsmayılova Səbinə Vüqar qızı
**Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi**
Süleymanov Cavid Loğman oğlu
**Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi**
Məmmədov Məmməd Əhməd oğlu

**rayon (şəhər) məhkəmələri üzrə:**

**Abşeron Rayon Məhkəməsi**
Eminbəyli Məhəmməd Muxtar oğlu
Teymur-Zadə Elvin Rasif oğlu
**Ağcabədi Rayon Məhkəməsi**
Alməmmədov Nəriman Əli oğlu
**Ağstafa Rayon Məhkəməsi**
Həsənov Cavad İsa oğlu
**Beyləqan Rayon Məhkəməsi**
İslamov Tamerlan Cəlil oğlu
**Bərdə Rayon Məhkəməsi**
Hüseynquliyeva Lamiyə Qabil qızı
**Biləsuvar Rayon Məhkəməsi**
Əliyeva Aytəkin Güləli qızı
**Gəncə Şəhər Məhkəməsi**
Babazadə Ülkər Ağamalı qızı
Bayramova Kəmalə Fətulla qızı
Məmmədova Nərgiz Ramiz qızı
**Goranboy Rayon Məhkəməsi**
Vəliyev Kazım İntiqam oğlu
**Göyçay Rayon Məhkəməsi**
Camalzadə Cavid Əhməd oğlu
**Xaçmaz Rayon Məhkəməsi**
Ağazadə Nərmin Calal qızı
**Xankəndi Şəhər Məhkəməsi**
Niyazova Səkinə Mirzə qızı
**Kürdəmir Rayon Məhkəməsi**
Muxtarov Muxtar Arif oğlu
**Qax Rayon Məhkəməsi**
Mirzəzadə Asim Vilayət oğlu
**Qazax Rayon Məhkəməsi**
Məmmədova Nigar İbrahim qızı
**Qəbələ Rayon Məhkəməsi**
Abbaszadə Nərgiz Mirzəli qızı
**Quba Rayon Məhkəməsi**
Qazıbəyov İbrahim Mehman oğlu
**Qusar Rayon Məhkəməsi**
Səfərli Günel Adil qızı
**Laçın Rayon Məhkəməsi**
Mustafayev Cavidan Mustafa oğlu
**Lənkəran Rayon Məhkəməsi**
Murquzov Elmir İlqar oğlu
**Masallı Rayon Məhkəməsi**
Qasımlı Fidan Lətif qızı
**Oğuz Rayon Məhkəməsi**
Əliyev Rəşad Ayıl oğlu
**Saatlı Rayon Məhkəməsi**
Cəmilova Aygün Fərhad qızı
**Sumqayıt Şəhər Məhkəməsi**
Məhərrəmov Vüsal Rəfi oğlu
**Şəki Rayon Məhkəməsi**
Mövlayev Azər Aydın oğlu
**Şirvan Şəhər Məhkəməsi**
Abbasova Nərmin Bəxtiyar qızı
**Yevlax Rayon Məhkəməsi**
Cəfərova Ruqiyyə Ülfət qızı.

**4** Bu Sərəncamın 1-ci və 3-cü hissələri bu Sərəncam imzalandığı gündən, 2-ci hissəsi 2026-cı il yanvarın 12-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2025-ci il**

# Prezident İlham Əliyev AZAL təyyarəsinin qəzaya uğramasının ildönümü ilə bağlı paylaşım edib

**Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə məxsus "Embraer 190" təyyarəsinin qəzaya uğramasının birinci ildönümü ilə bağlı sosial media hesablarında paylaşım edib.**




# Birinci vitse-prezident Mehriban Əliyevanın AZAL təyyarəsinin qəzaya uğramasının ildönümü ilə bağlı paylaşımı




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğramasının birinci ildönümü ilə bağlı sosial media hesablarında paylaşım edib.**

# "İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 fevral tarixli 324 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin xərclərini dəqiqləşdirmək məqsədilə **qərara alıram:**

"İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 fevral tarixli 324 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 116) 3.4-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

**1** 3.4.1-ci yarımbənd üzrə:

1.1. "Məbləğ (manatla)" sütununda "1 720 956 292,00" rəqəmləri

"1 642 956 292,00" rəqəmləri ilə əvəz edilsin;

1.2. 3.4.1.1-ci abzasın "Məbləğ (manatla)" sütununda "6 000 000,00" rəqəmləri "3 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

1.3. 3.4.1.2-ci abzasın "Məbləğ (manatla)" sütununda "2 500 000,00" rəqəmləri "1 000 000,00" rəqəmləri ilə əvəz edilsin.

**2** 3.4.2-ci yarımbənd üzrə:

2.1. "Məbləğ (manatla)" sütununda "464 765 000,00" rəqəmləri "497 765 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.2. 3.4.2.2-ci abzasın "Məbləğ (manatla)" sütununda "200 000 000,00" rəqəmləri "190 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.3. 3.4.2.3-cü abzasın "Məbləğ (manatla)" sütununda "25 000 000,00" rəqəmləri "21 300 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.4. 3.4.2.4-cü abzasın "Məbləğ (manatla)" sütununda "28 000 000,00" rəqəmləri "63 500 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.5. 3.4.2.6-cı abzasın "Məbləğ (manatla)" sütununda "10 000 000,00" rəqəmləri "21 200 000,00" rəqəmləri ilə əvəz edilsin.

**3** 3.4.3-cü yarımbəndin "Məbləğ (manatla)" sütununda "430 000 000,00" rəqəmləri "495 000 000,00" rəqəmləri ilə əvəz edilsin.

**4** 3.4.4-cü yarımbəndin "Məbləğ (manatla)" sütununda "40 000 000,00" rəqəmləri "20 000 000,00" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2025-ci il**

# "Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, sosial-iqtisadi inkişaf sahəsində dövlət siyasətinin prioritetlərinə və məqsədlərinə çatmaq üçün dövlət proqramlarının, strategiyaların, konsepsiyaların və bu kimi digər strateji sənədlərin hazırlanması, onların icrasına nəzarətin həyata keçirilməsi və qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin qiymətləndirilməsi, yeni çağırışlar və artan tələblər fonunda istifadəçilərin, o cümlədən aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəsmi statistika məlumatlarına tələbatının ödənilməsi üçün statistik məlumat istehsalının dayanıqlılığını və milli statistika sisteminin inkişafını təmin etmək məqsədilə **qərara alıram:**

**1** "Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) təsdiq edilsin *(əlavə olunur)*.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi:

3.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Dövlət Proqramında müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq işlər görsün.

**5.** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 dekabr 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

***II Əl-Hüseyn bin ABDULLAH,***
***İordaniya Haşimilər Krallığının Vəliəhd Şahzadəsi***

*

**Hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm.

Sizin həyat yolunuz böyük məsuliyyət hissinə və öz xalqına sədaqətə malik qətiyyətli, iradəli və cəsur bir insanın yoludur.

Məlumdur ki, Siz uzun illər ərzində fəaliyyətinizlə Azərbaycanın vətəndaşları, onların rifahı və təhlükəsizliyi naminə çox böyük işlər görmüsünüz, ən çətin vəziyyətlərdə özünüzü mətinliklə və ləyaqətlə aparmış, qarşıya qoyulan vəzifələri yerinə yetirmisiniz.

Azərbaycanda həyata keçirdiyiniz islahatlar kursu, siyasi sabitliyin möhkəmləndirilməsi və milli iqtisadiyyatın inkişafı, vətəndaşların rifahının yüksəldilməsi Sizə xalqın ən yüksək etimadını qazandırmışdır.

Əminəm ki, Siz daha parlaq gələcəyə doğru çox addımlar atacaqsınız, iş təcrübəniz və məsuliyyətiniz Azərbaycan xalqının maraqları naminə nəzərdə tutulan bütün planların həyata keçməsinə kömək edəcəkdir.

Sizə, doğmalarınıza və yaxınlarınıza möhkəm cansağlığı, uzun ömür, davamlı sülh, firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Ramzan KADIROV,***
***Rusiya Federasiyasının***
***Çeçenistan Respublikasının başçısı***

*

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Zati-alinizi səmimiyyətlə təbrik edir, Sizə və ailənizə cansağlığı, uzun ömür, xoşbəxtlik və rifah arzulayıram.

Zati-alinizin Ali Baş Komandan kimi qətiyyətli rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi və 24 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi təkcə qardaş Azərbaycan xalqı üçün deyil, həm də Türkiyə xalqı üçün böyük qürur və şərəf mənbəyi olmuşdur.

Cənab Prezidentimiz Rəcəb Tayyib Ərdoğanla birlikdə həyata keçirdiyiniz ortaq ideallar və uğurlu əməkdaşlıq bizə gələcək üçün böyük ümid və ruh yüksəkliyi verir.

Sizin Qafqazda sülhün memarı kimi humanist və müdrik siyasətinizlə bütün dünyaya nümunəvi liderlik göstərdiyinizi böyük heyranlıqla izləyirik.

Qardaş Azərbaycanın bütün məqsədlərinə uğurla çatacağı ümidi ilə qarşıdan gələn Yeni il münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-alinizə dərin hörmət və ehtiramımı bildirirəm.

***Şamil AYRIM,***
***Türkiyə Böyük Millət Məclisinin deputatı,***
***Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri***

*

**Zati-aliləri!**

İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Avropa Mərkəzi Ərazi İdarəsi adından doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Bu ilin noyabr ayında Bakıya səfərimiz zamanı Sizinlə görüşməyimiz bizim üçün şərəf idi. Dəyərli vaxtınızı ayırdığınıza və bizə diqqət göstərdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Sizə möhkəm cansağlığı, ölkə rəhbəri kimi fəaliyyətinizdə uğurlar, güc-qüvvət, Azərbaycan xalqına davamlı tərəqqi, sülh, sevinc arzulayırıq.

**Hörmətlə,**

***Cek GERARD,***
***ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Avropa Mərkəzi Ərazi İdarəsinin birinci məsləhətçisi***

*

**Çox hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin həyat yolunuz Vətənə fədakar xidmətin parlaq nümunəsidir və həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda milyonlarla insanı ruhlandırır. Sizin müdrik rəhbərliyiniz altında ölkə tərəqqi yolu ilə inamla irəliləyir, müstəqilliyini daha da möhkəmləndirir, regionda sülh və sabitliyin simvoluna çevrilir.

Tarixi ədalətin bərpası - Qarabağın azad edilməsi üçün atdığınız böyük addımlara görə Sizə xüsusi olaraq minnətdarıq. Bu tarixi Qələbə strateji uzaqgörənliyiniz, əzmkarlığınız və çox böyük səyləriniz sayəsində mümkün olmuşdur.

Bu gün Siz öz zəngin təcrübənizdən istifadə və bütün resursları səfərbər edərək Azərbaycana yeni nailiyyətlər qazandırırsınız. Azad edilmiş ərazilərin bərpası, ölkənin beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsi və Azərbaycan üçün yeni üfüqlər açan siyasi qələbələr bu nailiyyətlərin əyani təsdiqidir.

Milli ruhun gücləndirilməsi, iqtisadiyyatın, elmin, təhsilin və sosial sahələrin inkişafı üçün gördüyünüz işlər dövlətin tərəqqisi və hər bir vətəndaşın rifahı üçün möhkəm təməl yaradır. Siz ən mürəkkəb problemləri şərəf və ləyaqətlə həll etməyə qadir olan, bu günün çətinliklərini və sabahın perspektivlərini görən bir liderin müdrikliyini təcəssüm etdirirsiniz.

Sizə və gözəl ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah, Azərbaycanın firavanlığı, tərəqqisi naminə səmərəli fəaliyyətinizdə tükənməz enerji və yeni-yeni uğurlar arzulayıram.

**Doğum gününüz mübarək!**
**Dərin hörmətlə Sizin,**

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" və "Şərəf" ordenləri laureatı, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət və hökumət mükafatları laureatı, Rusiyanın Əməkdar elm xadimi və "Dostluq" ordeni laureatı***

**Zati-aliləri!**

Otuz altı Avropa ölkəsindən aparıcı alimləri, ictimai xadimləri birləşdirən platforma - Avropa Müsəlman Forumu adından Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırmaqdan şərəf duyuruq.

Azərbaycan Respublikasının suverenliyinin, sabitliyinin və beynəlxalq mövqeyinin möhkəmlənməsində həlledici rol oynayan liderliyinizi yüksək dəyərləndiririk. Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan zəngin mədəni irsini, mənəvi dəyərlərini qoruyub saxlayaraq qlobal miqyasda nüfuzlu bir aktor kimi tanınır.

Avropa Müsəlman Forumu Azərbaycan Respublikası ilə konstruktiv münasibətlərini və Zati-alinizin dialoqa, əməkdaşlığa və qarşılıqlı anlaşmaya töhfələrini yüksək qiymətləndirir. Bu töhfələr İslam dəyərlərinin, mədəniyyətlərarası harmoniyanın, birgəyaşayışın təşviqində mühüm rol oynayır.

Zati-alinizə möhkəm cansağlığı, bol enerji və Azərbaycan xalqına xidmətinizdə uğurlar diləyirik. Həmçinin Azərbaycan Respublikasına davamlı sülh, firavanlıq və daha da çox tərəqqi arzulayırıq.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

***Abdul-Vahed NİYAZOV,***
***Avropa Müsəlman Forumunun prezidenti,***
***Forumun İdarə Heyətinin üzvləri:***
***Nader Akkad – İtaliya, İqbal Sakrani – Böyük Britaniya, Nazir Ahmed – Böyük Britaniya, Anna Stamou – Yunanıstan, Romas Yakubauskas – Litva, Doğan Bekin – Türkiyə***

*

**Zati-aliləri, çox hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə Sizi Rusiya Müsəlmanları Ruhani Məclisi adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Müasir Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi inkişafda, beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsində bütün möhtəşəm nailiyyətləri Sizin adınızla bağlıdır. Uzun illər Azərbaycan Prezidenti vəzifəsində səylə çalışaraq respublikada dövlətçiliyin, ictimai vəhdətin möhkəmləndirilməsinə, millətlərarası və dinlərarası münasibətlərin harmoniyasına mühüm töhfələr verirsiniz.

Siz haqlı olaraq qlobal miqyasda ən nüfuzlu siyasi xadimlərdən biri hesab edilirsiniz. Fərəhlə qeyd edirik ki, Siz insanların sabit və təhlükəsiz həyatı naminə mədəniyyətlərarası dialoqun inkişafı, dinlərarası sülhün möhkəmləndirilməsi üçün genişmiyaslı və mühüm işlər aparırsınız.

Mənəvi inkişaf məsələlərinə gəldikdə, biz ənənəvi İslam dəyərlərinin qorunmasına, inancından və milliyyətindən asılı olmayaraq, Rusiya və Azərbaycan vətəndaşları arasında qarşılıqlı hörmət və anlaşma mühitinin dəstəklənməsinə Sizin göstərdiyiniz diqqəti yüksək qiymətləndiririk.

Sizə möhkəm cansağlığı, həmişə tükənməz həyat enerjisi və mətinlik arzulayıram. Qoy həyatınız xoşbəxtlik, sevinc və uğurlarla dolu olsun, bütün təşəbbüsləriniz müvəffəqiyyətlə başa çatsın! Etibarlı silahdaşlar və sadiq dostlar, bütün təşəbbüslərinizdə Sizi dəstəkləyən yaxınlarınız həmişə yanınızda olsun!

Uca Allah Sizi qorusun, xeyirxah əməllərə görə mükafatlandırsın!

**Hörmətlə və xeyir-dualarla,**

***Albir həzrət KRQANOV,***
***Moskvanın müftisi,***
***Rusiya Müsəlmanları Ruhani Məclisinin rəhbəri***

*

**Zati-aliləri!**

"ACWA Power" şirkətinin Direktorlar Şurası və bütün kollektivi adından Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram. Bu əlamətdar gün Azərbaycan Respublikasına inkişafın bütün sahələrində nailiyyətlər qazandıran uzaqgörən liderliyinizi qeyd etmək üçün yaxşı fürsət yaradır.

Zati-alinizin müdrik və qətiyyətli rəhbərliyi altında Azərbaycan suverenliyini, ərazi bütövlüyünü bərpa etmiş və möhkəmləndirmiş, bu da beynəlxalq ictimaiyyətdə dərin hörmət, ölkə vətəndaşlarında böyük qürur hissi yaratmışdır. Azad edilmiş ərazilərin uğurla bərpası və inteqrasiyasından tutmuş mühüm əhəmiyyətə malik regional və qlobal enerji layihələrinə qədər Azərbaycanın əldə etdiyi çox böyük nailiyyətlər Sizin uzaqgörənliyinizin və xalqınızın firavanlığına sarsılmaz sadiqliyinizin əyani sübutudur.

İqtisadi şaxələndirməyə, ardıcıl inkişafa və yaşıl keçidə davamlı diqqət yetirməyiniz firavan və sabit gələcəyin təməlini təşkil edir. COP29-a ev sahibliyi etmək şərəfi Azərbaycanın artan qlobal təsirini, davamlı və təhlükəsiz enerji mənzərəsinin formalaşdırılmasında liderliyini nümayiş etdirir.

"ACWA Power" bu mühüm prosesləri dəstəkləməkdən və öz töhfəsini verməkdən qürur duyur. Tərəfdaşlığımız vasitəsilə Zati-alinizin daha təmiz, daha təhlükəsiz enerji gələcəyi ilə bağlı təşəbbüslərinə dəstək verərək, ölkələrimiz arasında əlaqələri daha da möhkəmləndirməyə sadiq qalırıq.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı, cansağlığı, xoşbəxtlik, uğurlar, Azərbaycan xalqına davamlı sülh və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məhəmməd ƏBUNƏYYAN,***
***Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin təsisçisi və Direktorlar Şurasının sədri***

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz əsl Azərbaycan vətənpərvəri, güclü və müdrik dövlət xadimisiniz. Siz ildən-ilə doğma ölkənizi daha böyük tərəqqiyə doğru aparır, respublika vətəndaşlarının həyatının bütün sahələrinin planlı və dinamik inkişafına töhfə verirsiniz. Sizin həyatınız parlaq səhifələr və böyükmiqyaslı nailiyyətlərlə zəngindir. Vətənin mənafeyi naminə uzun illər ərzində göstərdiyiniz fədakar fəaliyyətin əhəmiyyətini yüksək qiymətləndirməmək mümkün deyil.

Qoy həyatınızın növbəti ili yeni qələbələrlə və bütün təşəbbüsləriniz uğurlarla əlamətdar olsun!

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik, hər zaman ruh yüksəkliyi, tükənməz enerji və rifah arzulayıram.

**Hörmətlə,**

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

**Möhtərəm İlham Heydər oğlu!**

İcazə verin, doğum gününüz münasibətilə Sizi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin minlərlə nəfərdən ibarət kollektivi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim.

Ədalət prinsiplərinə, sosial məsuliyyətə sadiqliyiniz və vətəndaşların rifahına göstərdiyiniz qayğı səmimi heyranlıq doğurur. Azərbaycan Respublikasının sabitliyinin, təhlükəsizliyinin və rifahının təmin edilməsi istiqamətində göstərdiyiniz səylər ölkəyə öz iqtisadi, mədəni potensialını qoruyub saxlamağa və artırmağa imkan verib ki, bu da müasir şəraitdə xüsusilə böyük əhəmiyyət kəsb edir.

Sizin elm və təhsilin inkişafına verdiyiniz töhfəni, innovativ layihələrə göstərdiyiniz dəstəyi və ənənəvi dəyərlərin qorunmasını xüsusi qeyd etmək istərdim. Bütün bunlar gələcək nəsillər üçün möhkəm təməl yaradır.

Əminəm ki, Moskva Dövlət Universiteti ilə Azərbaycanın elm və təhsil mərkəzləri arasında əməkdaşlığın gələcək inkişafı ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə töhfə verəcəkdir.

İcazə verin, Moskva Dövlət Universitetinin Bakı şəhərindəki filialına göstərdiyiniz əvəzsiz dəstəyə, həmçinin ümumilikdə təhsil və elmin inkişafı məsələlərinə ayırdığınız diqqətə görə Sizə səmimi minnətdarlığımı və təşəkkürümü bildirim.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, doğma ölkənizin rifahı və dövlətlərimiz arasında hərtərəfli əməkdaşlığın inkişafı üçün nəzərdə tutduğunuz bütün planların həyata keçməsində uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***Viktor SADOVNİÇİ,***
***M.V.Lomonosov adına***
***Moskva Dövlət Universitetinin rektoru***

*

**Zati-aliləri, hörmətli İlham Heydər oğlu.**

"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımı bildirir, doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırıram.

Bu əlamətdar gündə Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və rifah arzu edirəm.

Sizin uzaqgörən rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik iqtisadi artımı, institusional islahatları və fəal xarici siyasəti özündə ehtiva edən inkişaf kursunu davam etdirir. Bütün sahələrdə əldə edilən nailiyyətlər ölkənin beynəlxalq əməkdaşlığının genişləndirilməsi, regional və qlobal səviyyələrdə nüfuzunun möhkəmləndirilməsi üçün möhkəm təməl yaradır.

"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyi Azərbaycanın tərəqqisi və əməkdaşlığın çoxsaylı sahələr üzrə, o cümlədən nəqliyyat sektorunun təkmilləşdirilməsi istiqamətində göstərdiyiniz səyləri dərin hörmətlə qeyd edir. Fürsətdən istifadə edərək, Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin bütün iştirakçı ölkələrinin mənafeyi naminə "TRACECA"nın fəaliyyətinə Azərbaycan Respublikasının göstərdiyi dəstəyə görə səmimi minnətdarlığımızı bildirirəm.

Zati-aliləri, Sizi bir daha təbrik edir, ən xoş arzularımı bildirirəm.

**Hörmətlə,**

***Asset ASSAVBAYEV,***
***"TRACECA" Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Baş katibi***

*

**Hörmətli İlham Heydər oğlu!**

İcazə verin, doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırım.

Siz Azərbaycan Respublikasının müasir tarixinin görkəmli şəxsiyyətisiniz. Uzaqgörən siyasətçi kimi mühüm keyfiyyətləriniz, geniş düşüncəniz və məqsədlərinizə çatmaqda əzmkarlığınız Azərbaycan Respublikasının Prezidenti kimi uğurlu fəaliyyətinizi müəyyən etmişdir.

Əminəm ki, müdrik lider və dövlət xadimi kimi istedadınız uzun illər ərzində Azərbaycan Respublikasını gücləndirəcək və inkişaf etdirəcəkdir.

Sizə möhkəm cansağlığı, gözəl ölkənizin zəhmətkeş xalqının rifahı naminə fəaliyyətinizdə tükənməz enerji və yeni böyük nailiyyətlər arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***İqor MAKAROV,***
***"ARETİ" Beynəlxalq Şirkətlər Qrupunun prezidenti***

*

**Hörmətli İlham Heydər oğlu!**

Rusiyanın TASS informasiya agentliyinin kollektivi Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir.

Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq prinsiplərinə əsaslanan və zamanın sınağından çıxmış sıx münasibətlər mövcuddur. Sizin bu ilin oktyabr ayında Düşənbədə Rusiyanın dövlət başçısı ilə görüşünüz iki ölkə arasında əməkdaşlığın konyunktur dalğalanmalarına məruz qalmamasının bariz nümunəsi oldu. Həmin görüş Moskva ilə Bakının konstruktiv dialoqa və regional sabitliyin birgə gücləndirilməsinə hazır olduğunu nümayiş etdirdi.

İqtisadi və humanitar sahələrdə birgə proqramların həyata keçirilməsini və dövlətlərarası əlaqələrin genişləndirilməsini təşviq etməklə Siz hər iki ölkə üçün uğurlu gələcəyə zəmanət verən tarixi təməli möhkəmləndirirsiniz.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, sülh, firavanlıq və Azərbaycan-Rusiya münasibətlərinin yaxşılaşması istiqamətində təşəbbüslərinizdə yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***Andrey KONDRAŞOV,***
***Rusiyanın TASS İnformasiya Agentliyinin baş direktoru***

*

**Hörmətli İlham Heydər oğlu!**

"Qazprom" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, səadət, Azərbaycanın inkişafına yönəlmiş bütün planlarınızın uğurla reallaşmasını, xalqınızın firavanlığı naminə səmərəli fəaliyyətinizdə yeni böyük nailiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Aleksey MİLLER,***
***Rusiyanın "Qazprom" Publik Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri***

**Çox hörmətli İlham Heydər oğlu!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Sizin çoxillik ali dövləti fəaliyyətiniz Azərbaycanın inkişafının əsas mərhələləri ilə ayrılmaz şəkildə bağlıdır. Strateji məsələlərə ardıcıl yanaşmanız, eləcə də dövlətin dayanıqlığının gücləndirilməsi və vətəndaşların rifahının yaxşılaşdırılması işlərində xidmətləriniz Sizə həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda layiqli hörmət qazandırıb.

Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi modernləşmə və milli potensialının gücləndirilməsi prioritetlərini inamla reallaşdırır. Sizə xas olan strateji baxış və uzunmüddətli hədəflərə çatmaz əzminiz ölkənin bundan sonra da davamlı şəkildə irəliyə hərəkət etməsi üçün möhkəm təməl yaradır.

Mürəkkəb və dinamik şəkildə dəyişən qlobal gündəm şəraitində düşünülmüş qərarlar, eləcə də tərəfdaşlarla davamlı, praqmatik və qarşılıqlı hörmətə əsaslanan əlaqələrin genişləndirilməsi ilə bağlı nümayiş etdirdiyiniz mövqe xüsusilə dəyərlidir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz enerji, hər zaman ruh yüksəkliyi və Azərbaycanın rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Əminəm ki, müdrikliyiniz və liderlik istedadınızla bundan sonra da ölkənizin tərəqqisi üçün böyük işlər görməkdə davam edəcəksiniz.

**Hörmətlə,**

***German QREF,***
***Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri***

*

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Siz istedadlı siyasi və dövlət xadimi olaraq Azərbaycan Respublikasının inkişafına böyük töhfə vermisiniz.

Bu gün Rusiya ilə Azərbaycan arasında əlaqələr bərabərlik, əsrlərə söykənən dostluq və qarşılıqlı hörmət ənənələri əsasında inkişaf etməyə davam edir.

Ölkələrimiz ən müxtəlif sahələrdə, o cümlədən hərbi-texniki sahədə əməkdaşlığı genişləndirir.

Əminəm ki, Rusiya ilə Azərbaycan arasında dialoq bundan sonra da konstruktiv olacaqdır.

Sizə möhkəm cansağlığı arzulayıram.

**Hörmətlə,**

***Sergey ÇEMEZOV,***
***Rusiya Federasiyasının "Rostex" Dövlət Korporasiyasının baş direktoru***

*

**Zati-aliləri!**

"Mir" Dövlətlərarası Teleradio Şirkəti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə ən səmimi və xoş arzularla təbrik edirəm.

Sizə və yaxınlarınıza möhkəm cansağlığı, rifah, qarşıya qoyduğunuz məqsədlərin həyata keçməsində bundan sonra da uğurlar, Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizə doğum gününüz münasibətilə səmimi təbriklərimi çatdırıram.

Biz İsraildə Sizin Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsinə xidmət edən fəaliyyətinizi diqqətlə izləyirik. Siz dəfələrlə xarici təzyiqlər qarşısında əyilməyən lider kimi qətiyyət nümayiş etdirmisiniz. Biz israillilər dövlətimizlə qurduğunuz və bütün cəhdlərə baxmayaraq, heç kəsin xələl gətirə bilmədiyi dostluğa və tərəfdaşlığa görə Sizə səmimi-qəlbdən minnətdarıq.

Azərbaycan yəhudiləri, eləcə də ölkənizdəki digər azlıqların nümayəndələri dini etiqad azadlığına, təhlükəsizliyə, bərabər hüquqlara, antisemitizmə yol verilməməsinə görə Sizə təşəkkür edirlər.

Sizin Qarabağın işğaldan azad edilməsi ilə nəticələnən addımlarınız dünyada çox sayda xalqa ədalətin bərpa oluna biləcəyi ümidini verib. Bəzən bu, dərhal baş vermir, çünki bunun üçün gücü və münasib zamanı müəyyənləşdirməyə imkan verən müdriklik tələb olunur. Həqiqi nəticələr məhz bu yolla əldə edilir. Əsl dövlət liderləri "birgünlük siyasətçilər"dən fərqli olaraq məhz belə davranırlar.

Cənab Prezident, Sizin uğurlarınızı saymaqla bitməz. Azərbaycanın Sizin rəhbərliyinizlə sürətlə inkişaf etməsi, regionun lider dövlətinə çevrilməsi xüsusi qeyd edilməlidir.

İstər xarici ölkə liderlərinin, istərsə də milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanda və dünyada yaşayan sadə insanların Sizə olan hörməti gördüyünüz işlərin bəhrəsidir. Ölkənizin rifahı naminə fəaliyyətiniz Sizə böyük ehtiram və rəğbət yaradıb.

Cənab Prezident, biz Sizin hamıya təklif etdiyiniz bu dostluq formulunu alqışlayırıq - Azərbaycan bərabərhüquqlu münasibətlər əsasında sizin dostunuz olmağa hazırdır. Lakin heç vaxt Azərbaycana nəyisə zorla qəbul etdirməyə çalışmayın.

Tam şəkildə əminik ki, Siz həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlılara hələ çoxlu qələbələr, nailiyyətlər bəxş edəcəksiniz.

Əziz İlham Heydər oğlu, icazə verin, doğum gününüz münasibətilə Sizi bir daha təbrik edim, Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanı bundan sonra da uğurlara və firavanlığa doğru aparan fəaliyyətinizdə bol enerji arzulayım.

**Dərin hörmətlə,**

***Adam AMİLOV,***
***"Azİz" – İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının prezidenti***

*

**Zati-aliləri cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə Cəmiyyətimizin üzvləri adından və şəxsən öz adımdan təbriklərimizi çatdırmaqdan, möhkəm cansağlığı, ali missiyanızda davamlı uğurlar arzulamaqdan böyük məmnunluq duyuram.

Qoy həyatınızın bu yeni ili həm Sizin üçün, həm də bütün azərbaycanlılar üçün yeni uğurlar və tərəqqi gətirsin!

Xalqınızın əmin-amanlığı, sabitliyi və firavanlığı naminə fəaliyyətinizi bundan sonra da qətiyyətlə davam etdirməyinizi arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı və dərin hörmətimi qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd FƏQİRİ,***
***Mərakeş-Azərbaycan Dostluq Cəmiyyətinin sədri***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Sizi Dünya Azərbaycanlı Alimlər Birliyinin üzvləri adından və şəxsən öz adımdan doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

2022-ci ildə gözəl Şuşamızda Sizin də iştirakınızla keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər qurultayındakı çıxışımda dediyim kimi, mən qalib Ordumuzun və Müzəffər Ali Baş Komandanımızın yanında olan diaspor ordusunun bir nümayəndəsiyəm.

Sizin 2024-cü ilin sentyabr ayında Bakıda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçılarına ünvanladığınız müraciətin bizə - xaricdə yaşayan və ürəyi daim Azərbaycanla döyünən elm adamlarına necə gözəl təsir bağışladığını, nə qədər ruh yüksəkliyi verdiyini sözlərlə ifadə etmək qeyri-mümkündür.

Cənab Prezident, mən 35 ildən çoxdur ki, Almaniyada yaşayan bir diaspor nümayəndəsi, həm də Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri kimi bildirirəm ki, hər zaman Sizin yanınızdayıq.

Allah Sizi və qalib xalqımızı qorusun!

**Hörmətlə,**

***Məsud ƏFƏNDİYEV,***
***Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri,***
***Azərbaycanın Əməkdar elm xadimi,***
***Almaniya hökumətinin təsis etdiyi***
***“Aleksander fon Humboldt” mükafatını alan ilk***
***azərbaycanlı, professor***

*

**Zati-aliləri cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə Avropa Azərbaycan Mərkəzinin və Almaniya Azərbaycanlıları Alyansının adından səmimi-qəlbdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və Azərbaycanın tərəqqisi naminə həyata keçirdiyiniz ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

Azərbaycan Respublikasının inkişafı, xalqımızın rifahının yüksəldilməsi, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində rəhbərliyinizlə həyata keçirilən məqsədyönlü siyasət və görülən işlər dünya azərbaycanlıları tərəfindən böyük rəğbət və qürur hissi ilə qarşılanır. Sizin qətiyyətli liderliyiniz sayəsində əldə olunan nailiyyətlər ölkəmizin gələcək inkişafı üçün möhkəm təməl formalaşdırır.

Bu əlamətdar gündə Zati-alinizə bir daha təbriklərimizi, yeni-yeni müvəffəqiyyətlər, tükənməz enerji arzularımızı çatdırırıq.

Doğum gününüz mübarək olsun!

**Dərin hörmətlə,**

***Zaur ƏLİYEV,***
***Avropa Azərbaycan Mərkəzinin sədri,***
***Almaniya Azərbaycanlıları Alyansının***
***İdarə Heyətinin üzvü***

*

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin kollektivi adından səmimi-qəlbdən təbrik edir, Sizə dərin hörmət və ehtiramımızı bildirirəm.

Sizin müdrik və uzaqgörən rəhbərliyiniz altında Azərbaycan Respublikası son illər ərzində dinamik inkişaf yolu keçmiş, güclü və nüfuzlu dövlətə çevrilmişdir. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli maraqların qətiyyətlə qorunması və xalqın rifahının yüksəldilməsi istiqamətində həyata keçirdiyiniz ardıcıl və prinsipial siyasət Azərbaycan xalqının Sizə olan böyük inam və etimadının bariz ifadəsidir.

Bu uğurlu siyasi xəttin ən parlaq nəticələrindən biri isə Sizin Ali Baş Komandan kimi rəhbərliyinizlə qazanılmış tarixi Zəfərdir. Həmin Zəfər Azərbaycan dövlətçiliyinin şanlı səhifələrindən biri olmaqla yanaşı, xalqımızın birlik və əzminin, Sizin isə güclü siyasi iradənizin aydın göstəricisidir. Bu Qələbə bu gün bütün dünya azərbaycanlıları üçün qürur və mənəvi güc mənbəyinə çevrilmişdir.

Eyni zamanda, xaricdə yaşayan soydaşlarımızın, o cümlədən Gürcüstan azərbaycanlılarının milli-mədəni kimliyinin qorunmasına, ana Vətənlə əlaqələrinin möhkəmləndirilməsinə göstərdiyiniz diqqət və qayğı xüsusi rəğbətlə qarşılanır və yüksək dəyərləndirilir.

Doğum gününüz münasibətilə Sizə möhkəm cansağlığı, uzun ömür və ailə səadəti arzulayıram. Azərbaycan dövlətinə və xalqına xidmət yolunda ali vəzifənizin icrasında Sizə daim uğurlar diləyirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da böyük nailiyyətlər əldə edəcək, beynəlxalq nüfuzunu və inkişaf tempini ardıcıl şəkildə yüksəldəcəkdir.

**Dərin hörmətlə,**

***Murad MURADOV,***
***Gürcüstan Azərbaycanlılarının***
***İnteqrasiya Mərkəzinin icraçı direktoru***

**Hörmətli cənab Prezident!**

Niderlandda fəaliyyət göstərən Belçika-Niderland Koordinasiya Şurasının nəzdindəki təşkilatlar adından Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, uzun ömür və gələcək fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq.

Sizin uzaqgörən, uğurlu daxili və xarici siyasətiniz nəticəsində Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətlərindən birinə çevrilmişdir. Ölkəmizin siyasi sabitliyi, iqtisadi inkişafı və beynəlxalq arenada artan nüfuzu məhz Sizin qətiyyətli və müdrik liderliyinizin bariz göstəricisidir.

Sizin rəhbərliyiniz altında Azərbaycan xalqı tarixi uğurlara imza atmışdır. Qarabağın işğaldan azad edilməsi və Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə tariximizə qızıl hərflərlə yazılmışdır. Bu böyük qüruru bizə yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

Siz təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində yaşayan bütün azərbaycanlıların Prezidenti, milli birliyimizin və həmrəyliyimizin rəmzisiniz. Diasporumuzun güclənməsi və azərbaycançılıq ideyasının möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyiniz ardıcıl siyasət xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın davamlı inkişaf etməsində, bölgədə gücünün artmasında və beynəlxalq mövqelərinin möhkəmlənməsində Sizin rolunuz əvəzsizdir.

Sizə gələcək fəaliyyətinizdə uğurlar diləyir, rəhbərliyiniz altında Azərbaycanın daha da inkişaf etməsini və yeni zirvələr fəth etməsini arzulayırıq.

**Dərin hörmətlə,**

***Elsevər MƏMMƏDOV, Belçika–Niderland Koordinasiya Şurasının Niderland üzrə əlaqələndiricisi, Benilüks Azərbaycanlıları Konqresinin sədri və Qarabağ İdman Klubunun rəhbəri,***
***İlhan AŞKIN, Azərbaycan Türk Mədəniyyət Dərnəyinin sədri,***
***Elxan MİRHƏŞİMLİ, Hollandiya Azərbaycan Evinin rəhbəri,***
***Emil ƏLİYEV, Avropa Azərbaycanlıları Media Qrupunun rəhbəri,***
***Mayisə AĞAMİRZƏYEVA, Ana Vətən Avropa Azərbaycanlı Qadınlar Birliyinin sədri,***
***Kəmalə CƏLİLOVA, Beynəlxalq Azərbaycan Xanımlar Klubunun rəhbəri,***
***Firəngiz BAĞIROVA, Niderland Azərbaycan Odlar Yurdu Cəmiyyətinin rəhbəri***

*

**Hörmətli cənab Prezident!**

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu (MDBMİ) nəzdində fəaliyyət göstərən Azərbaycan Klubunun üzvləri adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə ən xoş arzularımızı çatdırıram.

Sizin müdrik, prinsipial və uzaqgörən rəhbərliyiniz altında Azərbaycan Respublikası müasir çağırışlara layiqincə cavab verən, beynəlxalq arenada nüfuzu daim artan güclü və suveren dövlət kimi mövqeyini daha da möhkəmləndirmişdir. Milli maraqlara əsaslanan ardıcıl dövlət siyasətiniz, sosial-iqtisadi inkişaf strategiyanız və müstəqil xarici siyasət kursunuz gənc nəsil üçün nümunə və ilham mənbəyidir.

Bizim üçün xüsusi qürur və mənəvi dəyər kəsb edən məqam ondan ibarətdir ki, Siz MDBMİ-nin məzunu olaraq bu ali məktəbin tarixi və intellektual irsinin parlaq nümayəndələrindən birisiniz. Bu fakt MDBMİ-də təhsil alan azərbaycanlı tələbələr üçün böyük stimul olmaqla yanaşı, üzərimizə xüsusi və məsuliyyətli bir missiya qoyur. Azərbaycanı beynəlxalq akademik mühitdə təmsil edən tələbələr kimi biz ölkəmizin adını daim uca tutmağı, dövlətçilik ənənələrinə və milli maraqlara sadiq qalmağı özümüz üçün yüksək mənəvi borc hesab edirik.

Sizin rəhbərliyinizlə həyata keçirilən gənclər və təhsil siyasəti, intellektual potensialın inkişafına göstərilən diqqət Azərbaycanın gələcəyinə yönəlmiş strateji baxışın bariz nümunəsidir. Xaricdə təhsil alan gənclər, o cümlədən MDBMİ tələbələri ölkəmizin uğurlarını böyük qürur hissi ilə izləyir və Vətənlə mənəvi bağlılıqlarını daha da möhkəmləndirirlər.

Biz Sizə güclü, müasir və qalib Azərbaycanın Prezidenti, milli birliyin və dövlətçilik ənənələrinin simvolu kimi dərin hörmət bəsləyirik. Sizin fəaliyyətiniz Azərbaycan gəncliyində dövlətə, xalqa və milli dəyərlərə xidmət idealını möhkəmləndirir.

Hörmətli cənab Prezident, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, tükənməz enerji və Azərbaycan xalqının rifahı naminə həyata keçirdiyiniz ali missiyada yeni-yeni uğurlar arzulayırıq. Qoy yorulmaz fəaliyyətiniz ölkəmizə davamlı inkişaf, sülh və tərəqqi gətirsin!

**Dərin hörmət və ehtiramla,**

***Murad PİRMƏMMƏDOV,***
***Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu nəzdində fəaliyyət göstərən Azərbaycan Klubunun sədri***

**Möhtərəm cənab Prezident,**
**Müzəffər Ali Baş Komandan!**

Karabük Azərbaycanlıların Həmrəylik, Mədəniyyət və İncəsənət Dərnəyi adından Zati-alinizə doğum gününüz münasibətilə səmimi təbriklərimizi çatdırmaqdan qürur duyuruq.

Sizin milli dövlətçiliyimiz və suverenliyimizin daha da möhkəmlənməsinə göstərdiyiniz diqqət bizim Vətənə bağlılığımızı gücləndirir. Azərbaycanın beynəlxalq arenada nüfuzunun artması, güclü bir dövlət kimi dünyada öz sözünü deməsi məhz Sizin siyasi iradəniz nəticəsində mümkün olmuşdur. Sizin qətiyyətiniz sayəsində 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanaraq Qarabağımızı azad etdik, dünyada qalib xalq olaraq tanındıq.

Bizə yaşatdığınız bu böyük sevinc və qürura görə Sizə minnətdarıq.

Fürsətdən istifadə edərək, Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik.

**Dərin hörmətlə,**

***Eşqin İSMAYILOV,***
***Türkiyədə fəaliyyət göstərən Karabük Azərbaycanlıların Həmrəylik, Mədəniyyət və İncəsənət Dərnəyinin sədri***

*

**Hörmətli cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizi Estoniya–Azərbaycan Evi adından səmimi-qəlbdən təbrik edir, dərin hörmət və ehtiramımızı bildiririk.

Sizin uzaqgörən və qətiyyətli rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası mühüm tarixi nailiyyətlər əldə etmiş, dövlət suverenliyini və ərazi bütövlüyünü tam təmin etmiş, beynəlxalq aləmdə mövqelərini daha da gücləndirmişdir. Bu böyük uğurlar xaricdə yaşayan azərbaycanlılar üçün qürur mənbəyi olmaqla yanaşı, Vətənlə mənəvi bağlarımızı daha da möhkəmləndirir.

Sizin ardıcıl və məqsədyönlü diaspor siyasətiniz dünya azərbaycanlılarının birliyinin möhkəmlənməsi, milli kimliyimizin qorunması, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından xüsusi önəm kəsb edir. Biz də Estoniya–Azərbaycan Evi olaraq bu siyasətə uyğun şəkildə ölkəmizi layiqincə təmsil etməyə və Azərbaycan–Estoniya əlaqələrinin inkişafına töhfə verməyə çalışırıq.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayırıq. Sizin rəhbərliyiniz altında Azərbaycan dövlətinin daim güclənəcəyinə, xalqımızın sülh və rifah şəraitində yaşayacağına inanırıq.

**Dərin hörmətlə,**

***Zəhra QƏHRƏMANLI,***
***Estoniya–Azərbaycan Evinin rəhbəri***

*

**Möhtərəm cənab Prezident!**

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi, xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasındakı inkişaf proseslərini, ölkənin nailiyyətlərini diqqətlə izləyirik. Azərbaycanın yüksəlişi, bütün sahələrdə əldə etdiyi uğurlar bizim üçün qürur mənbəyidir.

Sizin qətiyyətli liderliyinizlə 44 günlük Vətən müharibəsində qazanılan və bu il beşinci ildönümü qeyd edilən Zəfər təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının bayramıdır. Regionda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində göstərdiyiniz səylər təqdirəlayiqdir.

Fürsətdən istifadə edərək, Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

**Hörmətlə,**

***Ziya Zakir ACAR,***
***İğdır Azərbaycan Evinin sədri***

*

**Hörmətli cənab Prezident!**

Rustavi Təhsil və Mədəniyyət Mərkəzinin kollektivi Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir.

Sizin rəhbərliyiniz altında Azərbaycan Respublikası böyük nailiyyətlər qazanmış, beynəlxalq aləmdə nüfuzunu daha da artırmış, milli-mənəvi dəyərlərin qorunması və inkişafı istiqamətində əhəmiyyətli nəticələr əldə etmişdir. Təhsil, mədəniyyət və gənclərin inkişafına göstərdiyiniz xüsusi diqqət hər zaman yüksək qiymətləndirilir. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası xalqımızın Zəfər salnaməsinə məhz Sizin adınızla yazılmışdır.

Gürcüstanda yaşayan azərbaycanlılar Sizin diqqət və qayğınızı daim öz üzərlərində hiss edirlər. Biz həmişə zəngin mədəniyyətimiz, şanlı tariximiz, milli-mənəvi dəyərlərimiz və ənənələrimizlə haqlı olaraq fəxr etmişik. Amma bu gün bizim ən böyük qürur və iftixar mənbəyimiz milli dövlətimiz olan Azərbaycan Respublikası, onun dünyada yüksələn nüfuzu, güclənən mövqeyidir. Bu qüruru və iftixarı bizə bəxş etdiyiniz üçün Sizə minnətdarıq.

Sizə möhkəm cansağlığı, uzun ömür, şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar, Azərbaycan xalqının rifahı naminə həyata keçirdiyiniz işlərdə davamlı nailiyyətlər arzulayırıq.

**Dərin hörmət və ehtiramla,**

***Rustavi Təhsil və Mədəniyyət Mərkəzinin kollektivi***

*

**Möhtərəm cənab Prezident,**
**Müzəffər Ali Baş Komandan!**

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Sizin liderliyinizlə Azərbaycan son 200 illik tariximizdə ilk dəfə olaraq itirdiyi torpaqları geri qaytararaq bir ilkə imza atdı. 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərlə torpaqlarımız işğaldan azad olundu, Azərbaycan qalib dövlət kimi adını tarixə yazdı və bu statusla da dünyada tanındı.

Sizin uzaqgörənliyiniz sayəsində Azərbaycan təkcə regional deyil, qlobal miqyasda mühüm tranzit və strateji əhəmiyyətli aktora çevrilmişdir. Siz bütün təzyiqlərə cəsarətlə sinə gərərək ölkəmizin milli maraqlarını qətiyyətlə qorumusunuz.

Möhtərəm cənab Prezident, doğum gününüz mübarək!

Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, dövlətçiliyimizin daim qorunması və möhkəmləndirilməsi naminə həyata keçirdiyiniz bütün işlərinizdə müvəffəqiyyətlər arzulayırıq!

**Dərin ehtiramla,**

***Ayda Əmir HAŞİMİ,***
***Skandinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Stokholm şəhəri üzrə koordinatoru***

*

**Hörmətli cənab Prezident!**

Sizi doğum gününüz münasibətilə dərin hörmət və ehtiramla səmimi-qəlbdən təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, uzun ömür və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan dövlətinin daha da qüdrətlənməsi, xalqımızın rifahının yüksəldilməsi naminə həyata keçirdiyiniz bütün təşəbbüslərdə Sizə davamlı nailiyyətlər arzu edirəm.

Cənab Prezident, Sizin keçdiyiniz həyat və liderlik yolu təkcə dövlət idarəçiliyini deyil, xalqın Sizə olan inamını, ümidlərini, tarixi yaddaşını və gələcəyə yönəlmiş baxışlarını özündə ehtiva edir. Bu yol son dərəcə böyük məsuliyyət tələb edən, eyni zamanda yüksək mənəvi dəyərə malik bir missiyadır və Siz bu missiyanı əzmkarlıq və ləyaqətlə həyata keçirirsiniz.

Arzu edirəm ki, gücünüz və qətiyyətinizlə Azərbaycan xalqına hər zaman yeni-yeni zəfərlər bəxş edəsiniz.

Doğum gününüz mübarək, cənab Prezident!

**Hörmətlə,**

***Günel BABANLI,***
***Serbiyanın Belqrad Universitetində fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin rəhbəri,***
***filologiya üzrə fəlsəfə doktoru***

*

**Hörmətli cənab Prezident!**

Zati-alinizi doğum gününüz münasibətilə Monreal Kanada Azərbaycan Cəmiyyəti adından səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür və Azərbaycan dövlətinin tərəqqisi naminə həyata keçirdiyiniz ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

Sizin uzaqgörən siyasətiniz, qətiyyətli liderliyiniz və milli maraqlara əsaslanan fəaliyyətiniz nəticəsində Azərbaycan bu gün beynəlxalq aləmdə güclü, müstəqil və nüfuzlu dövlət kimi tanınır. Bu uğurlar xaricdə yaşayan azərbaycanlılar üçün böyük iftixar mənbəyidir, eyni zamanda bizi Vətənimizlə daha sıx bağlayır və həmrəyliyimizi daha da möhkəmləndirir.

Arzu edirik ki, dövlətimiz üçün müəyyən etdiyiniz inkişaf yolu Sizin rəhbərliyinizlə daim uğurla davam etsin, xalqımız hər zaman rifah və əmin-amanlıq şəraitində yaşasın. İnanırıq ki, Azərbaycan Sizin rəhbərliyiniz altında gələcəkdə daha böyük nailiyyətlərə imza atacaqdır.

Cənab Prezident, Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edir, dərin ehtiram və hörmətimi ifadə edir, ölkəmizin və xalqımızın rifahı naminə fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

**Hörmətlə,**

***Rəna MÜSLÜMOVA,***
***Monreal Kanada-Azərbaycan Cəmiyyətinin təsisçisi və sədri***

## Baş nazir təyyarə qəzası qurbanlarının məzarlarını ziyarət edib



**“Azərbaycan Hava Yolları”nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğramasının birinci ildönümündə hadisənin səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının sədri, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 25-də İkinci Fəxri xiyabana gələrək həyatlarını itirən Milli qəhrəmanlar Hökumə Əliyeva, İqor Kşnyakin və Aleksandr Kalyaninovun məzarlarını ziyarət edib.**

Ə.Əsədov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və “Azərbaycan Hava Yolları” QSC-nin prezidenti Samir Rzayev qəzada həlak olan ekipaj üzvlərinin məzarlarına gül dəstələri qoyublar.

***XQ***

## Azərbaycan və Qazaxıstan Baş nazirlərinin başsağlıqları

**Dekabrın 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov “Azərbaycan Hava Yolları”nın Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğramasının birinci ildönümü ilə bağlı bir-birilərinə başsağlığı veriblər.**

Nazirlər Kabinetindən verilən məlumata görə, telefon danışığı zamanı Ə.Əsədov həmin faciəvi günlərdə hərtərəfli dəstəyə görə qardaş Qazaxıstanın hökumətinə və xalqına təşəkkürünü bildirib.

Hökumət başçıları bir-birilərinə, həlak olan şəxslərin ailə üzvlərinə və yaxınlarına, həmçinin hər iki ölkənin xalqına başsağlıqlarını ifadə ediblər.

***XQ***

## Səma qəhrəmanları yad edilib



**Dekabrın 25-də Bakı–Qroznı reysini yerinə yetirən “Azərbaycan Hava Yolları”na məxsus sərnişin təyyarəsinin qəzaya uğramasından bir il ötür.**

Hadisənin birinci ildönümü ilə əlaqədar olaraq qəza nəticəsində həlak olan ekipaj üzvlərinin - Azərbaycanın milli qəhrəmanları İqor İvanoviç Kşnyakin, Aleksandr Georgiyeviç Kalyaninov, Hökumə Cəlil qızı Əliyevanın xatirəsi II Fəxri xiyabanda yad olunub.

Həlak olan ekipaj üzvlərinin məzarları ziyarət olunub, önünə əklil qoyulub, tər güllər düzülüb, ruhlarına dualar oxunub.

Ziyarətdə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, “AZCON Holding”in icraçı direktoru Şahin Babayev, “Azərbaycan Hava Yolları” QSC-nin prezidenti Samir Rzayev də iştirak ediblər.

***XQ***

# Tarixin hökmü və milli qeyrətin zəfəri

## “İkili standart”ların başına enən “Dəmir yumruq” və yeni dünya nizamı

**“Tarix heç zaman zəiflərin göz yaşlarına inanmır, o, yalnız güclü iradənin diktə etdiyi reallıqları qəbul edir. Biz ədaləti bərpa etmək üçün beynəlxalq hüququn gücünə güvəndik, lakin gördük ki, dünyada gücün hüququ hökm sürür. Buna görə də biz hüququmuzu gücümüzlə təmin etdik və bu gün dünya reallıqla hesablaşmaq məcburiyyətindədir”.**



Prezident İlham Əliyevin konseptual yanaşması müasir Azərbaycan dövlətçiliyinin strateji xəttini və qlobal sistemdəki yerini müəyyən edən mühüm doktrinadır. Dövlət başçısının son bəyanatlarında əks olunan Cənubi Qafqazda formalaşan yeni geosiyasi arxitekturanın siyasi-hüquqi pasportudur. Müstəqillik tariximizin ən mürəkkəb və şərəfli səhifələrinin yekunu olan bu bəyanat, əslində, beynəlxalq münasibətlər sistemindəki ikili standartlara, riyakarlığa və ədalətsizliyə qarşı qalib gələn milli iradənin manifestidir. Prezidentin vurğuladığı dost və düşmən nisbəti Azərbaycanın illər ərzində apardığı mübarizənin nə qədər çətin və asimmetrik şəraitdə keçdiyini nümayiş etdirir. “Əfsuslar olsun ki, düşmənlərimiz dostlarımızdan bir neçə dəfə çox olub” fikri ölkəmizin qarşılaşdığı qlobal müqavimətin miqyasını göstərən acı həqiqətdir.

Mövcud mənzərə onu sübut edir ki, beynəlxalq siyasətdə dövlətin daxili gücü və liderin qətiyyəti həlledici amildir. Prezidentin qeyd etdiyi güclü iradə, siyasi addımlar və Silahlı Qüvvələrin qüdrəti triadası Azərbaycanın həm döyüş meydanında, həm də diplomatik masada qazandığı zəfərlərin təməl formuludur. Beş il öncə, 2020-ci ilin payızında qazanılan tarixi Zəfər düşmənin hərbi potensialını məhv etdi və işğal faktına son qoydu. Lakin bu, hələ yolun sonu sayıla bilməzdi. Suverenliyin tam və qəti bərpası üçün separatizmin kökünün kəsilməsi, ərazimizdə mövcud olan qanunsuz silahlı birləşmələrin ləğvi və konstitusiya quruluşunun bərpası zəruri idi. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri məhz bu tarixi missiyanı tamamladı. Həmin əməliyyat “hərbi cərrahiyyə” dəqiqliyi ilə həyata keçirilməklə yanaşı, həm də yüksək siyasi cəsarət nümunəsi idi. Çünki həmin dövrdə Azərbaycana qarşı edilən xarici təzyiqlər, təhdidlər və sanksiya hədələri pik həddə çatmışdı. Lakin Azərbaycan Prezidenti bütün təzyiqləri neytrallaşdıraraq, milli maraqların tələb etdiyi addımı atmaqdan çəkinmədi. Nəticədə, separatçılıq yuvası darmadağın edildi və Azərbaycanın ərazi bütövlüyü üzərindəki suverenliyi mütləq xarakter aldı. Ondan sonra keçən iki il ərzində bütün beynəlxalq təşkilatlarda bu reallığın təsdiq olunması Azərbaycan diplomatiyasının növbəti uğurudur.

Prezident İlham Əliyevin müraciətindəki diqqətçəkən məqamlardan biri, şübhəsiz ki, ATƏT-in Minsk qrupunun və ona bağlı təsisatların rəsmən ləğv edilməsi ilə bağlıdır. Mənfur Minsk qrupu ifadəsi Azərbaycan xalqının quruma bəslədiyi inamsızlığın və qəzəbin dürüst ifadəsidir. Minsk qrupu fəaliyyət göstərdiyi dövr ərzində münaqişənin dondurulmasına, işğalın legitimləşdirilməsinə və Azərbaycanın ərazilərinin itirilməsi ilə barışmasına xidmət edən mexanizm rolunu oynamışdır. Həmsədrlərin “turist diplomatiyası”, mənasız səfərləri və nəticəsiz danışıqlar prosesi, regionda sülhün bərqərar olmasına mane olan əsas amillərdən biri idi. Azərbaycanın təkidli tələbi ilə bu ayın əvvəlində Minsk qrupunun tarixin arxivinə göndərilməsi, əslində, Qərbin regiondakı ənənəvi təsir alətlərindən birinin ləğvi deməkdir. Ermənistan tərəfinin beş il ərzində buna müqavimət göstərməsi İrəvanın hələ də revanşist xülyalarla yaşadığını, xarici qüvvələrin müdaxiləsinə ümid bəslədiyini və sülh prosesini uzatmaq taktikasından əl çəkmədiyini sübut edirdi. Lakin Azərbaycanın qətiyyəti qarşısında İrəvanın başqa seçimi qalmadı.

* * *

2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən və dünyanın diqqət mərkəzində dayanan sülh prosesi kollektiv Qərbin və ABŞ-ın Azərbaycanın regionda formalaşdırdığı yeni status-kvonu qeyd-şərtsiz qəbul etməsi deməkdir. “Bizim Qələbəmizin çox böyük və güclü möhürü” ifadəsi əldə olunan razılaşmanın miqyasını, əhəmiyyətini və tarixi dəyərini daha da vurğulayır. Bu möhür Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığının dünyanın aparıcı gücləri tərəfindən rəsmən tanınması və təsdiqi anlamına gəlir. Bununla da Azərbaycana qarşı yönəlmiş ərazi iddiaları, separatizm meyilləri və anti-Azərbaycan dairələrinin apardığı soyuq savaş kampaniyası rəsmən iflasa uğradı. Qlobal güclər anladılar ki, Cənubi Qafqazda Azərbaycanın maraqlarını nəzərə almadan heç bir layihəni həyata keçirmək, heç bir təhlükəsizlik arxitekturası qurmaq mümkünsüzdür. Azərbaycanla təhdid dili ilə danışmaq cəhdləri səmərəsizdir və regionda sabitlik yalnız rəsmi Bakı ilə bərabərhüquqlu tərəfdaşlıq əsasında mümkündür.

Prezidentin qeyd etdiyi soyuq savaş ifadəsi, son illərdə bəzi Qərb dairələrinin, xüsusilə Fransa və Avropa Parlamentindəki ermənipərəst qrupların Azərbaycana qarşı apardığı sistemli qarayaxma, təzyiq və diplomatik izolyasiya siyasətini dəqiq xarakterizə edir. Həmin qüvvələr Azərbaycanın qələbəsini həzm edə bilmir, insan hüquqları və demokratiya şüarları altında ölkəmizin daxili işlərinə qarışmağa cəhd edir və Ermənistanı revanşizmə təhrik edirdilər. Lakin Azərbaycanın qətiyyətli duruşu, Türkiyə ilə sarsılmaz ittifaqı və Qoşulmama Hərəkatındakı fəallığı bu planların reallaşmasına imkan vermədi. Avqust ayındakı razılaşma həmin anti-Azərbaycan koalisiyasının dağılması və Qərbin praqmatik maraqlarının ideoloji qərəzdən üstün gəlməsi deməkdir. Dünya anladı ki, Azərbaycan etibarlı tərəfdaşdır, enerji təhlükəsizliyinin qarantıdır və qlobal nəqliyyat sisteminin açar ölkəsidir. Belə bir ölkə ilə düşmənçilik etmək Qərbin öz strateji maraqlarına ziddir.

Mövcud reallıqların siyasi analizi göstərir ki, Azərbaycanın qələbəsi təkcə lokal xarakter daşımır, eyni zamanda, qlobal beynəlxalq münasibətlər sistemində presedent yaradır. Uzun illər ərzində dondurulmuş münaqişələrin həllinin mümkünsüzlüyü barədə formalaşmış stereotiplər Azərbaycanın nümunəsində darmadağın edildi. Qərb dairələri anladılar ki, Cənubi Qafqazda sabitlik istəyirlərsə, bu, Azərbaycanın ədalətli mövqeyini tanımaqla mümkündür.

Bu gün Azərbaycan cəmiyyəti qalib xalq psixologiyası ilə yaşayır. Bu psixologiya özünəinam, gələcəyə ümid və dövlətə bağlılıq hisslərini gücləndirir. Separatizmin ləğvi milli qürurun bərpası deməkdir. İllər boyu torpaqlarımızı ilhaq etməyə və iradəmizi qırmağa çalışanlar bu gün Azərbaycanın diktə etdiyi şərtləri qəbul etmək məcburiyyətindədirlər. Minsk qrupunun tarixin arxivinə getməsi həm də riyakar vasitəçilik institutunun iflasıdır. Bu, dünyaya bir mesajdır: əgər vasitəçi ədalətli deyilsə, onun mandatı da, fəaliyyəti də mənasızdır və gec-tez ləğv olunacaqdır.

Prezidentin çıxışı yeni dövrün başlanğıc anonsudur. Bu dövr quruculuq, inteqrasiya və strateji tərəfdaşlıq dövrüdür. Azərbaycanın dostları artır, düşmənləri isə zəifləyir və ya reallıqla barışır. Avqust razılaşması və Minsk qrupunun ləğvi prosesin hüquqi və siyasi yekunudur. Artıq Cənubi Qafqazda yeni status-kvo mövcuddur və bu status-kvonun müəllifi Azərbaycandır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Zəngəzur dəhlizi Cənubi Qafqazın dünya qapısı olacaq




**ABŞ, Ermənistan, Türkiyə və Azərbaycan “Tramp marşrutu” (TRIPP) layihəsi üzrə danışıqları intensivləşdiriblər. Layihə çərçivəsində gələn il Ankaranın İrəvanla sərhədini qismən açmağa hazırlaşdığı, Azərbaycan və Ermənistanın isə ticarət dövriyyəsini artırmaq istiqamətində fəaliyyətlərini davam etdirdiyi bildirilir. Bu barədə məlumatı “Nezavisimaya qazeta” yayıb.**

Vaşinqtonda keçirilən dəyirmi masada Ermənistan və Azərbaycanın səfirləri Narek Mkrtçyan və Xəzər İbrahim iştirak ediblər. ABŞ–Azərbaycan Ticarət Palatasının məlumatına görə, tədbirdə Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistan diplomatları da təmsil olunub. Müzakirələrdə TRIPP-in infrastruktur inkişafını sürətləndirmək, regional inteqrasiyanı gücləndirmək və ABŞ-ın Orta Dəhliz boyunca davamlı iqtisadi iştirakını təmin etmək potensialı əsas mövzu olub.

Görüş zamanı diqqətçəkən digər məsələ isə Azərbaycan və Ermənistan arasında ticarət əməliyyatlarının başlanmasıdır. Bu ilin oktyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən elan edildiyi kimi, münaqişə dövründə Ermənistana tətbiq edilən yük tranzit məhdudiyyətləri ləğv edilib. İlk mərhələdə İrəvan Rusiyadan və Qazaxıstandan olan buğda məhsullarını Bakı vasitəsilə tranzitlə alıb, daha sonra isə Azərbaycandan 1,3 min ton Aİ-95 markalı benzin idxal edib. Ermənistanın Baş naziri Nikol Paşinyan qeyd edib ki, hazırda Azərbaycandan Ermənistana idxal var və gələcəkdə Ermənistandan Azərbaycana ixracın da mümkün olacağı gözlənilir.

Hər iki tərəf bu əməliyyatları Vaşinqtonda paraflanan sülh müqaviləsi ilə birbaşa əlaqələndirir. Region üçün bu addım həm iqtisadi əməkdaşlığın simvolik başlanğıcı, həm də etibar və ticarət əlaqələrinin möhkəmlənməsi baxımından əhəmiyyətlidir.

Eyni zamanda, Türkiyə və Ermənistan arasında İstanbul–İrəvan istiqamətində gündəlik birbaşa hava reyslərinin başlanması barədə razılıq əldə olunub. Sərnişin daşıması “Turkish Airlines” vasitəsilə həyata keçiriləcək və proqram 11 mart 2026-cı il tarixindən fəaliyyətə başlayacaq. Yük daşımaları üçün sərhəd-keçid məntəqələrinin açılması da planlaşdırılır. İlk mərhələdə Marğara körpüsü yalnız yük daşımaları üçün istifadəyə veriləcək, sonrakı mərhələdə isə sərnişin daşımaları üçün də açılacaq. Bu addım regional ticarət əlaqələrinin genişlənməsinə və Türkiyə–Ermənistan iqtisadi münasibətlərinin normallaşmasına təkan verəcək.

Bununla belə, Ermənistanın Rusiya ilə əlaqələri də diqqətdən kənarda qalmayıb. Daha əvvəlki danışıqlarda Baş nazir Nikol Paşinyan qeyd edib ki, İrəvan və Bakı arasında sülh Ermənistan–Rusiya münasibətləri üçün yeni imkanlar yaradır. O, Rusiya tərəfini Azərbaycanın və Türkiyənin birləşdirdiyi dəmir yolu infrastrukturunun bərpasına cəlb etməyə çağırıb: “Hesab edirik ki, Tavuş ərazisində, ən azı, İcevan stansiyasına qədər təmir işlərinin aparılması vacibdir. Axurik ərazisindəki hissə – Türkiyə sərhədindən mövcud dəmir yolu xəttinə qədər, eləcə də Ermənistan–Azərbaycan sərhədindən Yerasxa qədər olan hissə bərpa olunmalıdır. Ümid edirik ki, rusiyalı tərəfdaşlarımız bu işi mümkün qədər tez başa çatdıracaqlar”.

“Nezavisimaya qazeta” yazır ki, 2026-cı ilin birinci yarısında sülh müqaviləsinin imzalanacağı təqdirdə, sərhədin 2027-ci ilə qədər tam açılması və tammiqyaslı ticarət əməkdaşlığının başlaması gözlənilir. Bu proses yuxarıda qeyd etdiyimiz kimi, artıq simvolik addımlarla – buğda və yanacaq tədarükü ilə başlayıb. Növbəti mərhələdə sərhədin tam açılması və iqtisadi inteqrasiyanın genişlənməsi planlaşdırılır.

Layihənin icrasında isə müəyyən maliyyə və infrastruktur çətinlikləri mövcuddur. Ermənistanda müasir dəmir yolu tikintisi üçün yetərli maliyyə resursları yoxdur.

***(ardı 6-cı səhifədə)***

# Sarsılmaz siyasi iradənin qələbəsi

## *Söhbət Azərbaycanın suverenliyinin tam bərpasından gedir*

**Vətən müharibəsində qazandığımız tarixi qələbəmizi böyük yazıçı Lev Tolstoyun “Hərb və sülh” romanındakı məntiqlə də əlaqələndirmək olar. Ədib əsərində müharibəni cəbhədə baş verən toqquşmanın əvəzinə, xalq iradəsinin yavaş-yavaş formalaşan, amma qarşısıalınmaz axını kimi təqdim edir. Tolstoya görə, tarixin axarını dəyişən hərəkətverici qüvvə zamanla yetişən ümumi iradədir. Müharibə isə, sadəcə, həmin iradənin üzə çıxdığı andır.**

Tarixdə elə anlar var ki, onlar həm də milli dirçəlişin simvolu kimi yadda qalır. 44 günlük Vətən müharibəsi də məhz belə bir mərhələ oldu. Məhz həmin tarixi qələbəmiz bütün siyasi mifləri dağıtdı, illərlə formalaşdırılan “dəyişməz reallıqları” kökündən dəyişməyə müvəffəq oldu. İkinci Qarabağ müharibəsi zamanı hər gün irəli gedən ordu ilə birlikdə xalqın özünə inamı da yüksəlirdi. Şəhər-şəhər, kənd-kənd azad edilən torpaqlar bir-bir bizə geri qayıdırdı. Amma ölkəmizin uğurlarına kölgə salmaq istəyənlər də kifayət qədər çox idi.

Prezident İlham Əliyevin Ağdamda 2-ci yaşayış kompleksinin açılışında oraya köçən sakinlərlə görüş zamanı söylədiyi fikirlər də bu reallığı bir daha təsdiqləyir: “Bizi 44 gün ərzində dəfələrlə dayandırmaq istəyənlər min cür təzyiq, təhdid və təxribat törətməyə çalışırdılar və hətta törədirdilər. Bizi qorxutmaq, bizi dayandırmaq, bizim şanlı Zəfər yürüşümüzü yarımçıq qoymaq və münaqişəni əbədi etmək – bax, bizə qarşı olan qüvvələrin məqsədi bu idi. Təbii ki, 5 il keçəndən və biz 2023-cü ildə öz suverenliyimizi antiterror əməliyyatı nəticəsində tam bərpa edəndən sonra artıq bizə qarşı olan qüvvələr yeni reallıqla barışmağa məcbur idilər, biz onları məcbur etdik. O cümlədən bizim Qələbəmizi qəbul etməyənlər, bunu həzm edə bilməyənlər, ermənipərəst qüvvələr məcbur olaraq bugünkü reallıqlarla barışmalı oldular”.

Bəli, ordumuz irəlilədikcə, ona qarşı görünməz sədlər qurulurdu. Açıq və gizli təzyiqlər, siyasi təhdidlər, informasiya təxribatları... Bütün bu addımlar, sadəcə, bir məqsədə, ədalətsiz status-kvonu əbədiləşdirməyə xidmət edirdi. Amma xalqımızın iradəsi bütün mənfur ssenariləri pozdu. Azərbaycan anlayırdı ki, bu dəfə məsələ ləyaqət idi, dövlətçilik idi, gələcək nəsillərin taleyi idi. 44 gün ərzində baş verənlər isə artıq regionda yeni bir siyasi iradənin formalaşdığını göstərdi. Ölkəmiz öz gücünü siyasi uzaqgörənliklə, hüquqi əsaslarla, beynəlxalq reallıqları düzgün dəyərləndirmək bacarığı ilə nümayiş etdirdi. Proses əslində spontan deyildi. İllərlə aparılan məqsədyönlü siyasətin, ordu quruculuğunun, milli birliyin nəticəsi idi.



Zaman öz işini gördü. Müharibədən sonra yeni mərhələ başladı. Bəziləri elə zənn edirdi ki, qələbəni qəbullanmamaq, onu görməzdən gəlməklə reallıq dəyişəcək. Lakin onlar ədalətin gec-tez öz yerini tapacağını unudurdular. 2023-cü ildə keçirilən uğurlu antiterror tədbirləri də bunu bir daha təsdiqlədi və boş illüziyaları dağıtdı. Antiterror tədbirləri sübut etdi ki, dövlətimiz öz ərazisində keçmiş xunta rejiminin tör-töküntülərinin qanunsuz fəaliyyəti məsələsində kompromisə getmir.

Beləliklə, revanşist xəyallar puç oldu, paralel reallıq yaratmaq cəhdləri iflasa uğradı. Uğurlarımızdan sonra regionun siyasi mənzərəsi tamamilə dəyişdi. Qələbəni qəbul etməyənlər, onu həzm edə bilməyənlər məcbur oldular ki, faktlarla barışsınlar. Vaxtilə Bakıya meydan oxuyan ritorikalar söndü, hayların güvəndikləri silah-sursat, hərbi texnika Qənimətlər Parkının eksponatlarına çevrildilər. Əvvəllər Xankəndidə başqa iddialar səsləndirənlər bu gün tam fərqli cümlələr qurmağa məcbur oldular. Daha dəqiq desək, istintaq təcridxanasında çayını udumlayaraq törətdikləri əməllərin cəzasını çəkirlər.

Prezident İlham Əliyevin Ağdamda 2-ci yaşayış kompleksinin açılışında sakinlərlə görüşü zamanı tarixi unutmamaqla bağlı səsləndirdiyi fikirlər də dərin məna kəsb edir: “Yəni bu tarixi biz heç vaxt unutmamalıyıq. O acı günləri yaşayan yaşlı nəsil təbii ki, heç vaxt unutmayacaq. Gənc nəsil unutmamalıdır. Bundan sonra gələn nəsillər, gələcək nəsillər unutmamalıdır, bilməlidir. Bu tarix həm məktəblərdə, həm ali məktəblərdə, ailələrdə əzbər olmalıdır. Yəni bu, bizim şanlı Zəfərimizdir. Eyni zamanda, bundan sonra sülh içində, təhlükəsizlik içində yaşamaq üçün biz bu tarixi heç vaxt unutmamalıyıq”.

Doğrudan da, tarixi anların ən mühüm tərəfi onların yaddaşda necə qorunacağı məsələsidir. Çünki tarix öyrənilmək üçündür. Əgər bir xalq öz Zəfərini unudarsa, onun bədəlini mütləq ki, gələcək nəsillər ödəyəcək. Ona görə də bu hadisələr rəsmi mərasimlərin, bayram günlərinin mövzusu ilə yanaşı, məktəblərdə dərsə, gənclərin şüurunda milli kimliyin ayrılmaz hissəsinə çevrilir. Düzdür, yaşlı nəslin yaddaşından bu anların silinməsi mümkünsüzdür, çünki onlar itkinin canlı şahidləridir.

Amma gənc nəslin də unutmaması üçün əlimizdən gələni etməliyik. Onlar tariximizi hazır miras kimi qəbul etməməli, bilməlidirlər ki, azadlıq hansı sınaqlardan keçib, hansı təzyiqlər fonunda qazanılıb, hansı risklər bahasına əldə olunub. Məhz bu yaddaş sülhün əsas şərtidir. Paradoksal səslənsə də, sülh xatırlanaraq qorunur. Keçmişin dərslərini bilməyən cəmiyyət gələcəyini təhlükə altına ata bilər. Azərbaycan üçün sülh güclü dövlətçilik, təhlükəsizlik və tarixi şüur üzərində qurulan aktiv strategiyadır. Həmin strategiyanın mərkəzində isə unutmamaq prinsipi dayanır.

Bəli Qarabağ Zəfəri tarixi məntiqin nəticəsidir. Otuz il ərzində aparılan diplomatik mübarizə, dövlət quruculuğu, iqtisadi güclənmə, ordunun peşəkar səviyyəyə çatdırılması və milli yaddaşın qorunması görünməz, amma davamlı bir proses idi. Kənardan baxanlar bu səssiz hazırlığı bəzən zəiflik kimi qiymətləndirirdilər. Halbuki Tolstoyun romanında olduğu kimi, əsas dəyişikliklər pərdə arxasında baş verirdi. 44 günlük Vətən müharibəsində qazandığımız Qələbə isə uzun yolun qaçılmaz nəticəsi oldu.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Azərbaycan yeni "səlibçilər"lə 30 il təklikdə döyüşdü

## *Xalq–Lider–Ordu birliyi bu tarixi savaşa Zəfər qazandırdı*



**Ənənəyə sadiqlik, keçmişi unutmamaq ən üstün insani keyfiyyətlərdən sayılır. Azərbaycan Prezidenti İlham Əliyevin ötən il olduğu kimi, bu il də doğum gününü işğaldan azad edilimiş Qarabağda qeyd etməsi həyatının əlamətdar hadisəsini öz xalqından kənarda təsəvvür etmədiyini bir daha təsdiqlədi. Əslində, bu simbiozu müasir Azərbaycan dövlətçiliyinin yeni mərhələsini özündə rəmzləşdirən olduqca mühüm və yaddaqalan siyasi və mənəvi hadisə kimi dəyərləndirməyimiz daha doğru olar.**

Dövlətimizin başçısı dekabrın 24-də Ağdamda 2-ci yaşayış kompleksinin açılışı mərasimində etdiyi proqram xarakterli çıxışında dostlarımızı sevindirən və qürurlandıran, bədxahlarımızı isə qayğılandıran, onları düşünməyə vadar edən siyasi, hərbi, iqtisadi və humanitar mesajları ilə yadda qaldı. Prezidentin işğal dövründə bədnam qonşularımıza hərtərəfli dəstək verən, xüsusilə onları kütləvi qırğın silahları ilə təmin edən güclərə ünvanladığı mesajlar son 5 ildə bölgədə cərəyan edən hadisələrə, onların iştirakçılarının hərəkət və davranışlarına verilən tarixi qiymətdir.

İlham Əliyev işğal dövrünün suallarla dolu xarakteristikasını zərgər dəqiqliyi ilə ortaya qoymaqla yanaşı, səbəbindən asılı olmayaraq, haqqın və ədalətin deyil, işğalçının yanında durmağa üstünlük verənlərin menyusuna Azərbaycanın sözünə və gücünə güvənərək yaratdığı yeni yol xəritəsini təqdim etdi.

"Bizim həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı nəticəsində Ermənistandan qənimət kimi götürdüyümüz və məhv etdiyimiz silahların pul dəyəri, təqribən, 5–6 milyard dollardır. Bunların dağılmış bəzi nümunələri Bakıda Hərbi Qənimətlər Parkında nümayiş etdirilir, o cümlədən "İsgəndər M" ballistik raketi, hansı ki, ümumiyyətlə, Ermənistanda olmamalı idi. Çünki "İsgəndər M" raketinin ixracı qadağandır. Əgər belə demək mümkündürsə, ixraca açıq olan "İsgəndər E", yəni eksport növüdür. "İsgəndər M" raketi necə Şuşaya zərbə endirdi? Elə bu, böyük sualdır. Yəni pulsuz silah, maliyyə yardımı".

Azərbaycan Prezidentinin bu sözləri hansı coğrafiyaya, konkret hansı səmtə ünvanladığı siyasətlə az-çox maraqlanan hər kəsə məlumdur. 30 il davam edən işğal dövrünün müəyyən mərhələlərində biz Ermənistana kimin, yaxud kimlərin və hansı maraqları naminə qucaq açdıqlarını çox gördük. Konkret misal gətirək: 1998-ci ildə Rusiya tərəfindən Ermənistana 1 milyard dollar məbləğində silah-sursatın peşkəş edilməsi, bu prosesin sonrakı illərdə də mütəmadi qaydada davam etdirilməsi danılmaz faktdır. Məgər Azərbaycanın işğal altında olan ərazilərində Ermənistanın ümumvətəndaş pasportunu daşıyan hərbi qulluqçularının xidmət göstərmələri faktını Qərbin haypərəst "xristian klubu"nun üzvləri, həmin Minsk qrupuna həmsədrlik edən ölkələrin isteblişmentləri bilmirdilər? Çox yaxşı bilirdilər. İntəhası, bu fakt hamıya bəlli olsa da, buna görə Ermənistana qaşın üstə gözün var deyən tapılmır, işğalçıya qarşı qarşı beynəlxalq hüququn tələb etdiyi heç bir tədbir görülmürdü. Anti-Azərbaycan qüvvələrin qərəzi və saymazlığı o həddə çatmışdı ki, 2016-cı il Aprel döyüşlərindən sonra ixracı qadağan olunan "İskəndər M" raketlərinin Ermənistana verilməsi, 44 günlük müharibənin gedişində isə həmin raketlə Şuşanın vurulması təcavüzkara açıq-aşkar dəstəyin nümayişi idi.

* * *

Xankəndidə özünə "isti yuva" qurmuş və ərazimizdə əbədi mövcudluğuna əmin olan separatçı rejimin ömrünü uzatmaq, deməli, münaqişənin başa çatmasını əngəlləməkdən ötrü hər il Amerikada, Fransada "xeyriyyə marafonları" keçirildiyini, separatçılar üçün yüz milyonlarla dollar ianə toplandığını da unutmamışıq. Ağdamdakı çıxışında bunları yada salan Prezident İlham Əliyevin bu gün Bakıda məhkəmə qarşısında cavab verən hərbi cinayətkarların Avropaya, okeanın o tayına getmələri üçün asanlıqla viza əldə etmələri barədə dedikləri isə heç də sözgəlişi ifadələr sayıla bilməz: "Necə ola bilər? Minsk qrupunun həmsədr ölkələrinə separatçılar necə gedə bilərdilər? Axı digər separatçı ərazilər də var. Onlara Amerikaya, yaxud da ki, Fransaya kimsə viza verə bilər? Gedin, baxın, bu gün nə qədər separatçı inzibati ərazi var?! Ukrayna ərazisində, Moldova ərazisində, Gürcüstan ərazisində separatçı yuvalar var. Onların rəhbərlərinə Amerika, Fransa, Avropa ölkələri viza verə bilər? Yox! Amma erməni separatçılarına niyə vizalar verilirdi?". Bu ritorik sualı separatçıların keçmiş "sponsorlarına" verən dövlətmizin başçısı onların əsl məqsədlərinin nədən ibarət olduğunu açıq mətnlə vurğuladı: "Onlara gizli mənbələrdən də pul ötürülürdü, bir məqsədlə ki, bu torpaqları əbədi işğal altında saxlasın, Azərbaycan xalqına divan tutsun, bu şəhər və kəndləri daim nəzarət altında saxlasın. Bax, görün biz kimlərlə kəllə-kəlləyə getmişik. Biz görün Ermənistana olan hansı dəstəyin fonunda İkinci Qarabağ müharibəsində Qələbə qazanmışıq".

Prezident İlham Əliyevin Azərbaycanın hansı qüvvələrlə kəllə-kəlləyə gəldiyini xatırlatmasının arxasında bu gün də ölkəmizə qarşı qərəzli və ikiüzlü siyasət yürüdənlərə, ideoloji təxribatlara əl atanlara, bölgədə gərginlik atmosferi yaratmaqdan ötrü fürsət gözləyənlərə xəbərdarlıq notları var. Dövlət başçımız mesajını ünvanladığı kənar aktorlara həm də onu çatdırır ki, Azərbaycan daha 30 il əvvəlki kimi tək deyil, onun arxasında Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu beynəlxalq birliklər dayanıb. Yəni ölkəmizə qarşı təhdid ssenarisi barədə düşünənlər bu amilləri nəzərə alsınlar.

Bu gün Azərbaycan hamını, ilk növbədə isə, qonşu Ermənistanı açdığı sülhün qapısından keçməyə dəvət edir. Cari ilin avqustunda Vaşinqtonda "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması, eləcə də ATƏT-in Minsk prosesi və əlaqədar strukturların bağlanması ölkəmizin təşəbbüsü ilə başlanmış sülh prosesinin məntiqli və uğurlu nəticəsi sayılmalıdır.

Dostlarımız kimi, düşmənlərimiz də etiraf etməyə məcburdurlar ki, Azərbaycan praqmatik, proaktiv, çoxvektorlu və qarşılıqlı faydalı əməkdaşlığa yönəlik xarici siyasəti sayəsində beynəlxalq arenada mövqeyini daha da gücləndirib. Bakının bölgədə və Avrasiya qitəsində yaratdığı yeni reallıqlar "böyük güclər" və beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunur. Artıq heç kəsə sirr deyil ki, ABŞ–Azərbaycan münasibətlərində yeni mərhələ başlayıb. Bu tendensiya Avropa İttifaqı ilə münasibətlərdə də, qarşı tərəfin günahı üzündən yaranan bəzi mənfi məqamlar istisna olmaqla, ümumi dinamika müsbət istiqamətdə inkişaf etməkdədir. Mərkəzi Asiya ölkələri ilə tarixi bağlarımız, sıx və səmimi əməkdaşlığımız isə bugünədək görünməyən səviyyəyə çatıb.

Yazımızın əvvəlində ənənəyə sadiqliyin və keçmişi unutmamağın yüksək keyfiyyətlər olduğunu qeyd etmişdik. Sonda onu da əlavə etmək yerinə düşər ki, keçmişdə baş verənləri saf-çürük etmək, onlardan ibrət götürmək də həm fərdlər, həm də bütöv ölkələr üçün vacib sayıla biləcək pozitiv cəhətdir. Bunun üçün, sadəcə, dürüst və obyektiv olmaq və bir də qarşısındakı ilə şaquli deyil, üfiqi müstəvidə davranmaq yetərlidir.

***İmran BƏDİRXANLI***
***XQ***

**Əvvəla, onu xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikası Baş nazirinin ABŞ-ın Vaşinqton şəhərində keçirilmiş görüşünün nəticələrinə dair bu il avqustun 8-də imzalanmış Birgə Bəyannamənin 4-cü bəndində bildirilir ki, "Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik".**

# TRIPP "Sülhün kəsişməsi" deyil

## *Yaxud Ermənistan XİN-in açıqlamasına sözardı*

Sözügedən sənədin 3-cü bəndində isə bunlar yer alıb: "Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir".

Elə isə Ermənistan Xarici İşlər Nazirliyinin "Sputnik Ermənistan"ın sorğusuna cavab olaraq yaydığı açıqlamaya diqqət yetirək. Açıqlamada bildirilib ki, "Tramp Marşrutu" layihəsinin icrasının praktik mərhələsi, o cümlədən tikinti işlətəqdim edirdi. Yeri gəlmişkən, ölkə XİN-in haqqında söz açdığımız açıqlamasında da vurğulanıb ki, "Sülhün kəsişməsi" regional qarşılıqlı əlaqəliliyin inkişafına yönəlmiş iri infrastruktur proqramlarının məntiqinə tam uyğundur: "Bunlara Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM, "Orta Dəhliz") və "Fars körfəzi – Qara dəniz" beynəlxalq nəqliyyat dəhlizi daxildir". Aydındır ki, Naxçıvana maneəsiz yol olmadan Ermənistan XİN-in vurğuladıqları mənasızdır. Naxçıvana yola gəldikdə isə Paşinyan aylar əvvəl birincisi, yolun ancaq dəmir yolu seqmenti üzərində dayanmışdı. Yəni "Sülhün kəsişməsi"ndə quru yolunun diqqətə çatdırdığımız Laçın–Kornidzor–Marğara xətti var idi. İkincisi, yuxarıda anonsunu verdiyimiz şərt qoyulurdu. Nikolun planına görə, Azərbaycanın əsas hissəsindən Naxçıvana Ermənistan ərazi-




rinin başlanması 2026-cı ilə planlaşdırılır. Hazırda layihənin hüquqi bazasının və tənzimləmə mexanizmlərinin formalaşdırılması istiqamətində amerikalı tərəfdaşlarla intensiv danışıqlar aparılır. Müəyyən detallar üzərində dayanan erməni baş xarici siyasət idarəsindən o da bildirilib ki, erməni–amerikan birgə müəssisəsi - TRIPP Company Ermənistanda qeydiyyatdan keçəcək, dəmir və avtomobil yolları, neft-qaz kəmərləri, eləcə də fiber optik rabitə xətləri daxil olmaqla, zəruri infrastrukturun inkişaf etdirilməsi hüququnu əldə edəcək.

Əlbəttə, Ermənistanın TRIPP-lə bağlı ABŞ-la hansı əməkdaşlığı gerçəkləşdirməsi onun daxili işidir. Başlıca məqam ölkə XİN-in açıqlamasında "Tramp Marşrutu"nun rəsmi İrəvanın irəli sürdüyü "Sülh kəsişməsi"nin tərkib hissəsi qismində təqdim olunmasıdır: "İrəvanda "Tramp Marşrutu" hökumətin "Sülh kəsişməsi" təşəbbüsünün tərkib hissəsi kimi nəzərdən keçirilir".

Birgə Bəyannamənin əvvəldə diqqətə çatdırdığımız iki bəndinə nəzərən TRIPP bağlantı layihəsi üzrə başlıca məqamın Naxçıvana maneəsiz yol olduğunu görmək heç bir çətinlik yaratmır. Paşinyanın hakim komandası belə bir vacib məqamla bağlı konkret açıqlama vermir və bu, heç yaxşı hal deyil. Çünki ölkənin başıpozuq müxalifətinin təmsilçiləri tamam fərqli ismarışlar səsləndirir, dəqiq desək, isterik çağırışlara baş vururlar. Onlar bildirirlər ki, Azərbaycan Mehrini işğal etmək niyyətindədir. Erməni iqtidarı reallığa köklənməlidir ki, bu sayaq yaramaz açıqlamalar ictimai rəydə möhkəmlənməsin. O zaman sual yaranır: görəsən, rəsmi İrəvan niyə duruma aydınlıq gətirmir? Sualı daha da aktuallaşdıran Ermənistan XİN-in yenidən "Sülhün kəsişməsi" ritorikasını gündəmə gətirməsidir. Qurum bu ritorikanı, bir növ, ehkamlaşdırmağa çalışır.

Bəli, "Sülhün kəsişməsi" layihəsində 8 avqust Birgə Bəyannaməsində yer almış və TRIPP-in məğzini təşkil edən Naxçıvana maneəsiz yol, demək olar, yoxdur. Təxminən 2 il əvvəl rəsmi İrəvan tərəfindən irəli sürülmüş, baş nazir Nikol Paşinyanın, eləcə də onun komandasındakı şəxslərin dəfələrlə müxtəlif platformalarda təbliğ etdikləri bu layihə Naxçıvana maneəsiz yolu ən axırıncı məqam kimi müəyyənləşdirir. O da bir şərtlə. Şərti diqqətə çatdıracağıq...

Məsələ ondadır ki, Paşinyanın təqdim etdiyi "Sülhün kəsişməsi" regional kommunikasiyaların açılması baxımından Laçın–Kornidzor–Marğara marşrutunu əsas tuturdu. Yəni beynəlxalq daşımalar Azərbaycanın Laçınından Ermənistanın Kornidzoruna daxil olacaq, oradan isə Türkiyə ilə sərhəddə – Marğara məntəqəsinə yetişəcək. Üstəlik, Türkiyə–Ermənistan sərhədi də açılacaq ki, dünya ilə bağlantı yaradılsın.

Qeyd edək ki, zamanında rəsmi İrəvan bu trayektoriyanı Orta Dəhliz kimi təqdim edirdi.

sindən keçməklə qatarlar hərəkət etdikləri kimi, Ermənistanın Mehri rayonundan Yerasx bölgəsinə Naxçıvandan keçməklə qatarlar yön almalı idilər. Paşinyan belə yanaşması ilə Azərbaycanın Naxçıvana quru yolunun olmadığını nəzərə almırdı. Halbuki, Yerasx blokadada deyil.

Bir sözlə, əvvəlki dövrün təcrübəsi göstərir ki, Paşinyan və komandası nəyin bahasına olursa-olsun Naxçıvana maneəsiz yol vermək niyyətində deyil. Zaman-zaman rəsmi İrəvanın ortaya atdığı ərazi bütövlüyünün və suverenliyin toxunulmazlığı klişesi də məhz bundan qaynaqlanmışdı. Əlbəttə, Azərbaycan heç bir halda işğalçılıq niyyəti güdməyib və ölkəmizin rəsmiləri dəfələrlə bu barədə söz açıblar. Prezident İlham Əliyev avqustun 8-dən sonra bir daha məsələnin üzərinə gəldi. Dövlətimizin başçısı avqustun 26-da Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində bildirdi ki, "bəzi media orqanlarında, bəzi internet saytlarında Azərbaycanın Zəngəzuru işğal edəcəyinə, İranla Ermənistan sərhədini kəsəcəyinə dair planlar barədə çoxlu şayiələr yayılmışdır. Bu, tamamilə yalandır. Bizim belə bir niyyətimiz yoxdur. Hər halda, etmək istəsəydik, edərdik. 2020-ci ilin noyabr ayında bunu etmək çox asan idi. Bu son beş il ərzində də bunu etmək çox asan idi. Cəmi 40 kilometrdir, hərbi baxımdan çox vaxt aparmayacaqdı. Sadəcə, hər iki tərəfdən - Naxçıvandan və Azərbaycanın bu tərəfindən gəlirsən və götürürsən". Amma "biz təcavüzkar olmadığımız üçün bunu etmədik. Biz işğal edən ölkə deyilik, biz əraziləri azad edən insanlar və ölkəyik".

Bu yerdə Azərbaycan Prezidenti və Ermənistanın Baş nazirinin Vaşinqton görüşünün nəticələrinə dair bu il avqustun 8-də imzalanmış Birgə Bəyannamənin 5-ci bəndinə nəzər salaq. Həmin bənddə bildirilir ki, "Biz BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirik. Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra, nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır".

Sonda onu da bildirək ki, şərtləri yaradan Azərbaycandır. Ermənistanın qarşısında dayanan başlıca vəzifə onları yerinə yetirməkdir. İndiki durumda ölkə TRIPP-in tez bir zamanda fəaliyyətə başlamasına təmin etməlidir. Yəni Naxçıvana yol hansı müştərək erməni-amerikan hüquqi proseduru əsasında fəaliyyət göstərəcək, bizim üçün önəmli deyil. Önəmli olan yolun Birgə Bəyannamədəki maneəsizlik kazusudur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Zəngəzur dəhlizi Cənubi Qafqazın dünya qapısı olacaq

*(əvvəli 5-ci səhifədə)*

Üstəlik, ölkənin bütün dəmir yolu infrastrukturu Rusiya Dəmir Yollarının törəmə şirkəti olan Cənubi Qafqaz Dəmir Yoluna məxsusdur. ABŞ isə layihəni yalnız icarəyə götürməyə və nəzarət etməyə hazırdır.

Təhlükəsizliyin təmin olunması üçün isə adı açıqlanmayan özəl hərbi şirkətdən 1000 əsgər yerləşdiriləcək. Şirkət idarəetmədən gələn gəlirin 40 faizini, Ermənistan isə 30 faizini alacaq. Qalan hissə isə infrastrukturun inkişafına sərf olunacaq. İlkin hesablamalara görə, bu ərazinin idarə olunmasından əldə edilən illik gəlir, təxminən, 100 milyard dollar təşkil edəcək.

Layihənin inkişafı üçün ABŞ və Ermənistan "TRIPP Company" adlı birgə müəssisə yaradacaq. Bu marşrut üzrə yolların, boru kəmərlərinin və telekommunikasiya kabellərinin çəkilməsi planlaşdırılır. Hazırda ABŞ Ermənistana ilkin olaraq 145 milyon dollar tranş ayıracağını açıqlayıb, lakin əlavə investorlara ehtiyac yaranacağı gözlənilir.

Layihədə Rusiyanın iştirakı isə istisna edilir. Bunun əsas səbəbi onun geosiyasi və strateji əhəmiyyətidir. Çünki TRIPP marşrutu ABŞ-ın Orta Dəhliz boyunca nəzarət imkanlarını artırır, Şərq–Qərb ticarət axınlarını izləməyə şərait yaradır və alternativ tranzit yolları vasitəsilə regional təsir imkanlarını genişləndirir.

Layihə eyni zamanda enerji, telekommunikasiya və logistika sektorlarını canlandıraraq uzunmüddətli iqtisadi faydalar təmin edəcək. Əgər Rusiya rəsmi iştirakçı olarsa, ABŞ-ın strateji üstünlüyü zəifləyəcək və layihənin



məqsədi təhlükə altına düşəcək. Bundan əlavə, TRIPP Gürcüstan tranziti olmadan işləyəcək yeni marşrut üzərində qurulur ki, bu da Rusiyanın mövcud dəmir yolu və tranzit sistemindən asılılığı minimuma endirir. Hətta Ermənistanın dəmir yolu Rusiyanın nəzarətində olsa da, TRIPP infrastrukturu bu nəzarətdən kənarda qalacaq. Layihə ABŞ tərəfindən idarə olunacaq, təhlükəsizlik üçün isə özəl hərbi şirkət fəaliyyət göstərəcək. Maliyyə və texniki idarəetmə tamamilə ABŞ-ın nəzarətində olacaq, buna görə də Rusiya marşrutun icrasına birbaşa cəlb oluna bilməyəcək.

Bununla bağlı **politoloq Cəsarət Hüseynzadə** bildirdi ki, TRIPP marşrutu Cənubi Qafqazın iqtisadi inteqrasiyasını sürətləndirə, Mərkəzi Asiya ilə ticarət əlaqələrini möhkəmləndirə və bölgədə yeni geosiyasi dinamika yarada bilər: "Sərhədlərin tam açılmasından əvvəl, ticarət əməliyyatlarının başlaması və tranzit məhdudiyyətlərinin aradan qaldırılması göstərir ki, tərəflər artıq praktiki əməkdaşlıq mərhələsinə keçiblər. Bu isə sülh müqaviləsinin daha dayanıqlı və real əsaslar üzərində formalaşmasına əlavə impuls verir.

Layihə çərçivəsində regional aktorlar arasında yeni rol bölgüsü də aydın şəkildə müşahidə olunur. Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə müharibədə qalib gəlmiş və sülhün müəllifi kimi proseslərdə əsas aktor rolunda çıxış edir. Bütün mərhələlər boyunca əsas söz sahibi olan tərəf məhz Azərbaycandır və Bakı, eyni zamanda, prosesləri qarşıdurmadan əməkdaşlığa, münaqişədən isə qarşılıqlı inkişaf və müsbət gündəlik istiqamətinə yönəldir.

Eyni zamanda, Azərbaycan enerji və logistika mərkəzi statusunu daha da möhkəmləndirir, Türkiyə regional inteqrasiyanın siyasi dayağı rolunu gücləndirir, ABŞ isə investisiya, təhlükəsizlik və texniki idarəetmə vasitəsilə Orta Dəhliz boyunca strateji mövqelərini genişləndirir. Ermənistan üçün isə TRIPP uzun illər davam edən iqtisadi təcriddən mərhələli çıxış və regional iqtisadi sistemə inteqrasiya üçün real imkan yaradır. Bunun qarşılığında isə Ermənistan işğalçılıq siyasəti, separatizm və qonşu dövlətlərə qarşı ərazi iddiaları ilə birdəfəlik vidalaşmalı olduğunu qəbul edir. Ümumiyyətlə, bu marşrut Cənubi Qafqazda geosiyasi qarşıdurmadan iqtisadi qarşılıqlı əməkdaşlığa keçidin praktik mexanizmi kimi dəyərləndirilə bilər".

Beləliklə, TRIPP marşrutu Cənubi Qafqazın iqtisadi və geosiyasi mənzərəsini dəyişə biləcək strateji təşəbbüsdür. Layihənin icrası regionun nəqliyyat və ticarət xəritəsini yenidən formalaşdırmaqla yanaşı, tərəfdaş ölkələr üçün strateji üstünlük yaradır və Cənubi Qafqazın uzunmüddətli iqtisadi inteqrasiyasına mühüm töhfələr verir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycanın QHT nümayəndələri ABŞ Prezidenti Donald Trampa açıq məktub yazıblar

**ABŞ-ın Lemkin İnstitutunun ABŞ Prezidentinə Ruben Vardanyan da daxil olmaqla, müharibə cinayətlərində ittiham olunan erməniəsilli şəxslərin Milad bayramı münasibətilə azadlığa buraxılması üçün Azərbaycana təzyiq göstərməyə dair müraciətinə cavab olaraq, Azərbaycanın QHT nümayəndələri dekabrın 25-də Donald Trampa açıq məktub yazıblar.**



Bundan əvvəl – 2025-ci il dekabrın 23-də Azərbaycan Milli QHT Forumu Lemkin İnstitutunun özünə də açıq məktub ünvanlayaraq, bu təsisatı Ermənistandakı revanşist qrupun maraqlarını ifadə etməkdə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyini sarsıtmağa çalışmaqda ittiham edib. Qeyd olunub ki, Xocalı soyqırımı kimi kütləvi qırğınlara göz yuman Lemkin İnstitutu, ilk növbədə, elan etdiyi missiyaya xəyanət edir. Azərbaycan Milli QHT Forumu Lemkin İnstitutunu təxribatçı çağırışlarına görə Azərbaycan ictimaiyyətindən üzr istəməyə çağırıb.

**Azərbaycan QHT-lərinin ABŞ Prezidentinə "Hüquq, sabitlik və Tramp dəhlizi baxışının beynəlxalq sülh və rifah naminə müdafiəsi" adlanan müraciətində isə deyilir:**

**– Cənab Prezident,**

Biz – Azərbaycan vətəndaş cəmiyyətinin təmsilçiləri, insan hüquqları müdafiəçiləri və onilliklər boyu davam etmiş etnik təmizləmənin qurbanları dünyanı xoş niyyətlə istiqamətləndirən Lider olaraq Sizə ən səmimi salamlarımızı çatdırırıq. Sizin liderliyinizdə qlobal sülhə dəyər verən və başqaları tərəfindən mümkünsüz hesab olunan tarixi razılaşmaları vasitəçilik yolu ilə əldə etmək cəsarətini özündə ehtiva edən iradə görürük.

"Lemkin İnstitutu" adlandırılan qurum tərəfindən Sizin şəxsən təşviq etdiyiniz sülhü sarsıtmağa yönəlmiş aparılan son kampaniyalarla bağlı əsaslandırılmış faktları göstərmək məqsədilə Sizə müraciət edirik.

Milad və Yeni ilin emosional ab-havasını fürsət bilən bu qrup həbsdəki məlum şəxslərin azadlığa buraxılması üçün təzyiq göstərməyə çağırış etsələr də, onlar bu ritorika ilə deyil, törətdikləri əməllərə görə qiymətləndirilməlidir. Məhz bu şəxslərin cinayətkar fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən beşdəbiri 30 ildən artıq müddət ərzində Ermənistanın işğalı altına düşüb, bir milyona yaxın azərbaycanlı etnik təmizləməyə məruz qalıb.

Sülh yaradan liderliyiniz sayəsində Cənubi Qafqaz regionu son 35 ilin ən dinc dövrünü yaşayır. Bu nailiyyət 2025-ci il avqustun 8-də Vaşinqton Birgə Bəyannaməsi vasitəsilə şəxsən Sizin tərəfinizdən təmin edilib.

Cənab Prezident, dezinformasiya kampaniyaları aparanlar 30 ildən artıq davam etmiş işğal dövründə terrorizmin maliyyələşdirilməsi, təcavüzkar müharibənin aparılması və insanlıq əleyhinə cinayətlərin törədilməsi ilə bağlı ittiham olunan şəxsləri "girovlar" kimi qələmə verməyə çalışırlar. Onların əməlləri nəticəsində 1 milyona yaxın azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, yüzlərlə mülki yaşayış məntəqəsi sistemli şəkildə məhv edilib.

Saxlanılan şəxslərdən biri əvvəlki dövrdə USAID rəhbəri Samanta Pauer ilə sıx əlaqələri olan, Rusiya-Ermənistan əsilli oliqarx Ruben Vardanyandır. O, Cənubi Qafqaz regionunda sülhün əldə edilməsinin qarşısını almaq məqsədilə Azərbaycanın əvvəllər işğal altında olmuş ərazilərində yaradılmış oyuncaq rejimə "dövlət naziri" kimi göndərilmişdi.

Azərbaycan bu məhkəmə proseslərini şəffaf şəkildə və beynəlxalq öhdəliklərinə uyğun olaraq həyata keçirir. Ruben Vardanyanla bağlı iş də daxil olmaqla, hüquqi icraatlar məhkəmə kollegiyaları tərəfindən aparılır və ictimaiyyət üçün açıqdır. Bunu dini təqib kimi təqdim etmək cəhdləri tamamilə əsassızdır. Azərbaycan müsəlmanların, xristianların və yəhudilərin əsrlər boyu harmoniyada yaşadıqları dünyəvi ölkə olaraq qalır. Məsələn, ötən ay Bakı şəhərində İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəsmi toplantısı keçirilib. Eyni zamanda, tikintisi Azərbaycan dövləti tərəfindən maliyyələşdirilən ikinci katolik kilsə hazırda paytaxtda inşa olunmaqdadır. Bu faktlar bir daha Azərbaycanın dinlərarası dialoqa və tolerantlığa sadiqliyini nümayiş etdirir. Bu kimi çoxsaylı nümunələr var.

Cənab Prezident, Ermənistan ilə Azərbaycan arasında baş vermiş münaqişə heç vaxt dini xarakter daşımayıb. Bəzi bədxahlar Sizin şəxsi iştirakınız sayəsində regionda əldə olunmuş sülhü sarsıtmağa cəhd edirlər. Vaşinqton razılaşmalarının ruhuna uyğun olaraq, Azərbaycan ilə Ermənistan arasında etimadın möhkəmləndirilməsinə yönəlmiş tədbirlərə başlanılıb və iqtisadi əlaqələr bərpa edilir.

Siz və administrasiyanız dünyaya göstərdi ki, Amerikanın gücü sülhün qurulması və ədalətin təmin olunmasındadır. Azərbaycan və Ermənistan liderlərinin Sizin Nobel Sülh Mükafatı ilə təltifiniz üçün Nobel Sülh Komitəsinə müraciət etməsini alqışlayırıq.

Sizin liderliyiniz sayəsində dünyanın müxtəlif bölgələrində onilliklər boyu davam etmiş bir sıra münaqişələr artıq keçmişə çevrilib. Biz inanırıq ki, Lemkin İnstitutu kimi pozucu qüvvələr Amerika ictimaiyyətini yanlış istiqamətləndirmək məqsədlərinə heç vaxt nail ola bilməyəcəklər.

Liderliyinizə dərin hörmətlə,

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri:

**1. Ramil İSKƏNDƏRLİ – Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri**
**2. Vladimir TİMOŞENKO – istefada olan general-mayor, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyətinin üzvü**
**3. Novella CƏFƏROĞLU – Dilarə Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyətinin sədri**
**4. Səadət BƏNƏNYARLI – Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsinin sədri**
**5. Səltənət QOCAMANLI – İnsan Hüquqlarının və Qanunçuluğun Müdafiəsi İctimai Birliyinin sədri**
**6. Əmir ƏLİYEV – İnsan Hüquqlarının Təşviqi Mərkəzinin sədri**
**7. Əliməmməd NURİYEV – "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri**
**8. Zaur MƏMMƏDOV – Bakı Politoloqlar Klubunun sədri**
**9. Rey QASIMOV – Azərbaycanda Minadanzərərçəkənlər Assosiasiyasının sədri**
**10. Hafiz SƏFİXANOV – Minalar Əleyhinə Azərbaycan Kampaniyasının rəhbəri**
**11. Zaur İBRAHİMLİ – "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzinin sədri**
**12. Könül BEHBUDOVA – "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri**
**13. Ayaz MİRZƏYEV – "Azərbaycan Jurnalistlər Şəbəkəsi"nin sədri**
**14. Dilqəm ƏHMƏD – "Çapar" Milli İrsin Tədqiqi Mərkəzinin sədri**
**15. Fuad MƏMMƏDOV – "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının rəhbəri**
**16. Fariz XƏLİLLİ – "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri**
**17. Umud RƏHİMOĞLU – Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri**
**18. Mübariz ƏSGƏROV – "Obyektiv" Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyinin sədri**
**19. Şəhla NAĞIYEVA – "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyinin sədri**
**20. Qəmər BAĞIROVA – Cəfər Cabbarlı adına Mədəniyyət, Elm və Təhsilin İnkişafına Yardım İctimai Birliyinin sədri**
**21. Sevinc ƏLİZADƏ – "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri**
**22. Tünzalə ABDÜLƏLİMOVA – "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri**
**23. Ceyran HƏSƏNOVA – "Şəhid Analarına Dəstək" İctimai Birliyinin sədri**
**24. Aqil CAMAL – Ortaq Dəyərlər İctimai Birliyinin sədri**
**25. Vüqar QƏDİROV – Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı İctimai Birliyinin sədri**
**26. Xalid KAZIMOV – Regional İnsan Hüquqları və Media Mərkəzinin sədri**
**27. Əhməd ABBASBƏYLİ – Cəmiyyətin İnkişafı Mərkəzinin sədri**
**28. İradə RİZAZADƏ – Vətəndaşların Sosial Rifahı Naminə İctimai Birliyinin sədri**
**29. Kəramət İSMAYILOV – İqtisadi Və Sosial İnkişaf Mərkəzinin sədri**
**30. Fikrət YUSİFOV – "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri.**

*QHT həyəcan siqnalı çalır*

**Dünən "Azərbaycan Uşaqları" İctimai Birliyinin və Azərbaycan Milli QHT Forumunun birgə təşkilatçılığı ilə "Yeni reallıqlar, yeni həllər: uşaqların ekran və virtual mühitə aludəçiliyi, müdafiəsiz vəziyyətə düşməsi" mövzusunda ictimai müzakirə keçirildi.**

Məclisdə Milli Məclisin deputatları, dövlət qurumlarının nümayəndələri, qeyri-hökumət təşkilatlarının rəhbər şəxsləri, müxtəlif universitetlərin sosial iş ixtisası üzrə təhsil alan tələbələri, eləcə də "Azərbaycan Uşaqları" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Uşaq Sığınacağı – Reinteqrasiya Mərkəzinin sakinləri iştirak edirdilər.

İctimai müzakirəni giriş sözü ilə açan "Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri Kəmalə Ağazadə tədbir iştirakçılarını salamlayaraq mövzunun son dövrlər xüsusi aktuallıq kəsb etdiyini vurğuladı. O, zərərli rəqəmsal mühitin təsirinə məruz qalan uşaqların sayının gündən-günə artmasının ciddi narahatlıq doğurduğunu diqqətə çatdırdı.

Sənaye inqilabları hər şeyi dəyişdirdiyi kimi, insan xarakterini də transformasiyaya uğradır. Texnoloji inqilab dövrünün insanı da yeni yanaşmalar və dəyişikliklərə uğrayır.

Əslində, insan bioloji varlıq kimi, təbii olaraq, dəyişərkən mütləq ki, ətraf mühitin təsirinə – sosial və psixoloji, texnoloji təsirə məruz qalır. Bundan əziyyət çəkən isə cəmiyyət üzvləri, xüsusilə valideynlər və müəllimlər olur. Övladlarımıza hakim olmadıqca və onların öhdəsindən gəlmədikcə isə fəsad uşaqların özündə görünür: stres, aqressiya, güvənsizlik, inamsızlıq, intihar, qeyri-müəyyənlik, autizm, diqqət əskikliyi kimi hallarla qarşılaşırıq.

# Uşaqlar "rəqəmsal epidemiya" hədəfində

## *Yeni nəsli bu bəladan kim və necə qorumalıdır?*





Tədbir çərçivəsində zərərli rəqəmsal mühitin qurbanına çevrilmiş real həyat hekayəsi əsasında hazırlanmış sosial çarxlar nümayiş etdirildi. Ardınca 4 panel müzakirəsi və açıq ictimai müzakirə təşkil olundu.

Birinci panel müzakirəsində Milli Məclisin deputatı Mehriban Vəliyeva və Azərbaycan Milli QHT Forumu İdarə Heyətinin sədri Ramil İskəndərli "Təhsil və texnologiya arasında balans: rəqəmsal həllər uşağın inkişafına necə təsir edir?" mövzusu ətrafında çıxış etdilər.

Digər panellərdə Milli Məclisin deputatı Azər Allahverənov, Qadın Konsensus Mərkəzinin rəhbəri, jurnalist Aynur Camalqızı "Rəqəmsal uşaqlıq: süni intellekt dövründə uşaqlıq anlayışı necə dəyişir?", Milli Məclisin deputatı Ceyhun Məmmədov, Bakı Psixologiya Mərkəzinin uzman psixoloqu və psixoterapevti Nərmin Osmanlı "Ekran arxasındakı təhlükələr: rəqəmsal mühitdə uşaqların psixososial riskləri", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Uşaqların Müdafiəsi İdarəsinin rəis müavini Günel Səfərova və Regional İnkişaf İctimai Birliyinin nümayəndəsi Gülbağda Leysanova "Uşaqların rəqəmsal təhlükəsizliyi kimin məsuliyyətidir: valideyn, dövlət, yoxsa vətəndaş cəmiyyəti?" mövzuları ətrafında müzakirə apardılar.

Milli Məclisin deputatı Mehriban Vəliyeva çıxışında qeyd etdi ki, dünyanın yeni düzənində iqtisadi dövlətçiliyin önə çıxdığını müşahidə edirik: "Siyasi proseslər çoxqütblülüyə yol açsa da, rəqəmsallaşma bizi birqütblülüyə doğru aparır. Dünyanın texnoloji mərkəzlər tərəfindən idarə olunması, sanki klonlaşdırma prosesini reallaşdırır. Rəqəmsal idarəetmədə sosial təsir, mənəvi aşındırma, yeni insan modelinin yaradılması prosesləri güclü çay axınına bənzəyir. Bu prosesdə ya sən idarə etməlisən, ya səni idarə edəcəklər. Bu baxımdan yeni nəslin tərbiyəsində xarakterin formalaşması üçün yeni yanaşmalar bizi ciddi düşündürməlidir".

Ekran asılılığını aradan qaldırmaq və özünənəzarətə keçmək lazımdırmı? Əslində, bəşəriyyət tarixində hər nəsil əvvəlkilərdən fərqli çətinliklər və imkanlarla üzləşib. Bu, xüsusilə son illərdə sürətlə inkişaf edən texnologiya və dəyişən cəmiyyətlərlə əlaqədar daha da aydın görünür. Hətta nəsillər arasında məsafə də kiçilib. "Zet nəsli" bitməmiş "alfa nəsli" və sonra digəri gəlir. Hərəsinin öz xarakterik xüsusiyyətləri və çətinlikləri olur.

Azərbaycan Milli QHT Forumu İdarə Heyətinin sədri Ramil İskəndərli müzakirənin əhəmiyyətindən danışaraq bildirdi ki, birgə müzakirə etdiyimiz mövzu istiqamətində ixtisaslaşdırılmış QHT-lər var. Bu yöndə fəaliyyət göstərən uşaq "qaynar xətti" də böyük rol oynayır. O, çıxışında qeyd etdi ki, kibercinayətkarlar uşaqlara dost kimi yaxınlaşaraq şəxsi məlumatlarını əldə edirlər. Bu istiqamətdə media nümayəndələrinin də iştirakı ilə valideynlər üçün maarifləndirmə tədbirlərinin keçirilməsi vacib məsələdir.

R.İskəndərli uşaqların rəqəmsal mühitdə müdafiəsi istiqamətində dövlət siyasətinin sistemli şəkildə həyata keçirildiyini vurğuladı. O, həmçinin dedi ki, uşaqların zərərli informasiyalardan qorunması sahəsində qəbul olunmuş qanunvericilik sənədləri bu istiqamətdə hüquqi tənzimləməni təmin etməlidir.

Milli Məclisin deputatı Azər Allahverənov qeyd etdi ki, indi informasiya əsridir. Lakin ekran asılılığı, virtual aləmin gətirdiyi yeni dəyərlər bizi bizdən alır: "Sanki, uşaqlarımız bizdən kənarda virtual aləmin təsiri ilə böyüyürlər. Müasir dövrün təklif etdiyi yeni reallıqlar qarşısında valideynlərin və müəllimin məsuliyyəti artır. Müasir valideynlər və məktəb öz uşaqlarını həm həyatda uğurlu olmaq, həm də psixoloji sağlam böyümək üçün düzgün istiqamətləndirməlidirlər".

Deputat diqqətə çatdırdı ki, kompüter, mobil vasitələr, smartfonlar, video oyunlar, sosial şəbəkələr və digər internet saytları ilə erkən yaşlarda tanış olan uşaqlar çox zaman sosial şəbəkələrin və əyləncə saytlarının mümkün təhlükələrini tam dərk etmirlər: "İnternetin əksər məkanlarda müxtəlif vasitələrlə əlçatan olması uşaqların virtual məkandakı fəaliyyətinin valideynlər tərəfindən nəzarət və idarə olunmasını çətinləşdirir. Bir çox hallarda valideynlər və himayəçi şəxslər internetin uşaqlar üçün təhlükəli tərəfləri barədə lazımi dərəcədə məlumatlı olmurlar. Məhz bu baxımdan belə treninq və görüşlərin keçirilməsi həm uşaqların, həm də valideynlərin maariflənməsi sahəsində mühüm əhəmiyyət kəsb edir".

Daha sonra toplantı açıq müzakirələrlə davam etdi, mövzu ilə bağlı təklif və tövsiyələr dinlənildi. Səsləndirilən təkliflərilə bağlı kitabın hazırlanması qərara alındı.

***Müşfiq MİRZƏ***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# Erməni hərbçilərə son söz imkanı yaradılıb



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 25-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Sədrlik edən Z.Ağayev bildirib ki, məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.

Məhkəmə iclasında təqsirləndirilən şəxs Levon Mnatsakanyan son sözünü davam etdirib. Təqsirləndirilən şəxs çıxışında ona qarşı irəli sürülən ittihamlarla razılaşmadığını bildirib və deyib: "Mənə qarşı irəli sürülmüş ittihamların heç birində özümü günahkar hesab etmirəm". O, ibtidai istintaqda dediklərindən imtina etdiyini söyləyərək, məhkəmədən qərar qəbul edərkən yalnız məhkəmədə dediklərinin əsas kimi götürülməsini xahiş edib.

L.Mnatsakanyan fikirlərini sona qədər ifadə etməyə şərait yaratdığına görə məhkəməyə təşəkkür edib. Sonda o, üç gün ərzində etdiyi çıxışı – 51 səhifəlik mətni məhkəmə protokollarına əlavə etmək üçün məhkəməyə təqdim edib.

Ardınca təqsirləndirilən şəxs Arkadi Qukasyan son söz çıxışı edib.

O, vəkillərinə prinsipiallıq göstərdiklərinə və onu doğru şəkildə müdafiə etdiklərinə görə təşəkkür edib və deyib: "Xüsusilə də həqiqəti üzə çıxarmaq üçün işə düzgün yanaşdıqlarına, həmçinin insani münasibətlərinə görə təşəkkür edirəm".

Sonra o, ittiham tərəfinin dəlilləri ilə razılaşmadığını bildirib və özünün əks arqumentlərini səsləndirib.

Təqsirləndirilən şəxs ittiham tərəfinin onun "Sovet Qarabağ"ı qəzetində çalışmasını cinayət kimi təqdim etdiyini və bununla razılaşmadığını söyləyib. O, 4 nəfər redaktor müavinindən biri olduğunu, qəzetin rus dilinə tərcüməsi üzrə müavin vəzifəsində çalışdığını deyib. Əlavə edib ki, həmin vaxt tabeliyində 16 nəfər işçi olub. Təqsirləndirilən şəxs qəzetin fəaliyyətini cinayət hesab etmədiyini bildirib.

O, separatçı siyasətdən 2007-ci ildə getdiyini və bir daha qayıtmadığını deyib.

A.Qukasyan ona qarşı irəli sürülmüş ittihamların heç biri ilə özünü təqsirli bilmədiyini söyləyib.

Sonra təqsirləndirilən şəxs Bako Sahakyan son söz çıxışı edib. B.Sahakyan çıxışında müdafiəçilərinin hər ikisinə təşəkkür edib: "Professionallığına və insani münasibətinə görə onlara minnətdaram. Hər iki vəkilin bu ittiham aktına olan münasibətini vəkillik və hüquqi cəhətdən çox yüksək keyfiyyətdə qiymətləndirmək olar". O, çıxışında ittiham tərəfinin bildirdikləri ilə bağlı özünün əks arqumentlərini səsləndirib. İttiham tərəfinin onları cinayətkar birlik kimi təqdim etməsinə isə belə münasibət bildirib: "Cinayətkar təşkilat olmayıb, ola da bilməzdi".

Təqsirləndirilən şəxs Şuşanın işğalında iştirakından da danışıb: "Məhkəmə istintaqı başlayanda vəkilimə demişdim ki, bəli, Şuşada iştirakımla bağlı epizod var və mən bunu məhkəmədə gizlədə bilmərəm".

Məhkəmə prosesi dekabrın 26-da davam etdiriləcək.

***XQ***

# Mərkəzi Bank illər ayrıcında

## *Maliyyə sabitliyi və növbəti ilin hədəfləri*

**2026-cı ildə Azərbaycan Mərkəzi Bankı illik inflyasiyanı 4±2 faiz diapazonunda saxlamağı qarşısına məqsəd qoyub. Bu hədəf ölkədə qiymət sabitliyini qoruyaraq iqtisadi artımı və əhalinin alıcılıq qabiliyyətini təmin etməyə xidmət edir. Lakin qlobal iqtisadi qeyri-müəyyənliklər fonunda pul siyasətinin icrasında çevik və ehtiyatlı yanaşma tələb olunur.**



İnflyasiya risklərinin böyük hissəsi xarici amillərlə bağlıdır və geosiyasi gərginliklərlə qlobal ticarətdəki qeyri-sabitlik fonunda idxal inflyasiyasının güclənməsi başlıca təhlükə olaraq qalır. İdxal məhsullarının bahalaşmasının ölkədaxili qiymətlərə təsiri isə xarici tərəfdaş ölkələrdəki inflyasiya səviyyəsindən və manatın məzənnə sabitliyindən asılı olacaq.

Manatın məzənnə sabitliyinin qorunması 2026-cı ildə də pul siyasətinin prioriteti olacaq. AMB valyuta bazarında tarazlığı təmin etmək üçün zəruri hallarda müdaxilə etməyə və bank sisteminin likvidliyini tənzimləyərək faiz dərəcələrini hədəf intervalda saxlamağa davam edəcək, bununla da monetar sferadan kənar amillərin təsirini minimuma endirməyə çalışacaq. İnflyasiya təzyiqinin artacağı təqdirdə uçot dərəcəsinin yüksəldilməsi də istisna edilmir. Qeyd edək ki, 2024-cü ilin ortalarından bəri AMB uçot faizini 7,25 faiz səviyyəsində sabit saxlayır və əlavə yumşalmaya fasilə verib. Bu da zəruri halda siyasətin yenidən sərtləşdirilə biləcəyinə işarədir.

AMB 2026-cı ildə analitik və proqnozlaşdırma qabiliyyətini gücləndirməyi planlaşdırır. Qərarların elmi əsaslara söykənməsi üçün beynəlxalq təcrübəyə uyğun yeni makroiqtisadi modellər tətbiq ediləcək, tədqiqatların əhatə dairəsi genişləndiriləcək və böyük verilənlərin təhlili ilə maşın öyrənməsi kimi müasir texnologiyalardan daha çox faydalanılacaq.

Bank pul siyasətinin digər iqtisadi siyasətlərlə uzlaşdırılmasına da önəm verir. Faiz qərarlarında hökumətin fiskal kursu nəzərə alınacaq, makroprudensial alətlər isə daxili komitələr (Pul Siyasəti və Maliyyə Sabitliyi Komitəsi) vasitəsilə monetar kursla uyğunlaşdırılacaq.

Mərkəzi Bank iqlim dəyişmələrinin inflyasiya və iqtisadi artıma təsirini öyrənməyə, "yaşıl maliyyə" təşəbbüslərini təşviq etməyə də davam edir. Eyni zamanda rəqəmsal manatın tətbiqi üçün 2026-cı ildə yol xəritəsi hazırlanır və rəqəmsal valyutanın mümkün istifadə sahələri, risk-fayda dəyərləndirmələri və mərhələli tətbiq planı üzrə işlər aparılır.

Göründüyü kimi, 2026-cı ildə pul siyasətinin əsas hədəfi inflyasiyanı hədəf diapazonunda saxlamaqla ölkədə qiymət sabitliyini təmin etməkdir. Mərkəzi Bank inflyasiyanı nəzarətdə saxlamaq üçün həm ənənəvi alətlərdən (sabit məzənnə, faiz dərəcəsi və s.), həm də təkmilləşdirilmiş analitik modellərdən yararlanacaq. Xarici risklərin payı yüksək olduğundan ehtiyatlı və çevik yanaşma zəruri olacaq – AMB, lazım gəlsə, operativ qərarlarla müdaxilə edərək qiymət sabitliyini qorumağa çalışacaq. Bankın gücləndirilmiş kommunikasiya siyasəti və digər qurumlarla koordinasiyası qərarların təsirini artıracaq. Yeni "yaşıl" və rəqəmsal təşəbbüslərin gündəmdə olması isə pul siyasətinin gələcək çağırışlara da indidən hazırlandığını göstərir.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Elman SADIQOV,**
**iqtisadçı-ekspert**

Keçən ilin noyabrından 2025-ci ilin noyabrına qədər olan 12 aylıq dövrdə inflyasiya 5,5 faiz təşkil edib. Lakin bu inflyasiyanın tərkibindən tənzimlənən qiymət artımları və kənd təsərrüfatı məhsullarında mövsümi xarakter daşıyan qiymət dəyişiklikləri çıxıldıqda, yerdə qalan inflyasiya səviyyəsi 4,8 faiz olaraq qiymətləndirilir.

Burada diqqətçəkən əsas məqamlardan biri də faiz dərəcələri ilə bağlıdır. Məsələn, il ərzində faiz dərəcələrinin 3–4 faiz bəndi azaldılması məsələsi gündəmdə olub və faktiki olaraq, bu göstərici təxminən 25 faizdən 75 faizə qədər endirilib. Bununla belə, ümumi bəyanatda əsas fikir konsentrasiyası inflyasiya və manatın məzənnəsinin sabit saxlanılması məsələlərinə yönəlib.

2025-ci il üzrə müsbət məqamlardan biri, şübhəsiz ki, tədiyə balansı ilə bağlı göstəricilərdir. Doqquz ayın nəticələrinə görə cari əməliyyatlar hesabında 3 milyard ABŞ dolları həcmində profisit formalaşıb. Bundan əlavə, ölkənin strateji valyuta ehtiyatlarının 11 ay ərzində 17,7 faiz artaraq 83,6 milyard ABŞ dollarına çatması, o cümlədən Mərkəzi Bankın valyuta ehtiyatlarının 11,4 milyard ABŞ dolları səviyyəsində olması da müsbət amillər kimi qiymətləndirilə bilər.

Burada xüsusi diqqət yetirilməli əsas məqamlardan biri idxal inflyasiyasının ümumi inflyasiyadakı payının təxminən 60 faizdən çox olmasıdır. Bu, kifayət qədər ciddi siqnaldır və əslində inflyasiyanın yüksək olmasına haqq qazandıran amil deyil. Əksinə, bu göstərici idxal inflyasiyasının azaldılması üçün konkret tədbirlərin görülməsini və məqsədyönlü plan-proqramların hazırlanmasını zəruri edir.

Hazırda qlobal iqtisadiyyatda inflyasiya ümumilikdə aşağı düşməkdədir. Xüsusilə ərzaq inflyasiyasında azalma müşahidə olunur. Bununla belə, ticarət tərəfdaşlarımızdan biri olan Türkiyədə inflyasiya səviyyəsinin yüksək qalması ölkəmizdəki inflyasiyaya da təsirsiz ötüşmür. Digər tərəfdən, dünya bazarlarında bəzi qiymətli metalların, xüsusilə qızılın qiymət dinamikası da diqqət çəkir.

Lakin ticarət tərəfdaşlarımızdakı inflyasiyanın ölkədaxili qiymətlərə bu dərəcədə güclü təsir göstərməsi bir daha yerli istehsalın və emal sənayesinin inkişafının nə qədər vacib olduğunu ortaya qoyur. Bu sahədə atılacaq addımlar idxal asılılığını azaltmaqla inflyasiya risklərinin yumşaldılmasına xidmət edə bilər.

Ümumilikdə, 2026-cı il üçün açıqlanan rəqəmlər, müəyyən mənada, nisbidir. Bir faiz yuxarı və ya aşağı dəyişikliklər fundamental mənzərəni köklü şəkildə dəyişmir. Əsas məsələ ondan ibarətdir ki, ölkə üçün risk yaradan istiqamətlər – istər geosiyasi proseslər, istər qlobal iqtisadi hadisələr, istər idxal inflyasiyası, istərsə də faiz dərəcələri və biznes kreditləri ilə bağlı məsələlər – sistemli şəkildə qiymətləndirilsin.

Xüsusilə istehsal və emal sahələrində artım templərinin sürətləndirilməsi vacibdir. Bu istiqamətdə atılacaq addımların nəticəsi dərhal deyil, müəyyən gecikmə effekti ilə özünü göstərəcək. Yəni yeni sənaye müəssisələrinin qurulması qısa müddətdə qiymətlərə təsir etməsə də, 2027–2028-ci illərdə inflyasiya dinamikasına müsbət təsir edə bilər.

Nəticə etibarilə, Mərkəzi Bankın əvvəlcədən öz siyasət istiqamətlərini açıqlaması və kommunikasiya kanallarını gücləndirməsi müsbət haldır. Bununla yanaşı, inflyasiyanın strukturuna dair daha detallı rəqəmlərin açıqlanması və mövcud risklərin azaldılması üçün iqtisadiyyatın digər qurumları tərəfindən atılacaq addımların da paralel şəkildə təqdim edilməsi məqsədəuyğun olardı. Bu yanaşma bütövlükdə daha aydın və tamamlanmış iqtisadi mənzərə formalaşdırmağa imkan verə bilər.

**Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz-kondensat yatağında hasilatın artırılması ilə bağlı mühüm tədbirlər həyata keçirilir. Elə müqavilə sahəsində quraşdırılacaq yeni kompressiya platforması (ŞDK) da bu qəbildən olan layihələrə aiddir. Məlumat üçün bildiririk ki, bu layihə yataqdan aşağı təzyiqli qaz ehtiyatlarının hasil edilməsini və maksimum qazvermə əmsalına nail olunmasını təmin etmək üçün dənizdə kompressor platformasının və əlaqədar qurğuların quraşdırılmasından ibarətdir.**

# "Şahdəniz" yatağında hasilat artır

Bu yaxınlarda Türkiyənin "Hareket Project Transportation" şirkəti ŞDK platformasının tikintisi üçün mühəndis-texniki, nəqliyyat və kran xidmətləri üzrə 11 milyon ABŞ dolları dəyərində müqavilə imzalayıb. Bu barədə məlumat Türkiyənin İctimaiyyəti Məlumatlandırma Platformasında yer alıb. "Dekabrın 4-də xüsusi bildirişimizə uyğun olaraq, şirkət Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə BP-nin təbii qaz hasilatının artırılması üzrə birgə layihəsi çərçivəsində Bakıda dəniz kompressiya qurğusunun tikintisi üçün mühəndislik, nəqliyyat və kran xidmətlərinin göstərilməsi üzrə ikiillik müqavilə imzalayıb", – deyə məlumatda bildirilib.

Qeyd edək ki, 2,9 milyard ABŞ dolları dəyərində olan ŞDK layihəsi yatağın işlənməsinin əvvəlki iki mərhələsinin davamıdır. Sözügedən layihənin "Şahdəniz" yatağından, təxminən, 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

ŞDK layihəsi çərçivəsində yeni kompressiya obyektinin – elektriklə işləyən, heyətsiz kompressiya platformasının (və ya Əsasən Heyətsiz Qurğu (eNUI)) inşası nəzərdə tutulur. Bu nəhəng dəniz qurğusu suyun 85 metr dərinliyində, mövcud "Şahdəniz Bravo" platformasından, təxminən, 3 kilometr, "Şahdəniz Alfa" platformasından isə 10 kilometr məsafədə quraşdırılacaq. Üzərində dörd ədəd 11 meqavatlıq kompressor quraşdırılacaq platforma "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından hasil edilən qazın kompressiyası üçün ana qurğu kimi xidmət göstərəcək. Bu o deməkdir ki, hər iki platformadan hasil edilən ixrac qazı qurudakı Səngəçal terminalına göndərilməzdən əvvəl yeni platformada kompressiya olunacaq.

Layihə "Şahdəniz" müqavilə sahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri, "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarını, eləcə də Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işləri əhatə edir. Layihə çərçivəsində, həmçinin "Şahdəniz" müqavilə sahəsində bir sıra əlavə obyektlər quraşdırılacaq. Bunlara mövcud platformaların qaz ixrac xətlərinə birləşən yataqdaxili sualtı qaz boru kəmərləri, ŞDK platformasını enerji ilə təchiz etmək üçün Səngəçal terminalından çəkilən birləşdirilmiş elektrik və fiber-optik kabel xətti, "Şahdəniz-Bravo"dan yeni kompressiya platformasına birləşdirici ehtiyat elektrik və fiber-optik kabel xətti, eləcə də hasilat platformaları və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işlər daxildir.

Artıq layihə üzrə tikinti işlərinə başlanıb. Bu məqsədlə Şahdəniz konsorsimu ilə "Azfen" şirkəti arasında 321 milyon dolları dəyərində müqavilə imzalanıb. Ümumilikdə isə, müqavilənin iş həcminə ŞDK platforması üçün 8 min 500 tonluq üst modullar blokunun inşası, montajı, quraşdırılması və inteqrasiyası daxildir. Tikinti işləri ölkə daxilində yerli infrastruktur və resurslardan istifadə etməklə "Azfen"in Bayıldakı tikinti-quraşdırma sahəsində həyata keçiriləcək. Üst modulların tikintisi işlərinin 2028-ci ilin sonuna başa çatacağı planlaşdırılır. Bu işlərə 90 faizdən əksəriyyəti yerli mütəxəssislər olmaqla 3 mindən artıq işçi qüvvəsi cəlb ediləcək. Tikinti-quraşdırma işlərinin 2029-cu ildə başa çatması ilə ŞDK platformasının həmin ildə "Şahdəniz Alfa"dan, 2030-cu ildə isə "Şahdəniz Bravo"dan hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbul etməyə hazır olacağı planlaşdırılır.

Yeri gəlmişkən, Azərbaycanı dünyanın potensial qaz ixracatçısına çevirmiş zəngin qaz-kondensat yatağı olan "Şahdəniz"dən ilk qazın hasilata başlamasından 19 il ötür. Ötən müddətdə yataqda hasilat fasiləsiz şəkildə davam edərək bir sıra ölkələrin təbii qazla təminatına, bütövlükdə, Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə misilsiz töhfələr verib.

"BP-Azərbaycan" şirkətinin məlumatına görə, 2025-ci ilin 9 ayı ərzində "Şahdəniz" layihəsi üzrə əməliyyat tədbirlərinə, təxminən, 1 milyard 836 milyon dollar,



əsaslı işlərə isə 756 milyon dollar xərclənib. Həmin xərclərin böyük əksəriyyəti "Şahdəniz-2" layihəsinə aid olub. Hesabat dövründə "Şahdəniz" yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, eləcə də çoxsaylı obyektlər üçün BTC-yə və Avropadakı alıcılara təbii qazın çatdırılması davam etdirilib. Ümumilikdə isə, ilin 9 ayında yataqdan "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformaları vasitəsilə, təqribən, 21 milyard kubmetr qaz və təxminən, 3 milyon ton kondensat çıxarılıb.

Şirkətin hesabatına əsasən, cari ilin 3-cü rübündə "Şahdəniz-2" layihəsi çərçivəsində qərb-cənub cinahında qalan quyularda sualtı işlər üzrə fəaliyyətlər davam etdirilib. "Xankəndi" sualtı tikinti gəmisi hazırda istismarda olan "Şahdəniz" yatağının 2-ci mərhələsi çərçivəsində sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə lazımi dəstək verib. Rüb ərzində gəminin ümumi yoxlama və texniki xidmət işləri, o cümlədən yan hərəkəti tənzimləyən qurğunun təmiri üçün quru doka daxil olmasına hazırlıq işləri başlanıb. "Xankəndi" gəmisi quru dokda olduğu müddətdə əməliyyatların davamlılığını təmin etmək məqsədilə ilk çağırış gəmisi kimi "Tofiq İsmayılov" dalğıc gəmisindən istifadə olunacaq.

Rüb ərzində "Şahdəniz Alfa" platformasının qazma qurğusu yenidən işlək rejimə gətirilib. Bununla yanaşı, "İstiqlal" və "Heydər Əliyev" qazma qurğuları "Şahdəniz-2" layihəsi çərçivəsində quyular üzrə işləri davam etdirib. Bunun da nəticəsində "İstiqlal" qurğusu yatağın qərb-cənub cinahında SDF04 quyusunda işləri başa çatdırıb. "Heydər Əliyev" qurğusu isə şərq-şimal cinahında SDH04 quyusunun qazma işlərini bitirib və həmin cinahda SDH05 quyusunun qazma işlərinə başlayıb. Ümumilikdə isə, ötən müddətdə "Şahdəniz-2" layihəsi çərçivəsində 23 quyu qazılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qiymətləndiricilər Palatası xarici əməkdaşlığı genişləndirir

**Azərbaycan Qiymətləndiricilər Palatası (AQP) Qazaxıstanın Qazaxıstan Milli Qiymətləndirmə Palatası və Gürcüstanın Müstəqil Qiymətləndiricilər Cəmiyyəti ilə əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalayıb. Sənədlər qiymətləndirmə sahəsində institusional əməkdaşlığın möhkəmləndirilməsini, elmi-metodoloji bazanın təkmilləşdirilməsini və region ölkələri arasında bilik və təcrübə mübadiləsinin genişləndirilməsini hədəfləyir.**



**AQP sədrinin müavini Ayan Qəmbərova** "Xalq qəzeti"nə bildirib ki, imzalanmış memorandumlar regionda qiymətləndirmə sahəsində vahid yanaşmanın təşviqinə və qarşılıqlı faydalı tərəfdaşlıqların inkişafına xidmət edəcək: "Bu əməkdaşlıq çərçivəsində tərəflər vahid məlumat bazasının hazırlanması, birgə elmi-metodoloji sənədlərin işlənməsi, təlim-tədris proqramlarının təşkili, sertifikasiya və peşəkar inkişaf mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də beynəlxalq qiymətləndirmə standartlarının tətbiqi istiqamətində birgə təşəbbüslər həyata keçirəcəklər".

Memorandumların region ölkələrinin iqtisadi və investisiya mühitinə müsbət təsir göstərməklə şəffaflığın artırılmasına və institusional dayanıqlılığın gücləndirilməsinə şərait yaradacağını diqqətə çatdıran sədr müavininin sözlərinə görə, qarşılıqlı təcrübə mübadiləsi, ortaq müzakirələr və birgə layihələr qiymətləndirici mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılmasına, yeni metodoloji yanaşmaların tətbiqinə və sektorun uzunmüddətli inkişafına mühüm töhfələr verəcək.

Palata rəsmisi bunu da bildirib ki, yaxın dövrdə memorandumların icrası məqsədilə birgə işçi qruplarının yaradılması, tematik görüşlərin, regional seminar və konfransların təşkili, eləcə də tərəfdaş qurumlar arasında qarşılıqlı səfərlərin həyata keçirilməsi planlaşdırılır: "Azərbaycan Qiymətləndiricilər Palatası bundan sonra da beynəlxalq tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi, peşəkar qiymətləndirmə institutlarının inkişafına yönəlmiş yeni təşəbbüslərin reallaşdırılması və sektorun müasir tələblərə uyğun transformasiyası istiqamətində fəaliyyətini davam etdirəcək".

***XQ***

# Bakı mikromobillik şəhərinə çevrilir

**"Euronews" telekanalı Azərbaycanın paytaxtı Bakının mikromobillikyönümlü şəhərə çevrilməsinə həsr olunmuş, şəhər mühitinin innovasiyası üzrə atılan addımları nəzərdən keçirən reportaj hazırlayıb.**



Materialda xüsusilə vurğulanıb ki, son illərdə genişmiqyaslı şəhər dəyişiklikləri müşahidə edilir. Telekanal Azərbaycanın Yerüstü Nəqliyyat Agentliyinin nəqliyyat planlanması departamentinin rəhbəri Fuad Cəfərlinin sözlərini sitat gətirərək bildirib: "Başa düşürük ki, təkcə mikromobillik və piyada infrastrukturunun inkişafı kifayət deyil. Bizim əsas ideyamız ictimai nəqliyyat sistemini modernləşdirmək və onu şəxsi avtomobili olmayan insanlar üçün daha əlçatan etməkdir. Bununla onlar təyinat yerinə rahat çata bilərlər".

Departament rəhbərinin sözlərinə görə, hökumət avtobusların fəaliyyət sistemini təkmilləşdirməyi, onu daha təhlükəsiz və ekoloji cəhətdən təmiz etməyi, həmçinin hər il elektrik enerjisi və sıxılmış təbii qazla işləyən 400 yeni ekoloji avtobus əlavə etməyi planlaşdırır.

"Euronews" onu da vurğulayıb ki, növbəti il Bakının Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini nəzərə alaraq şəhərin mobilliyə yanaşması nəqliyyatın daha rahat və dayanıqlı şəhərlər yaratmaqda necə mərkəzi elementə çevrildiyini göstərir.

***XQ***

*İlin idman uğurları*

# Azərbaycan dünyanın aparıcı idman ölkələrindən birinə çevrilib

## *Bakının “Dünyanın idman paytaxtı” seçilməsi bunu bir daha sübut edir*

### Müsahibimiz Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadədir

**– Çingiz müəllim, bu il də ölkəmizin idman tarixində əlamətdar illərdən biri kimi yadda qaldı. Milli Olimpiya Komitəsi 2025-ci ili hansı uğurlarla yola salır?**

– 2025-ci il də müxtəlif idman tədbirləri və yarışları ilə zəngin oldu. MOK beynəlxalq idman qurumları ilə işgüzar əlaqələrini daha da genişləndirdi. Azərbaycan atletləri bir çox beynəlxalq yarışlarda iştirak etdi. Ölkəmizdə çoxsaylı beynəlxalq yarışlar keçirildi. Bu ilki yarışlar içərisində Avropa Gənclərinin Olimpiya Festivalını, MBD Oyunlarını və VI İslam Həmrəyliyi Oyunlarını xüsusilə qeyd etmək lazımdır. Bu yarışlarda Azərbaycan komandası kifayət qədər böyük sayda idmançılarla iştirak etdi.

Eyni zamanda həm olimpiya, həm də qeyri-olimpiya idman növlərində keçirilən Avropa və Dünya çempionatlarında Azərbaycan idmançıları yaxşı nəticələr göstərmişlər. Bu il İspaniyanın Linares şəhərində keçirilən FİDE qadınlar arasında komanda Dünya çempionatında Azərbaycan millisi tarixdə ilk dəfə Dünya çempionatının gümüş medallarını qazanıb. Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində boks üzrə Dünya çempionatında 19 yaşlı Azərbaycan boksçusu Sübhan Mamedov (48 kq) dünya çempionu olub. Digər idman növlərində də uğurlu nəticələr qazanılıb. İndi ilin bütün nəticələri diqqətlə təhlil edilir və lazımi tədbirlər həyata keçirilir. Ümumiyyətlə, 2025-ci ili də idman sahəsində qazanılan çoxsaylı nailiyyətlər baxımından uğurlu illərdən biri kimi qəbul etmək olar.

**– VI İslam Həmrəyliyi Oyunları da 2025-ci ildə keçirilən ən böyük yarışlardan biri olub. Bu oyunların nəticələri haqqında nə deyə bilərsiniz?**

– VI İslam Həmrəyliyi Oyunlarının nəticələrinə görə yekun cədvəlinə baxsaq, Azərbaycan idmançıları komanda hesabında əvvəlki İslam Həmrəyliyi Oyunlarından daha zəif nəticə göstəriblər. Lakin bunun bir neçə səbəbi var. Biz əlbəttə, bu səbəbləri təhlil edəcəyik. Amma oyunlardakı qazanılan uğurlar da bizi sevindirir. Azərbaycanın qadın idmançıları oyunlarda yüksək nəticələr göstərmişlər. Oyunlarda qazanılan qızıl medalların əksəriyyətini qadın idmançılarımız qazanmışlar. Voleybolda, 3x3 basketbolda, cüdoda, güləşdə və qılıncoynatma idman növündə qadın idmançılarımız böyük əzmkarlıqla mübarizə aparmışlar. Bu uğurlu nəticələr Azərbaycanda son illər inkişaf etdirməyə çalışdığımız qadın idmanının yüksək səviyyəyə çatmasının göstəricisidir.

Azərbaycan bu oyunlarda 9 qızıl, 19 gümüş və 31 bürünc medal qazanıb. Hər bir gümüş medal, ümumiyyətlə, qızıl medal da ola bilərdi və onda Azərbaycan idmançılarının daha yüksək nəticələri olacaqdı. Burada şans məsələsi də var. Məsələn, son anda və gözlənilmədən əldən verilən qızıl medallar var idi. Cüdo yarışlarında Kotsiyevin finalda məğlub olması və yaxud güləşçilərimizin final yarışlarında uduzmaları ümumi nəticə etibarı ilə onu göstərir ki, idmanda şans məsələsi bu gün də mövcuddur.

Əgər bütün başqa ölkələr bu yarışlara çox ciddi hazırlaşırdılarsa, Azərbaycan idmançılarının illik hazırlıq proqramında bu yarışlar ön sırada deyildi. Yəni Olimpiya Oyunlarına və yaxud da hər hansı bir dünya çempionatına xüsusi hazırlıq mərhələsi keçirilir. Lakin bu İslam Həmrəyliyi Oyunlarına bizim heç bir idman növündə xüsusi hazırlıq mərhələsi olmamışdır. Bu növbəti yarış kimi nəzərdə tutulurdu. Hər hansı bir proqram da yox idi. Qeyd etmək olar ki, bəzi idmançılarımız da zədəsi olduğu üçün yaxşı nəticə göstərə bilmədilər. Amma sonadək əzmlə mübarizə apardılar.

**– Bu Oyunlarda İslam ölkələrində idmanın inkişaf etdiyinin də şahidi olduq.**

– Doğrudur, İslam Həmrəyliyi Oyunlarında yeni bir məsələ də üzə çıxdı. Yəni Asiya, Afrika qitəsində idmanın son dövrlərdə daha çox inkişaf etməsinin, müsəlman ölkələrində idmana diqqətin xeyli artırılmasının şahidi olduq. Biz Bəhreyn, Misir və Səudiyyə Ərəbistanı komandalarının uğurlu çıxışlarını gördük. Bu ölkələrin komandalarının, deyərdim ki, ümumdünya səviyyəsinə uyğun müxtəlif idman növlərində çıxışları var idi. Bu da, ümumiyyətlə, son dövrlərdə islam aləmində idmana marağın artdığını və idmanın çox geniş şəkildə inkişaf etdiyini göstərir.

**– İdmançılarımızın Malayziyada keçiriləcək VII İslam Həmrəyliyi Oyunlarına hazırlıqları üçün daha çox nələrə diqqət yetirmək lazımdır?**

– İslam Həmrəyliyi Oyunlarına əvvəlcədən hazırlaşmaq bir az mürəkkəb məsələdir. Çünki bizim sabit proqramımız yoxdur. Yəni İslam Oyunlarının proqramında hansı idman növlərinin olacağı və yaxud çəki dərəcələri tələb olunan idman növlərində hansı çəkilərdə mübarizə aparılacağı əvvəlcədən müəyyən olunmur. Burada bir çox məsələlər əsasən İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edən ölkənin arzu və istəklərinə bağlıdır. Məlumdur ki, güləş idman növü ilk dəfə Bakıda İslam Həmrəyliyi Oyunlarının proqramına salındı. Ondan əvvəl heç bir İslamiadada güləş bir idman növü kimi proqramda yox idi.

Ər-Riyadda keçirilən Oyunlarda bizim üçün ənənəvi olmayan idman növlərində yarışların olması qazandığımız medalların sayına da təsir etdi. Yəni Oyunların proqramının tərtib olunmasında Təşkilat Komitəsi əsas rol oynayır və İslam Həmrəyliyi Oyunlarını keçirən ölkə özünə uyğun şəkildə bu Oyunların proqramını tərtib edir. Bu səbəbdən də biz əvvəlcədən bilmirik Malayziya Oyunlarının proqramı necə olacaq və biz hansı idman növü üzrə hazırlaşmağa başlamalıyıq.

**– Siz həm də İslam Həmrəyliyi İdman Assosiasiyasının vitse-prezidentisiniz. VI İslam Həmrəyliyi Oyunlarının ümumi təşkilatçılıq səviyyəsi Sizi qane etdimi?**

– Ümumiyyətlə, bu oyunların keçirilməsi səviyyəsi mənim gözləntilərimdən daha yüksək oldu. Yəni Oyunların təşkilatçılıq məsələləri çox yaxşı həll olunmuşdu. Oyunların keçirilməsində bir neçə amil var. Bunlar nədən ibarətdir? Birincisi, idmançılar üçün yaradılan şəraitdir. İdmançıların yaşadıqları yerlər, qidalanması, vaxtında məşqlərə, yarışlara çatdırılması, nəqliyyatın intensivliyi və yarış yerlərinin hazırlıq səviyyəsi çox vacib amillərdən biridir.

Bu baxımdan, mən deyərdim ki, Səudiyyə Ərəbistanında keçirilən birinci İslam Həmrəyliyi Oyunları ilə və İndoneziyanın ev sahibliyi etdiyi Oyunlarla müqayisədə Ər-Riyaddakı son İslamiada yaxşı təşkil olunmuşdu. Xüsusilə media nümayəndələrinə lazımi şərait yaradılmışdı. Media nümayəndələrinin vaxtında yarışların keçirildiyi məkanlara çatdırılması, arenalarda onlara informasiya hazırlamaq üçün şəraitin yaradılması çox vacib məsələlərdən biridir və bu baxımdan da normal idi. İdman obyektləri arasında olan məsafələrin çox böyük olması bir az çətinliklər də yaradırdı.

Bilirsiniz ki, Ər-Riyad 7 milyon əhalisi olan bir şəhərdir və bütün idman qurğuları da şəhərin müxtəlif zonalarında yerləşirdi. Lakin buna baxmayaraq, Təşkilat Komitəsi bu məsələnin də öhdəsindən gəldi. Ümumiyyətlə, yarışların təşkilatçılığında beynəlxalq federasiyalar bu dəfə əvvəlki Oyunlardan daha fəal iştirak edirdilər. Yarışların keçirilməsi, hakimliyi və qaydalara riayət edilməsi beynəlxalq federasiyalar tərəfindən nəzarət altında saxlanılırdı və onlar tərəfindən həyata keçirilirdi. Bu da Oyunların nəticələrinə müsbət təsir göstərmişdir. Eyni zamanda qeyd edim ki, Oyunlar vaxtı İslam Həmrəyliyi İdman Assosiasiyasının Baş Assambleyası keçirildi. Baş Assambleyadan əvvəl İcraiyyə Komitəsinin iclası oldu və bir çox məsələlər müzakirə edildi. Eyni zamanda, İslam Həmrəyliyi İdman Assosiasiyasının təkmilləşməsi, onun Nizamnaməsində dəyişikliklər edilməsi məsələlərinə baxıldı. Bildiyiniz kimi, VII İslam Həmrəyliyi Oyunları Malayziyanın Selanqor şəhərində keçiriləcək.

**– Siz il ərzində İslam Həmrəyliyi İdman Assosiasiyasının vitse-prezidenti kimi bu qurumun ali məclislərində, tədbirlərində hansı vacib qərarlarının, layihələrinin həyata keçirilməsinə rəhbərlik etmisiniz?**

– Konyada keçirilən Oyunlardan sonra növbəti İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edəcək ölkəni müəyyənləşdirmək üçün komissiya yaradılmışdı və bu komissiyanın rəhbərliyi mənə həvalə olunmuşdu. Kamerun Olimpiya Komitəsi bu Oyunlara ev sahibliyi etmək üçün ölkənin namizədliyini irəli sürmüşdü. Mənim rəhbərlik etdiyim komissiya Kamerunu ziyarət etdi, buradakı vəziyyət və hazırlıq prosesləri ilə maraqlandı. Məhz bizim komissiyanın qərarı ilə Oyunların keçirilməsinin Kameruna verilməsi təsdiq olunmadı və başqa bir yerdə keçirilməsi qərara alındı.

VI İslam Həmrəyliyi Oyunlarının Ər-Riyad şəhərində keçirilməsi məsləhət görüldü və Oyunlar orda baş tutdu. İslam Həmrəyliyi İdman Assosiasiyasında bir çox komissiyalar fəaliyyət göstərir. Sonuncu Oyunlar zamanı bu qurumun Atletlər Komissiyasının seçkiləri baş tutdu. Bu seçkilərdə Apellyasiya Komissiyasına vitse-prezident kimi mən rəhbərlik edirdim. Yeri gəlmişkən, VI İslam Həmrəyliyi Oyunlarında Təhlükəsiz İdmanla bağlı missiyanı ilk dəfə məhz Azərbaycandan gedən mütəxəssislər həyata keçirirdilər. İslam Həmrəyliyi Oyunlarının bir neçə yarışlarında da məhz Azərbaycan mütəxəssisləri ekspertlər və münsiflər kimi dəvət olunmuşdular.

**– Milli Olimpiya Komitəsi BOK, AOK və bir çox beynəlxalq idman qurumları ilə daim sıx əlaqə saxlayır. Bilmək istəyərdik ki, MOK-un beynəlxalq Olimpiya Hərəkatına inteqrasiyası prosesində hansı vacib məqamları qeyd etmək olar?**

– Hələ 1997-ci ildə cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra Azərbaycan Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələrinin qurulması, inkişaf etdirilməsi və bütün beynəlxalq idman qurumları ilə sıx əməkdaşlıq məsələləri qarşıya qoyulan ilk vəzifələrdən biri idi. Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin tapşırığı ilə o dövrdən başlayaraq MOK beynəlxalq əlaqələri əsaslı şəkildə qurmağa, genişləndirməyə başladı. Bu dövrdə cənab Prezidentin istər Avropa, istər ümumdünya idman tədbirlərində, görüşlərdə, iclaslarda şəxsən iştirakı, Azərbaycanın idman sahəsində nüfuzunun artırılmasına və beynəlxalq müstəvidə qarşılıqlı əlaqələrin genişləndirilməsinə böyük təkan verdi. Bu gün də müxtəlif beynəlxalq federasiyaların rəhbərləri Azərbaycana gələndə cənab Prezident şəxsən onları qəbul edir.

1997-ci ildə qoyulan təməl əsasında MOK beynəlxalq əlaqələrin yaradılmasında böyük inkişaf yolu keçdi. Bunun nəticəsində Azərbaycanda bu gün istənilən beynəlxalq səviyyəli yarışların, tədbirlərin keçirilməsi adi bir hal almışdır. Bu dövr ərzində Azərbaycanda təkcə beynəlxalq idman yarışları deyil, dünya idman yazarlarının konqresi, Fair Play və antidopinqlə bağlı böyük tədbirlər də keçirilib. Gələn il Sport Accord tədbiri Azərbaycanda təşkil olunacaq. Lakim mənim yadımdadır ki, ilk dövrlərdən biz hər hansı bir beynəlxalq yarışın Bakıda keçirilməsinə nail olmaq üçün müəyyən çətinlik çəkirdik.



İlk vaxtlar beynəlxalq idman qurumları ölkəmizdə idman yarışlarını keçirmək üçün etdiyimiz təkliflərə tərəddüdlə yanaşır və bəzən imtina edirdilər. 1990-cı illərin axırı–2000-ci illərin əvvəllərində belə bir şəraitdə olan Azərbaycan artıq 2015-ci ildə ilk Avropa Oyunlarına çox böyük uğurla ev sahibliyi etdi. İslam Həmrəyliyi Oyunları, Avropa Gənclər Olimpiya Festivalı və müxtəlif idman növləri üzrə Avropa, dünya çempionatları ölkəmizdə keçirildi.

Bu tədbirlər Azərbaycanın çox qısa bir müddətdə beynəlxalq idman aləmində və eyni zamanda, beynəlxalq idman qurumlarında etibarlı tərəfdaş kimi nüfuzunu daha da artırdı. Nəticədə, Azərbaycanın idman sahəsində də beynəlxalq əlaqələri çox yüksək səviyyədədir və artmaqda davam edir. Bu il ölkəmizə müxtəlif beynəlxalq idman federasiyalarının rəhbərləri, milli olimpiya komitələrinin prezidentləri və bir çox nümayəndə heyətləri səfərə gəliblər. Bu qonaqların, demək olar ki, hamısı ilə MOK-da görüşlər keçirilib. Azərbaycan həmişə bir çox beynəlxalq idman qurumlarının rəhbər strukturlarında təmsil olunur.

İndi təkcə Bakıda deyil, ölkəmizin bir sıra şəhər və rayonlarında da beynəlxalq yarışları keçirilir. Ölkəmizdə bu yaxınlarda keçirilən MDB oyunları da məhz belə yarışlardan biri idi. Bilirsiniz ki, bir neçə gün bundan əvvəl Bakı şəhəri Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası tərəfindən “Dünyanın İdman Paytaxtı” seçilib. Bu, çox təqdirəlayiq bir hadisədir və ölkəmizin dünyanın aparıcı, nüfuzlu idman dövlətlərindən biri olmasının sübutudur.

**– Milli Olimpiya Komitəsi Beynəlxalq Olimpiya Komitəsinin bərabərhüquqlu üzvü olaraq, eyni zamanda, çox maraqlı layihələr, proqramlar həyata keçirir. Bu proqramların əsas mahiyyəti nədən ibarətdir? Gələcəkdə də MOK bu fəaliyyətini davam etdirəcəkmi?**

– Azərbaycan Milli Olimpiya Komitəsi fəaliyyətə başladığı dövrdən BOK-un, AOK-un müxtəlif proqramlarında iştirak etməyə başlayıb. İndi Azərbaycan özü Beynəlxalq Olimpiya Komitəsinin İdman Həmrəyliyinə yeni proqramlarla bağlı bəzi təkliflər göndərir və bu təkliflər də qəbul olunur. MOK tərəfindən müxtəlif dövrlərdə çox böyük beynəlxalq layihələr həyata keçirilib. Olimpiya Mədəniyyəti və Təhsili Proqramı (OSEP), Azərbaycanda Olimpiya Hərəkatına həsr olunmuş foto-müsabiqə, MOK-un 30 illik yubileyi ərəfəsində “Azərbaycanın Olimpiya Odisseyası” layihəsi, İdman Filmləri və Proqramları Milli Televiziya Festivalı, xüsusilə bu il keçirilən süni intellekt və Təhlükəsiz İdman üzrə proqram həm məzmun, həm də kütləvilik baxımından çox maraqlı layihələrdir. Milli Olimpiya Komitəsi təhlükəsiz idman və məşqçilərin peşəkarlığının artırılması ilə bağlı federasiyalarla birgə seminarlar da keçirib.

**– MOK Olimpiya Hərəkatının və idmanın təbliğini də daim diqqət mərkəzində saxlayır. Bu barədə də fikirləriniz maraqlı olardı.**

– MOK-un fəaliyyəti, ölkəmizdə Olimpiya Hərəkatının genişlənməsi ilə bağlı həyata keçirilən çoxşaxəli uğurlu tədbirlər göz önündədir. Peşəkar və yüksək səviyyədə aparılan təbliğat da bu işlərə böyük təkan verir. Bu gün Milli Olimpiya Komitəsi bütün kütləvi informasiya vasitələri ilə səmimi və işgüzar əlaqələr yaradıb. Space TV-də “İdman hamı üçün” və İdman TV-də “Fəxri kürsü” televiziya proqramları Milli Olimpiya Komitəsi ilə birgə həyata keçirilən layihələrdir. Eyni zamanda, MOK-un rəsmi mətbuat orqanı olan “Olimpiya dünyası” qəzeti, olympic.az saytı və sosial media layihəsi fəaliyyət göstərir. MOK-un yubileyləri ərəfəsində Olimpiya Hərəkatı ilə bağlı ensiklopedik kitablar da çap etdirmişik. Bu sahədəki işimiz də MOK-un çoxşaxəli fəaliyyətinin tərkib hissələrindən biridir.

**– Milli Olimpiya Komitəsi sonuncu Baş Məclisində İdarə Heyətinə 5 Olimpiya çempionu da üzv seçildi. Həm də ilk dəfə olaraq 2 Olimpiya çempionu MOK-un vitse-prezidenti oldu. Sizcə, bu, hansı zərurətdən irəli gəlirdi?**

– Bir çox ölkələrdə İcraiyyə Komitəsində funksionerlər fəaliyyət göstərirlər. Lakin Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə Olimpiya Hərəkatının ən görkəmli nümayəndələri MOK-da təmsil olunurlar. Buna görə də bütün Olimpiya çempionlarımız Milli Olimpiya Komitəsinin üzvləridirlər. Onlardan 5 nəfəri MOK-un İcraiyyə Komitəsinin üzvü və bu beş nəfərdən ikisi də Milli Olimpiya Komitəsinin vitse-prezidentləridir. Çünki onlar idmançıları daha yaxşı tanıyır, onların yarışlara hazırlıq prosesini və idmançı üçün nə tələb olunduğunu hamıdan yaxşı bilirlər. Olimpiya çempionlarından başqa, İcraiyyə Komitəsinin digər üzvləri də idmançılardır, bu sahəyə bağlı olan və müxtəlif idman növlərində idmana rəhbərlik edən insanlardır.

**– Milli Olimpiya Komitəsinin təşəbbüsü və sifarişi ilə Olimpiya çempionlarımız haqqında çox maraqlı filmlər çəkilib. Bu filmlər Azərbaycanın bütün televiziya kanallarında göstərilib və bu filmlərin Qarabağ bölgəsində nümayişi nəzərdə tutulubmu? Gələcəkdə də Milli Olimpiya Komitəsinin bu sahədəki təşəbbüsü davam edəcəkmi?**

– Bəli, Milli Olimpiya Komitəsinin təşəbbüsü və sifarişi ilə, demək olar ki, bütün Olimpiya çempionlarımız haqqında film çəkilib. Bu yaxınlarda Hidayət Heydərov haqqında çəkilən film də nümayiş olunacaqdır. Azərbaycan Respublikasının Kino Agentliyi ilə MOK arasında memorandum imzalanıb. Bu memoranduma əsasən Olimpiya çempionlarımız haqqında çəkilən filmlər tanınmış idmançılar və Olimpiya çempionlarının iştirakı ilə bölgələrdə nümayiş olunacaq. Necə deyərlər, gələcək potensial qəhrəmanlar aramızdadırlar. Təbii ki, Olimpiya çempionları olduqdan sonra onlar haqqında da filmlər çəkiləcək.

**– Qarşıdan Los-Anceles 2028 Yay Olimpiya Oyunları gəlir. Artıq vaxta az qalıb. İdmançılarımızın bu Olimpiadaya hazırlığında, sizcə, daha çox nələrə nəzər yetirmək lazımdır?**

– Olimpiya Oyunları dörd ildən bir keçirilir və idmançıların bu oyunlarda iştirak etmək üçün şansları məhduddur. Çünki dünya və Avropa çempionatları tez-tez keçirildiyinə görə bir çox idmançılar bu çempionatlarda iştirak edib nəticələr göstərə bilirlər. Amma Olimpiya Oyunları dörd ildən bir keçirildiyinə görə bir idmançı əsasən maksimum 2-3 Olimpiadada iştirak edə bilir. Buna görə də Olimpiya Oyunlarına hazırlıq hər bir federasiyada xüsusi proqramlar üzrə həyata keçirilir. Los-Anceles Olimpiadasına, demək olar ki, 3 il qalır və onu nəzərə almaq lazımdır ki, bu müddətdə yeni idmançılar da meydana çıxacaq. Yəni bu gün yeniyetmə olan idmançılar üç ildən sonra artıq gənclərin və ya yaşlıların sırasında olacaq və onların hansının daha uğurlu çıxış edəcəyini indidən demək mümkün deyil. Ona görə əsas istiqamətlərdən biri də artıq yeniyetmələrdə və gənclərdə bu gün özünü göstərmiş idmançıların yaşlılar qrupuna düzgün keçidini təmin etməkdir.

Bəzən yeniyetmə dövründə yüksək nəticələr qazanan idmançılarımız sonra yaşlıların yarışlarına gedəndə həmin nəticələri göstərə bilmirlər. Məhz yaşlılar qrupuna uğurlu keçidi təmin etmək çox vacib məsələdir. İdmançılar həm də psixoloji cəhətdən hazırlıqlı olmalıdır. İdmançı özünə inanmalıdır, əmin olmalıdır ki, o, çıxıb mübarizə apardığı yarışda qalib gələ biləcək. Bizim belə nümunələrimiz çoxdur. Sidney-2000-də Namiq Abdullayev və Zemfira Meftanətdinova özlərinə əmin idilər, yəni bu yarışlara çox ciddi hazırlaşıb da əminliklə qələbə qazandılar.

Eyni sözləri Fərid Mansurov haqqında da demək olar. Elnur Məmmədli finala, yarışa getdiyi günü yazmışdı ki, mən çempion olacağam və getdi çempion oldu. Yəni bu psixoloji hazırlıq məsələləridir. Eyni fikri Hidayət haqqında da söyləmək olar. Yəni əsas məsələ fiziki hazırlıqla yanaşı, psixoloji cəhətdən qələbəyə, uğur qazanacağına inanan idmançıların hazırlanmasıdır. Əsas vəzifələrimizdən də biri idmançıların bu dövr ərzində zədələnməsinin qarşısını almaq, sağlamlıqlarını qorumaqdır.

**– Milli Olimpiya Komitəsinə şəxsi və idman həyatlarındakı problemləri ilə bağlı müxtəlif idman mütəxəssisləri, idmançılar çoxsaylı müraciətlər edirlər. Maraqlıdır ki, Olimpiya və qeyri-olimpiya idman növləri ilə məşğul olan idmançıların MOK-a səmimiyyətlə müraciət etmələrinin, inamla yanaşmalarının əsas səbəbi nədir?**

– Bunun bir neçə səbəbi var və əsas səbəb təbii ki, bütün idmançıların, idman mütəxəssislərinin Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevə olan böyük inamıdır. İdmançılar yaxşı bilirlər ki, cənab Prezident hər bir idmançının istər şəxsi həyatı, istərsə də idman həyatı ilə bağlı məsələlərə həmişə diqqət və qayğı göstərir. Bu səbəbdən də Milli Olimpiya Komitəsində rəsmi qəbul günləri yoxdur. İstənilən idmançı istənilən zaman, istənilən anda MOK-a gəlib müraciət edə bilər. Sərbəst şəkildə MOK-un rəhbərliyinə və digər əməkdaşlara etdikləri şifahi və yazılı müraciətlərə, məktublara müddət qoyulmur. Yazılı və ya şifahi müraciət etdikləri anda o məsələyə çox vaxt özlərinin iştirakı ilə dərhal baxılır. Onların müraciətləri diqqətlə dinlənilir, operativ araşdırılır və lazımi tədbirlər görülür. Bu da qarşılıqlı inamın, səmimi münasibətlərin formalaşmasına şərait yaradır.

**– Sizin təşəbbüsünüzlə İdman TV-də “Fəxri kürsü” proqramı yayımlanır. İlk verilişdə verdiyiniz müsahibədə bildirmişdiniz ki, hər bir idmançı nə vaxt fəxri kürsüdə yer alırsa, medal qazanırsa, mən özümü də həmin fəxri kürsüdə hiss edirəm. İdman zallarında məşq edən kiçik yaşlı idmançılar həm də gələcəyin potensial Olimpiya çempionlarıdır. Fəxri kürsüyə gedən yollarının daha uğurlu olması üçün ömrü uzun illər idmana bağlı olan bir insan kimi onlara nə arzulayardınız?**

– İlk növbədə, mən peşəkar şəkildə idmanla məşğul olan gənclərimizə, övladlarımıza, balalarımıza özlərinə inam, özgüvənlik arzulayıram. Çünki böyük idmançı olmaq üçün birinci növbədə, insanda güclü xarakter formalaşmalıdır. Çünki əgər bir gənc məşqlərdə yorulduğu üçün artıq idmana getmək istəmirsə, həvəsi olmursa, o böyük idmançı ola bilməz. İdmançıda qələbəyə fiziki inam, dözüm və ruh yüksəkliyi olmalıdır. Qazanılan uğurlardan arxayınlaşmamalı, daim mübarizə aparmaq əzmini qoruyub saxlamalıdır. Beynəlxalq arenalarda qazanacağı qələbələrin şərəfinə Azərbaycan bayrağının qaldırılacağı və Dövlət himninin səsləndiriləcəyi arzusu ilə yaşamalıdır.

**– Çingiz müəllim, gələn ilin fevral ayında Qış Olimpiya Oyunları və ilin sonuna yaxın Seneqalda Yeniyetmələrin Olimpiya Oyunları keçiriləcək. Bu oyunlara hazırlıqla yanaşı, 2026-cı ildə Milli Olimpiya Komitəsinin fəaliyyətində daha hansı nə yeniliklər olacaq?**

– Milli Olimpiya Komitəsinin əsas vəzifələrindən biri də ölkəni dünya Olimpiya Hərəkatında təmsil etmək və Azərbaycan idmançılarının, idman mütəxəssislərinin dünya idman sisteminə, dünya idman ictimaiyyətinə inteqrasiyası ilə məşğul olmaqdır. Milli Olimpiya Komitəsi sırf idmançı hazırlanması ilə məşğul deyil. Bu işləri federasiyalar, klublar görür. Amma federasiyaların, klubların əldə etdiyi nailiyyətləri dünyaya təqdim etmək, dünyada bunu təsdiqləmək Milli Olimpiya Komitəsinin vəzifəsidir. Biz həmişə bu sahəni genişləndirmək istəyirik. Yəni Olimpizmin inkişafı, idmançılarımızın Olimpiya, vətənpərvərlik ruhunda tərbiyə olunması bizim əsas məqsədlərimizdir.

Növbəti illərdə də biz bu missiyamızı, birbaşa vəzifəmizi daha böyük uğurla davam etdirməyə çalışacağıq. Azərbaycanı beynəlxalq Olimpiya Hərəkatında, beynəlxalq idman strukturlarında təmsil edəcəyik. Bir çox beynəlxalq yeni layihələr həyata keçirəcəyik. Bizim 2026-cı ildəki növbəti planlarımızdan biri də ölkəmizin idman jurnalistləri üçün xüsusi bir proqram hazırlamaq və Beynəlxalq Olimpiya Komitəsinin dəstəyilə Azərbaycanda peşəkar idman jurnalistlərinin hazırlanması üzrə seminarlar təşkil etməkdir.

2026-cı ildə Azərbaycanın müstəqil dövlət kimi Atlanta Yay Olimpiya Oyunlarında iştirakının 30 ili tamam olur. Yeni ildə bu yubileyi də təntənəli şəkildə qeyd edəcəyik.

*Müsahibəni qələmə aldı:*
***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 391** **11 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Pambıq qəbulu qəbzinin forması və verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 15 oktyabr tarixli 177 nömrəli Qərarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Pambıqçılıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 21 iyun tarixli 218-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 439 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Pambıq qəbulu qəbzinin forması və verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 15 oktyabr tarixli 177 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №10, maddə 908 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 392** **16 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 177-VIIQD nömrəli Qanununun tətbiqi və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 may tarixli 388 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət rüsumu haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 177-VIIQD nömrəli Qanununun tətbiqi və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 may tarixli 388 nömrəli Fərmanının 2-ci hissəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası”nın və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 avqust tarixli 295 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1433 (Cild I) aşağıdakı məzmunda 9-11-ci hissələr əlavə edilsin:

“9. “Yanacaqdoldurma və qaz təchizatı obyektlərinin quraşdırılması və istismarına ümumi lisenziya” blankının forması təsdiq edilsin *(10 nömrəli əlavə)*.

10. “Yanacaqdoldurma və qaz təchizatı obyektlərinin quraşdırılmasına xüsusi lisenziya” blankının forması təsdiq edilsin *(11 nömrəli əlavə)*.

11. “Yanacaqdoldurma və qaz təchizatı obyektlərinin istismarına xüsusi lisenziya” blankının forması təsdiq edilsin *(12 nömrəli əlavə).”*.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 6 fevral tarixli 36 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 299 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 9 oktyabr tarixli 296 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Qaz qurğularının tikintisinə, qurulmasına, istismarına və işçi vəziyyətdə saxlanmasına dair Tələblər”in 2.4-cü bəndində “təbii qaz təsərrüfatı” sözləri “qaz təchizatı” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 394** **16 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Pasportlar haqqında” və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 214-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; 2025, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli, 1 dekabr tarixli 356 nömrəli və 2 dekabr tarixli 365 nömrəli qərarları) ilə təsdiq edilmiş “Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları”ndan “Televiziya və Radio Şurasının Aparatı” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2026-cı ilin yanvar ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>**Eyyubov Yaqub Abdulla oğlu** | 5 |
| **Baş nazirin müavini**<br>**Mustafayev Şahin Abdulla oğlu** | 6 |
| **Baş nazirin müavini**<br>**Şərifov Samir Rauf oğlu** | 7 |
| **Aparatın rəhbəri**<br>**Məmmədov Rüfət Tofiq oğlu** | 8 |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>**Həsənova Sevinc Telman qızı** | 9 |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>**Rüstəmli Ruslan Rüstəm oğlu** | 30 |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>**Paşayev Zakir İlqar oğlu** | 13, 27 |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>**Qasımlı Xalid Akif oğlu** | 4 |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>**Rəhimov Niyazi Süleyman oğlu** | 15, 29 |
| **Humanitar məsələlər şöbəsinin müdiri**<br>**Həbibbəyli Ərəstü İsa oğlu** | 6 |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>**Hacızadə Elşən Mahmud oğlu** | 9 |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>**Qasımov Lətif Cəfər oğlu** | 2 |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>**Məcidov İlkin Sabir oğlu** | 2 |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>**Mustafayev Feyruz Rəvayət oğlu** | 3 |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>**Pənahov Musa Sədi oğlu** | 12, 26 |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>**Məmmədov Anar Rəhim oğlu** | 8 |

**Qeyd:** Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar
Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.
Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.
Qəbul saat 14:00-dan başlayır.
Əlaqə üçün: (012) 492-19-23, (012) 492-88-96.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 393** **16 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Xüsusi İcra Məmurlarının Reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının 2.2.2.1-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Xüsusi İcra Məmurlarının Reyestrinin aparılması Qaydaları” təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 395** **17 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimi Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 iyul tarixli 673 nömrəli Sərəncamının 3.1.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisaslar üzrə təhsil proqramlarının və təhsil səviyyələrinin seçimi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2** Bu Qərar 2025-ci il sentyabrın 15-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 396** **17 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 iyul tarixli 673 nömrəli Sərəncamının 3.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi Qaydası” təsdiq edilsin *(əlavə olunur)*.

**2** Bu Qərar 2025-ci il sentyabrın 15-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 397** **17 dekabr 2025-ci il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin yaradılması haqqında” 2025-ci il 30 iyun tarixli 425 nömrəli və “Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” 2025-ci il 29 avqust tarixli 491 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354, № 6 (II kitab), maddə 715, № 10, maddə 1167, № 11, maddə 1252; 2025, № 4 (I kitab), maddə 393, № 5, maddə 505, № 9, maddə 846) dəyişiklik təsdiq edilsin *(əlavə olunur, məxfi).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 398** **17 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Xarici texniki kəşfiyyata qarşı fəaliyyətə dair məlumat sisteminin istismarının təşkili Qaydaları”nın və “Xarici texniki kəşfiyyata qarşı fəaliyyətə dair məlumat sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi”nin təsdiq edilməsi barədə” 2020-ci il 29 yanvar tarixli 22 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə” 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli, “Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin yaradılması haqqında” 2025-ci il 30 iyun tarixli 425 nömrəli və “Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” 2025-ci il 29 avqust tarixli 491 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Xarici texniki kəşfiyyata qarşı fəaliyyətə dair məlumat sisteminin istismarının təşkili Qaydalarının və “Xarici texniki kəşfiyyata qarşı fəaliyyətə dair məlumat sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 yanvar tarixli 22 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 78 (Cild I) dəyişiklik təsdiq edilsin *(əlavə olunur, məxfi)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 402** **18 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 yanvar tarixli 914 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin Administrasiyası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 iyun tarixli 426 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319, № 4, maddə 443; 2025, № 2, maddələr 187, 201; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 356 nömrəli və 3 dekabr tarixli 370 nömrəli qərarları) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – “Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı”nın 13-cü hissəsinə “Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi,” sözlərindən sonra “Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi və onun müavini,” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026–2030-cu illər üçün DÖVLƏT PROQRAMI

### 1. Qısa xülasə

Sosial-iqtisadi inkişaf sahəsində dövlət siyasətinin prioritet istiqamətlərini gerçəkləşdirmək və əsas məqsədlərinə çatmaq üçün dövlət proqramlarının, strategiyaların, konsepsiyaların və digər strateji sənədlərin hazırlanması, onların icrasına nəzarətin həyata keçirilməsi və qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin qiymətləndirilməsi, yeni çağırışlar və artan ehtiyaclar fonunda istifadəçilərin, o cümlədən aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəsmi statistika məlumatlarına tələbatının ödənilməsi rəsmi statistikanın əsas vəzifələrindən biridir.

Bununla əlaqədar, iqtisadiyyatın ayrı-ayrı sahələrində statistik göstəricilər sisteminin, metodologiyaların hazırlanması və təkmilləşdirilməsi, müşahidələr aparılması, əldə edilən statistik məlumatların yayımı, ümumilikdə rəsmi statistika qarşısında duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası məqsədilə rəsmi statistika materialları istehsalının hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, habelə milli statistika sisteminin növbəti çoxillik dövr üzrə strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi məsələləri "Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın (bundan sonra – Dövlət Proqramı) əsasını təşkil edir.

### 2. Qlobal trendlər

BMT-nin Dayanıqlı İnkişaf Sammitində qəbul olunmuş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də statistika potensialının gücləndirilməsini öhdəlik kimi qəbul etməklə yanaşı, üzv dövlətlər Dayanıqlı İnkişaf Məqsədlərində qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin monitorinqi, müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun çevik idarəetmənin təmini üçün dəqiq və dolğun, dezaqreqasiya olunmuş rəsmi statistik məlumatları hazırlayaraq istifadəçilərə təqdim etməlidirlər. Bununla əlaqədar, BMT-nin Statistika Komissiyasının hər il keçirilən sessiyasında Dayanıqlı İnkişaf Məqsədləri üzrə göstəricilər, məqsədlərə nailolma vəziyyəti üzrə işlərin gedişatı və statistik potensialın gücləndirilməsi ilə əlaqədar mütəmadi məruzələr hazırlanaraq müzakirəyə çıxarılır, əldə olunmuş uğurlara və prioritetlərə baxılır, müvafiq qərarlar qəbul edilməklə dünya ölkələrinə bu sahədə fəaliyyətin möhkəmləndirilməsi ilə bağlı tövsiyə və çağırışlar edilir.

Rəsmi statistika məlumatlarının beynəlxalq səviyyədə müqayisəliliyinin təmin edilməsi üçün BMT və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan metodologiyaların, standartların milli səviyyədə tətbiqi və müvafiq statistik məlumatların hazırlanaraq istifadəçilərə təqdim olunması, ölkə səviyyəsində informasiya dəstəyinə ehtiyacın ödənilməsi rəsmi statistikanın davamlı təkmilləşdirilməsini zəruri edir. Bu məqsədlə milli statistika sistemi üzrə qlobal qiymətləndirmələr (auditlər) aparılır, strateji baxışlar və inkişaf istiqamətləri müəyyənləşdirilir, rəsmi statistikanın inkişafına dair milli proqramlar, strategiyalar, konsepsiyalar və s. qəbul edilərək onların icrası ilə bağlı lazımi tədbirlər görülür.

Dövlət Proqramının icrası demoqrafiya və əhali sakinliyi, milli hesablar, kənd təsərrüfatı, sənaye, nəqliyyat və turizm, işçi qüvvəsi, ev təsərrüfatlarının büdcələri, əhalinin fasiləsiz təhsildə iştirakı, əlilliyi olan şəxslərin, peşə və orta ixtisas təhsili müəssisələri məzunlarının məşğulluğu ilə əlaqədar aktual statistik məlumatların əldə olunmasını, eləcə də statistikanın yeni sahələri kimi formalaşmaqda olan yaşıl inkişaf, rəqəmsal iqtisadiyyat, mədəni və yaradıcı sənaye sahələri, elm, texnologiya və innovasiyalarla bağlı yeni göstəricilər üzrə rəsmi statistika materialları istehsalının təşkilini, inzibati məlumat mənbələrindən istifadəni genişləndirməklə respondentlərin üzərinə düşən statistik yükün azaldılmasını, eyni zamanda, beynəlxalq səviyyədə makroiqtisadi müqayisələr üçün ən mühüm beynəlxalq statistika standartı kimi qəbul olunan BMT-nin Statistika Komissiyası tərəfindən qəbul edilmiş Milli Hesablar Sisteminin son versiyasının (bundan sonra – MHS–2025) tətbiqi sahəsində tədbirlər görülməsini və beynəlxalq müqayisəliliyi təmin etməklə informasiya təminatının yüksəldilməsinə, həmçinin rəsmi statistika materialları istehsalının hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsinə, milli statistika sisteminin fəaliyyətini qiymətləndirməklə növbəti strateji inkişaf prioritetlərinin müəyyən olunmasına, ümumilikdə rəsmi statistikanın dayanıqlı inkişafına mühüm təkan verəcəkdir.

### 3. Mövcud vəziyyətin təhlili

Rəsmi statistika məlumatlarının beynəlxalq müqayisəliliyinin təmin edilməsi üçün milli statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi və dünya statistika sisteminə inteqrasiyası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə Ulu Öndərin rəhbərliyi ilə başlanılmış və sonrakı illərdə uğurla davam etdirilən islahatlar rəsmi statistikanın da inkişafına güclü təkan vermiş, statistika sisteminin hüquqi bazası yaradılmış, bu sahədə ardıcıl icra edilmiş 6 dövlət proqramı çərçivəsində milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, sahibkarların üzərinə düşən statistik yükün azaldılması, rəsmi statistika materiallarının istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, metaməlumatların işlənilməsi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm tədbirlər görülmüşdür.

İxtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən aparılmış qlobal qiymətləndirmədə xarici ekspertlər Azərbaycan Respublikasının milli statistika sistemində həyata keçirilən islahatları yüksək qiymətləndirərək onların beynəlxalq standartlara uyğun olduğunu qeyd etmiş, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (bundan sonra – DSK) "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması sahəsində ISO 9001: 2015 Keyfiyyəti İdarəetmə Sistemi"nə dair beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür.

Beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkələrin milli statistika xidmətləri ilə qarşılıqlı metodoloji-məlumat mübadiləsi davam etdirilmiş, dövlət orqanlarından (qurumlarından), fiziki və hüquqi şəxslərdən daxil olan çoxsaylı sorğular əsasında rəsmi statistika məlumatları hazırlanaraq təqdim olunmuş, istifadəçilərə informasiya dəstəyi göstərilmiş, rəsmi internet səhifəsində yayımlanmaqla yanaşı, statistik məcmuə və bülletenlər nəşr edilmiş, məlumat bazaları, o cümlədən "Azərbaycanın Statistik İnformasiya Xidməti – ASİS" və "İnzibati Məlumatların İdarə Olunması Sistemi – ADİS" yaradılaraq istifadəyə verilmişdir.

Qeyd olunanlarla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", qəbul edilmiş müxtəlif dövlət proqramlarında və strategiyalarda qarşıya qoyulmuş hədəflərə, habelə Dayanıqlı İnkişaf Məqsədlərinə nailolma vəziyyətinin statistik qiymətləndirilməsi, artan istifadəçi tələbatının qarşılanması, eləcə də beynəlxalq müqayisəliliyin təmin olunması üçün tətbiq edilən statistik metodologiya, təsnifat və digər standartlarda baş verən dəyişiklik və təkmilləşmələr rəsmi statistikanın inkişafı ilə bağlı yeni strateji hədəflərin müəyyənləşdirilməsini və reallaşdırılmasını şərtləndirir.

### 4. Dövlət Proqramının hədəf göstəriciləri

4.1. Dövlət Proqramının icrası nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

**4.1.1. Statistika müşahidələrinin təşkili və onlara dair metodologiyaların hazırlanması sahəsində:**

4.1.1.1. əmək, demoqrafiya və əhali sakinliyi, yaşıl inkişaf, rəqəmsal iqtisadiyyat, mədəni və yaradıcı sənaye sahələri, elm, texnologiya və innovasiyalar üzrə statistik göstəricilər sisteminin son beynəlxalq metodoloji tövsiyələrə uyğunlaşdırılmaqla inkişaf etdirilməsi;

4.1.1.2. işçi qüvvəsinə, əhalinin fasiləsiz təhsildə iştirakına, əlilliyi olan şəxslərin, peşə və orta ixtisas təhsili müəssisələri məzunlarının məşğulluğuna, ev təsərrüfatlarında istehsal edilən sənaye məhsullarına, ət istehsalına, sənaye müəssisələrində istehsal güclərindən istifadəyə, avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınmalarına, daxili turizmə, gəlmə və getmə turizminə, ev təsərrüfatları büdcələrinin tədqiqinə, ev təsərrüfatlarında informasiya və kommunikasiya texnologiyalarından istifadəyə dair, eləcə də ehtiyat və istifadə cədvəllərinin tərtib edilməsi üçün statistik məlumatların hazırlanması və yayılması;

4.1.1.3. MHS–2025-in Azərbaycan Respublikasında tətbiqi ilə bağlı 2030-cu ilədək nəzərdə tutulmuş tədbirlərin icrası;

**4.1.2. Rəsmi statistika materialları istehsalının hüquqi və informasiya təminatı sahəsində:**

4.1.2.1. rəsmi statistika məqsədləri üçün inzibati məlumatlardan, peyk müşahidəsi məhsullarından istifadənin genişləndirilməsi, respondentlərin üzərinə düşən statistik yükün azaldılması, statistik məqsədlər üçün çəkilən xərclərə, sərf edilən vaxta qənaət edilməsi;

4.1.2.2. rəsmi statistika məlumatlarını geoməkan (kartoqrafiya, kadastr, torpaq) məlumatları ilə əlaqələndirməklə onların dezaqreqasiya səviyyəsinin yüksəldilməsi;

4.1.2.3. sahibkarlıq subyektlərində baş verən demoqrafik proseslər (biznes demoqrafiyası) üzrə informasiya ehtiyatının yaradılması;

4.1.2.4. yeni milli "İqtisadi fəaliyyət növləri təsnifatı" əsasında məlumatların toplanılması, işlənilməsi və yayılmasının strukturlaşdırılması, reyestr və məlumat bazalarının aktuallaşdırılması;

**4.1.3. Beynəlxalq əməkdaşlıq sahəsində:**

4.1.3.1. beynəlxalq metodoloji sənədlərin hazırlanması və təkmilləşdirilməsi prosesinə Azərbaycan Respublikasının töhfəsinin artırılması;

4.1.3.2. Azərbaycan Respublikasının statistika sahəsində qabaqcıl təcrübəsinin yayılması ilə milli statistika sisteminin beynəlxalq nüfuzunun yüksəldilməsi;

4.1.3.3. beynəlxalq təşkilatların və xarici dövlətlərin aidiyyəti orqanları (qurumları) ilə statistika sahəsində təcrübə mübadiləsi, habelə təlimlər əsasında yeni biliklərin və təcrübənin əldə edilməsi, innovativ yanaşmaların ölkədə tətbiqi;

**4.1.4. Maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi sahəsində:**

4.1.4.1. informasiya-kommunikasiya texnologiyaları (bundan sonra – İKT) sistemlərinin təkmilləşdirilməsi ilə respondentlər tərəfindən statistik hesabatların tərtib olunmasına sərf edilən vaxtın azaldılması;

4.1.4.2. statistik sorğular aparılmasına cəlb olunan sayıcıların fəaliyyətinə nəzarət prosedurlarının səmərəliliyinin artırılması;

4.1.4.3. rəsmi statistika materiallarının istehsalı proseslərinin avtomatlaşdırılmasının təkmilləşdirilməsi yolu ilə onların səmərəliliyinin və məhsuldarlığının yüksəldilməsi;

4.1.4.4. yüksəkixtisaslı, müasir çağırışlara cavab verə bilən kadrların hazırlanması, rəsmi statistikada data elminin və süni intellektin tətbiqi imkanlarının genişləndirilməsi, gənclərin statistik savadlılığının və data analitikası ilə bağlı peşələrə marağının artırılması;

**4.1.5. Milli statistika sisteminin strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi sahəsində:**

4.1.5.1. milli statistika sisteminin qlobal qiymətləndirilməsinin aparılması;

4.1.5.2. statistika orqanları tərəfindən istifadəçilərə göstərilən statistik xidmətlərin keyfiyyətinin yüksəldilməsi.

### 5. Dövlət Proqramının məqsədləri

5.1. Dövlət Proqramının əsas məqsədi sosial-iqtisadi inkişaf sahəsində dövlət siyasətinin prioritetlərinə və məqsədlərinə çatmaq üçün dövlət proqramlarının, strategiyaların, konsepsiyaların və bu kimi digər strateji sənədlərin hazırlanması, onların icrasına nəzarətin həyata keçirilməsi və qarşıya qoyulmuş hədəflərə nailolma vəziyyətinin qiymətləndirilməsi ilə bağlı, habelə yeni çağırışlar və artan tələblər fonunda istifadəçilərin, o cümlədən aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəsmi statistika məlumatlarına tələbatını ödəməklə rəsmi statistikanın davamlı və dayanıqlı inkişafını təmin etməkdir. Bununla əlaqədar aşağıdakı məqsədlər qarşıya qoyulmuşdur:

5.1.1. sosial, iqtisadi və çoxsahəli statistika sahəsində statistik sorğuların təşkili, göstəricilər sistemlərinin və metodologiyaların hazırlanması və (və ya) təkmilləşdirilməsi, MHS–2025-in Azərbaycan Respublikasında tətbiqi, ölkə iqtisadiyyatının strukturunun və sahələrarası əlaqələrin təhlilinə imkan verən ehtiyat və istifadə cədvəllərinin tərtib edilməsi;

5.1.2. rəsmi statistik materialların istehsalının hüquqi və informasiya təminatının gücləndirilməsi;

5.1.3. beynəlxalq əməkdaşlığın genişləndirilməsi;

5.1.4. maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi;

5.1.5. milli statistika sisteminin strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi.

### 6. Dövlət Proqramının prioritet istiqamətləri

6.1. Dövlət Proqramı çərçivəsində Azərbaycan Respublikasında milli statistika sisteminin inkişafının təmin edilməsi üçün ümumilikdə 40, o cümlədən sosial, iqtisadi və çoxsahəli statistika sahəsində müşahidələrin təşkili və onlara dair metodologiyaların təkmilləşdirilməsi üçün 23, rəsmi statistika materiallarının istehsalının hüquqi və informasiya təminatı üçün 5, beynəlxalq əməkdaşlıq üçün 3, maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi üçün 6, milli statistika sisteminin strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi üçün 3 tədbirin icrası ilə bağlı müvafiq işlər aşağıdakı prioritet istiqamətlər üzrə həyata keçiriləcəkdir:

**6.1.1. Statistik müşahidələr və onlara dair metodologiyalar:**

**6.1.1.1. Əsaslandırma:** əmək, demoqrafiya və əhali sakinliyi, yaşıl inkişaf, rəqəmsal iqtisadiyyat, mədəni və yaradıcı sənaye sahələri, elm, texnologiya və innovasiyalar statistikasının son beynəlxalq metodoloji tövsiyələrə uyğunlaşdırılmaqla inkişaf etdirilməsi məqsədilə həmin sahələr üzrə statistik göstəricilər sistemlərinin hazırlanması, istifadəçi tələbatının ödənilməsi məqsədilə işçi qüvvəsinə, əhalinin fasiləsiz təhsildə iştirakına, əlilliyi olan şəxslərin, peşə və orta ixtisas təhsili müəssisələri məzunlarının məşğulluğuna, ət istehsalına, ev təsərrüfatlarında istehsal edilən sənaye məhsullarına, sənaye müəssisələrində istehsal güclərindən istifadəyə, avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınmalarına, daxili turizmə, gəlmə və getmə turizminə, ev təsərrüfatları büdcələrinin tədqiqinə, ev təsərrüfatlarında informasiya və kommunikasiya texnologiyalarından istifadəyə dair, eləcə də ehtiyat və istifadə cədvəllərinin tərtib edilməsi üçün statistik məlumatların hazırlanması məqsədilə seçmə statistik müayinələrin keçirilməsi, cinayətkarlıq və hüquqpozmalar statistikası üzrə rəsmi statistik məlumatların istehsalı sisteminin təkmilləşdirilməsi, MHS–2025-in Azərbaycan Respublikasında tətbiqi ilə bağlı hazırlıq işlərinin görülməsi zəruridir;

**6.1.1.2. Görüləcək tədbirlər:**

6.1.1.2.1. əmək statistikasına dair göstəricilər sisteminin təkmilləşdirilməsi;

6.1.1.2.2. ev təsərrüfatları arasında işçi qüvvəsinə dair rüblük dövriliklə seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.3. əlilliyi olan şəxslərin məşğulluğuna dair birdəfəlik seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.4. əhalinin fasiləsiz təhsildə iştirakına dair birdəfəlik seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.5. peşə və orta ixtisas təhsili müəssisələri məzunlarının məşğulluğuna dair birdəfəlik seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.6. cinayətkarlıq və hüquqpozmalara dair rəsmi statistik məlumatların istehsalı sisteminin təkmilləşdirilməsi;

6.1.1.2.7. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinə dair statistik göstəricilər sisteminin təkmilləşdirilməsi;

6.1.1.2.8. MHS–2025-in Azərbaycan Respublikasında tətbiqi ilə bağlı hazırlıq işlərinin görülməsi;

6.1.1.2.9. 2026-cı il üzrə ehtiyat və istifadə cədvəllərinin tərtib edilməsi üçün birdəfəlik seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.10. mal-qaranın çəki artımına, ət çıxımına dair birdəfəlik seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.11. ev təsərrüfatlarında istehsal edilən sənaye məhsullarına dair birdəfəlik seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.12. sənaye müəssisələrində istehsal güclərindən istifadəyə dair seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.13. avtomobil nəqliyyatı ilə yük daşınmalarına dair birdəfəlik seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.14. avtomobil nəqliyyatı ilə sərnişin daşınmalarına dair birdəfəlik seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.15. daxili turizmə dair rüblük dövriliklə seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.16. gəlmə turizminə dair aylıq dövriliklə seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.17. getmə turizminə dair rüblük dövriliklə seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.18. ev təsərrüfatları büdcələrinin tədqiqinə dair rüblük dövriliklə seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.19. yaşıl inkişafa dair statistik göstəricilər sisteminin təkmilləşdirilməsi;

6.1.1.2.20. rəqəmsal iqtisadiyyata dair statistik göstəricilər sisteminin hazırlanması;

6.1.1.2.21. ev təsərrüfatlarında informasiya və kommunikasiya texnologiyalarından istifadəyə dair illik dövriliklə seçmə statistik müayinənin keçirilməsi;

6.1.1.2.22. mədəni və yaradıcı sənaye sahələri üzrə statistik göstəricilər sisteminin hazırlanması;

6.1.1.2.23. elm, texnologiya və innovasiyalar statistikasına dair göstəricilər sisteminin hazırlanması;

**6.1.1.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.1.3.1. əmək, demoqrafiya və əhali sakinliyi, yaşıl inkişaf üzrə statistik göstəricilər sistemləri təkmilləşdiriləcək, rəqəmsal iqtisadiyyat, mədəni və yaradıcı sənaye sahələri, elm, texnologiya və innovasiyalar üzrə statistik göstəricilər sistemləri hazırlanacaqdır;

6.1.1.3.2. işçi qüvvəsinə, əhalinin fasiləsiz təhsildə iştirakına, əlilliyi olan şəxslərin, peşə və orta ixtisas təhsili müəssisələri məzunlarının məşğulluğuna, ət istehsalına, ev təsərrüfatlarında istehsal edilən sənaye məhsullarına, sənaye müəssisələrində istehsal güclərindən istifadəyə, avtomobil nəqliyyatı ilə yük və sərnişin daşınmalarına, daxili turizmə, gəlmə və getmə turizminə, ev təsərrüfatları büdcələrinin tədqiqinə, ev təsərrüfatlarında informasiya və kommunikasiya texnologiyalarından istifadəyə dair, eləcə də ehtiyat və istifadə cədvəllərinin tərtib edilməsi üçün statistik məlumatların hazırlanması və yayılması təmin olunacaqdır;

6.1.1.3.3. cinayətkarlıq və hüquqpozmalara dair rəsmi statistika hesabatlarının sayı optimallaşdırılacaqdır;

6.1.1.3.4. MHS–2025-in Azərbaycan Respublikasında tətbiqi ilə bağlı fəaliyyət planı hazırlanacaq və 2030-cu ilədək nəzərdə tutulmuş tədbirlər icra olunacaqdır;

**6.1.1.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.1.4.1. tədbirlərin icrası zamanı beynəlxalq metodologiyalarda baş verə biləcək dəyişikliklər səbəbindən bəzi layihələrin hazırlanaraq razılaşdırılması prosesində müəyyən gecikmələr baş verə bilər. Bununla əlaqədar, zərurət olduqda, müvafiq işçi qrupların yaradılması təmin ediləcəkdir;

**6.1.2. Rəsmi statistika istehsalının hüquqi və informasiya təminatı:**

**6.1.2.1. Əsaslandırma:** respondentlərin üzərinə düşən məlumat yükünün azaldılması, rəsmi statistika məqsədləri üçün çəkilən xərclərə, sərf edilən vaxta qənaət edilməsi məqsədilə inzibati məlumatlardan, peyk müşahidəsi məhsullarından və Ünvan Reyestri İnformasiya Sistemindən istifadənin genişləndirilməsi, "Biznes demoqrafiyası"na dair informasiya ehtiyatının yaradılması zəruridir;

**6.1.2.2. Görüləcək tədbirlər:**

6.1.2.2.1. rəsmi statistika məlumatlarının istehsalı üçün tələb olunan və dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, publik hüquqi şəxslərin sərəncamında olan məlumat bazalarından istifadə ilə bağlı qaydaların müəyyən edilməsi;

6.1.2.2.2. rəsmi statistik məlumatların hazırlanmasında peyk müşahidəsi məhsullarından istifadənin genişləndirilməsi;

6.1.2.2.3. Ünvan Reyestri İnformasiya Sistemindən rəsmi statistika məqsədləri üçün istifadənin təmin edilməsi;

6.1.2.2.4. "Biznes demoqrafiyası"na dair informasiya ehtiyatının yaradılması;

6.1.2.2.5. Avropa İttifaqının "Statistical classification of economic activities in the European Community (NACE Revision 2.1)" təsnifatı əsasında yeni milli "İqtisadi fəaliyyət növləri təsnifatı"nın hazırlanması və tətbiqi;

**6.1.2.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.2.3.1. rəsmi statistika məqsədləri üçün inzibati məlumatlardan istifadə genişlənəcək, respondentlərin üzərinə düşən məlumat yükü azaldılacaq, rəsmi statistika məqsədləri üçün çəkilən xərclərə, sərf edilən vaxta qənaət ediləcəkdir;

6.1.2.3.2. rəsmi statistika məqsədləri üçün peyk müşahidəsi məhsullarından istifadəni genişləndirməklə rəsmi statistika materiallarının istehsalı prosesinin operativliyi və səmərəliliyi artırılacaqdır;

6.1.2.3.3. rəsmi statistika məlumatlarının geoməkan (kartoqrafiya, kadastr, torpaq) məlumatları ilə əlaqələndirilməsi onların dezaqreqasiya səviyyəsini yüksəldəcəkdir;

6.1.2.3.4. biznes demoqrafiyası sahəsində dinamikanın izlənilməsi və istifadəçilərin təhlil imkanlarının genişləndirilməsi məqsədilə informasiya ehtiyatı yaradılacaqdır;

6.1.2.3.5. yeni milli "İqtisadi fəaliyyət növləri təsnifatı" əsasında məlumatların toplanılması, işlənilməsi və yayılmasının strukturlaşdırılması, reyestr və məlumat bazalarının aktuallaşdırılması təmin ediləcəkdir;

**6.1.2.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.2.4.1. peyk müşahidəsi məhsullarından statistik məqsədlər üçün istifadə rəsmi statistikanın nisbətən yeni istiqaməti olduğu üçün bu yolla əldə edilən məlumatlarla ənənəvi, o cümlədən inzibati məlumat mənbələrindəki məlumatlar arasında əhəmiyyətli fərqlər yarana bilər ki, bu da əlavə araşdırmalara ehtiyac baxımından bəzi tədbirlərin icrasında gecikmələrə səbəb ola bilər. Bununla əlaqədar, zərurət olduqda, müvafiq işçi qrupların yaradılması nəzərdə tutulur;

**6.1.3. Beynəlxalq əməkdaşlıq:**

**6.1.3.1. Əsaslandırma:** statistika sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının milli statistika sisteminin inkişaf etdirilməsi və qabaqcıl təcrübəsinin yayılması sayəsində beynəlxalq nüfuzunun daha da artırılmasını təmin edəcəkdir;

**6.1.3.2. Görüləcək tədbirlər:**

6.1.3.2.1. statistika sahəsində beynəlxalq ekspert və işçi qruplarının fəaliyyətində DSK mütəxəssislərinin iştirakının təmin olunması;

6.1.3.2.2. beynəlxalq təşkilatlarla statistika sahəsində əməkdaşlığın davam etdirilməsi;

6.1.3.2.3. xarici dövlətlərlə statistika sahəsində ikitərəfli əlaqələrin inkişaf etdirilməsi;

**6.1.3.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.3.3.1. statistika sahəsində beynəlxalq ekspert və işçi qruplarının fəaliyyətində DSK mütəxəssislərinin iştirakı təmin olunmaqla statistika sahəsində beynəlxalq metodoloji sənədlərin hazırlanmasına və təkmilləşdirilməsinə töhfə veriləcək, Azərbaycan Respublikasının milli statistika sisteminin beynəlxalq nüfuzu daha da artacaqdır;

6.1.3.3.2. beynəlxalq təşkilatlar tərəfindən təşkil olunan tədbirlərdə (konfrans, seminar və s.) DSK əməkdaşlarının iştirakı təmin olunacaq və qazanılmış bilik və təcrübə əsasında milli statistika sistemi inkişaf etdiriləcəkdir;

6.1.3.3.3. ikitərəfli əlaqələr, o cümlədən qarşılıqlı səfərlər vasitəsilə qabaqcıl statistika qurumları ilə təcrübə mübadiləsi və təlimlər təşkil ediləcək, qazanılmış bilik və təcrübə əsasında innovativ yanaşmaların ölkədə tətbiqinə nail olunacaqdır;

**6.1.3.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

6.1.3.4.1. müxtəlif səbəblərdən qarşılıqlı səfərlərin baş tutmaması müşahidə oluna bilər ki, bu zaman müasir informasiya texnologiyalarından istifadə etməklə, mümkün olduğu təqdirdə, onlayn təmasların, videokonfransların təşkili təmin ediləcəkdir;

**6.1.4. Maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi:**

**6.1.4.1. Əsaslandırma:** milli statistika sisteminin inkişafının təmin edilməsi üçün DSK-nın artan tələblərə uyğun maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi zəruridir;

**6.1.4.2. Görüləcək tədbirlər:**

6.1.4.2.1. "Rəsmi statistika hesabatlarının elektron təqdimatı" informasiya sisteminin yenilənməsi;

6.1.4.2.2. statistik sorğuların aparılmasına cəlb olunan sayıcıların fəaliyyətinə dair elektron nəzarət sisteminin yaradılması;

6.1.4.2.3. DSK-da rəsmi statistika materiallarının istehsalı üçün istifadə olunan proqram təminatının, məlumat bazalarının və digər informasiya sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirilmənin və kənar auditin aparılması;

6.1.4.2.4. DSK-nın İKT infrastrukturunun yenilənməsi;

6.1.4.2.5. rəsmi statistikada data elminin və süni intellektin tətbiqi imkanlarının genişləndirilməsi məqsədilə DSK əməkdaşlarının müvafiq təlimlərə cəlb olunması, onların bilik və bacarıqlarının artırılması;

6.1.4.2.6. yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında statistika üzrə olimpiada keçirilməsi;

**6.1.4.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.1.4.3.1. statistika hesabatlarının təqdim edilməsi prosesini statistik vahidlər üçün daha da asanlaşdırmaqla hesabatların tərtibinə sərf edilən vaxt azaldılacaqdır;

*(ardı 12-ci səhifədə)*

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak edib və buraya köçən sakinlərlə görüşüblər. Dövlət başçısı çıxışında bildirib ki, təkcə Ağdamda deyil, bütün azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri gedir, “Böyük Qayıdış” Proqramı uğurla icra edilir. Ağdam rayonunda isə artıq bir neçə önəmli infrastruktur və mədəniyyət ocaqları istismara verilib.**

# Ağdam ölkənin 4-cü sənaye şəhərinə çevrilir



Ölkə başçısı onu da xatırladıb ki, rayonda nəqliyyatla bağlı məsələlər həll olunur: “Birinci layihə Bərdə–Ağdam avtomobil yolu, Bərdə–Ağdam dəmir yolu olmuşdur. Dəmiryol vağzalı istismara verilmişdir. Hazırda biz vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Ağdam–Xankəndi dəmir yolunun inşası ilə məşğuluq”.

Qeyd edək ki, Ağdam rayonu Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma işlərinin ən uğurlu nümunələrindən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı layihələr çərçivəsində bir sıra tarixi, mədəni və ictimai obyektlər bərpa olunub və istifadəyə verilib.

Ən diqqətçəkən nailiyyətlərdən biri Ağdam Cümə məscidinin bərpasıdır. Bu məscid regionda dini və tarixi irsin qorunması baxımından xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, tamamilə dağıdılmış Qiyaslı məscidi də yenidən açılıb. Hər iki Məscidin bərpası işğal dövründə müsəlmanlara qarşı edilən təhqirlərin aradan qaldırılması baxımından zəruri idi. Bundan başqa, rayonda su təchizatı məsələləri də həllini tapıb. Xaçınçay su anbarı yenidən qurulub, suvarma işləri təmin olunub. Mədəni irsin bərpası sahəsində də mühüm işlər görülüb.

Erməni vandalizmi nəticəsində dağıdılıb talan edilmiş tarixi-memarlıq abidələri də yenidən öz görkəminə qayıdır. Ağdamda yerləşən tarixi “İmarət” kompleksi tamamilə bərpa edilib, Natəvanın ermənilər tərəfindən dağıdılmış heykəlinin eynisi qoyulub. Eyni zamanda, bölgədə müasir təhsil və mədəniyyət infrastrukturu yaradılıb. İstifadəyə verilmiş məktəb geniş imkanlara malikdir, həmçinin Muğam mərkəzi, iki mehmanxana və digər sosial obyektlər fəaliyyət göstərir.

Yeri gəlmişkən, Ağdam rayonunda nəqliyyatla bağlı məsələlərə də böyük diqqət göstərilir. Bərdə–Ağdam avtomobil yolu Qarabağ bölgəsində nəqliyyat infrastrukturunun əsas obyektlərindən biridir. Avtomobil yolunun təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. 24 dekabr 2023-cü ildə isə dövlət başçısı avtomobil yolunun açılışında iştirak edib. Bu yol regionlararası nəqliyyat əlaqələrinin yaxşılaşdırılmasına, iqtisadi və sosial fəallığın artmasına, eləcə də Ağdam Sənaye Parkının səmərəli fəaliyyətinin təmin olunmasına xidmət edir.

Başlanğıcını Bərdə şəhərindən götürən avtomobil yolunun uzunluğu 44,5 kilometrdir. Avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun inşa edilib. Bərdə–Ağdam avtomobil yolunun 25-ci və 40-cı kilometrlik hissələrində 91,3 metr və 18,2 metr uzunluğunda avtomobil körpülərinin, yolun 14-cü və 42-ci kilometrlik hissələrində isə 66 metr və 43 metr uzunluğunda yol qovşaqlarının və 4-cü, 14-cü və 16-cı kilometrlik hissələrində yerüstü piyada keçidlərinin tikintisi uğurla icra olunub. Nəqliyyat vasitələrinin normal hərəkətinin təşkili üçün yolboyu üfüqi nişanlanma xətlərinin çəkilişi, yol nişanlarının və məsafə göstəricilərinin, həmçinin müasir məlumat-verici lövhələrin quraşdırılması işləri icra olunmaqla yol beynəlxalq standartlar çərçivəsində istifadəyə verilib.

Qeyd edək ki, Bərdə–Ağdam avtomobil yolunun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə, yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən həmin rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

Xatırladaq ki, bu ilin may ayında Ağdam rayonunda Böyük Qayıdışa daha bir mühüm töhfə verildi. Prezident İlham Əliyevin iştirakı ilə Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı baş tutdu. Bu kompleks regionda nəqliyyat infrastrukturunun inkişafında xüsusi əhəmiyyət daşıyır.

Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi Bərdə–Ağdam dəmir yolu xətti layihəsinin ikinci mərhələsi çərçivəsində inşa olunub. Təxminən 8 hektar ərazini əhatə edən kompleksdə gözləmə zalları, bilet kassaları, mağazalar, restoranlar, istirahət və əyləncə zonaları yaradılıb. Sərnişinlərin qatar perronuna və avtobus dayanacaqlarına rahat keçidi təmin edilib.

Kompleksdə servis binaları, sərnişin platformaları, müxtəlif tutumlu avtodayanacaqlar, avtobus perronları, velosiped dayanacaqları və elektromobillər üçün elektrikdoldurma məntəqələri mövcuddur. Azərbaycanda ilk qapalı dəmir yolu platforması da məhz bu kompleksdə inşa olunub.

Dəmir yolu vağzalı gündəlik 800–1000, avtovağzal isə 1300–1500 sərnişinə xidmət göstərmək gücündədir. Həmçinin kompleks vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərir. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi Qarabağ iqtisadi rayonunda ictimai nəqliyyatın əlçatanlığını artırır, rayonun sosial-iqtisadi dirçəlişinə və Azərbaycanın nəqliyyat-logistika potensialının genişlənməsinə mühüm töhfə verir.







Ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurda icra olunan Bərdə–Ağdam və Horadiz–Ağbənd dəmir yolu layihələri işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafına mühüm töhfə verəcək. Bu yeni dəmir yolu xətləri sərnişinlərin, eləcə də sənaye və kənd təsərrüfatı məhsullarının daha operativ və iqtisadi baxımdan səmərəli daşınmasını təmin edərək regionun logistik imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək.

*Musa BAĞIRLI*
*XQ*

# Azərbaycan regional sabitliyin aparıcı ölkəsidir

## *Overçuk isə ölkəmizin qlobal logistik mərkəz olduğunu söyləyib*

**Rusiya Azərbaycan ərazisindən keçməklə Ermənistana daşınan yüklərin çeşidini genişləndirməyin mümkünlüyünü nəzərdən keçirir. Rusiya Federasiyası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri Aleksey Overçuk bunu “Rossiya 24” televiziya kanalına müsahibəsində bildirib.**



O qeyd edib ki, taxıldan əlavə, gübrə tədarükü, eləcə də Ermənistandan Rusiyaya geri yük daşımalarının təşkili müzakirə olunur: “Mühüm hadisə baş verdi, biz bunu həqiqətən əhəmiyyətli hesab edirik: Rusiya taxılını daşıyan ilk qatar Azərbaycan və Gürcüstandan keçərək Ermənistana getdi. Yəni, 30 ildən çox müddətdə – Ermənistan və Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən bəri ilk dəfə olaraq taxıl daşıyan qatar keçdi. Daha sonra Qazaxıstan taxılı daşındı. Hazırda bu nəqliyyat dəhlizindən mineral gübrələr də daxil olmaqla digər növ yüklərin daşınması üçün istifadə imkanları araşdırılır”.

Overçuk, həmçinin bu yaxınlarda Azərbaycandan Ermənistana neft məhsulları daşıyan qatarın göndərildiyini xatırladıb. Qeyd edib ki, Moskva və İrəvan, eyni zamanda, əks istiqamətdə – Azərbaycan vasitəsilə Ermənistandan Rusiyaya daşımaların təşkili imkanlarını müzakirə edirlər. Baş nazirin müavininin sözlərinə görə, bu cür addımlar yaxın vaxtlara qədər az inandırıcı idi, lakin indi praktik məzmun kəsb etməyə başlayır.

Qeyd edək ki, Rusiya buğdası 2025-ci il noyabrın 5-də axşam, Qazaxıstan buğdası isə noyabrın 8-də Ermənistan–Gürcüstan sərhədindəki “Ayrum” dəmir yolu stansiyasına yetişib. Bunlar Rusiyadan Azərbaycan ərazisi vasitəsilə Gürcüstana, daha sonra isə Ermənistana 35 il ərzində ilk birbaşa dəmir yolu daşımaları idi. Yeri gəlmişkən, onu da bildirək ki, Qazaxıstandan gələn buğda da Rusiya ərazisindən tranzitlə keçib. Dekabrın 18-də isə 2 yanacaq çəninə yüklənmiş 1220 ton Azərbaycan istehsalı Aİ-95 markalı benzin Ermənistana çatdırıldı.

Bu məsələ ilə bağlı bildirmək lazımdır ki, son aylarda regionda baş verən nəqliyyat və logistika prosesləri Cənubi Qafqazın uzun illər bloklanmış iqtisadi-siyasi xəritəsində ciddi dəyişikliklərin başlandığını göstərir. Rusiya Baş nazirinin müavini A.Overçukun Azərbaycan ərazisindən keçməklə Ermənistana daşınan yüklərin çeşidinin genişləndirilməsi ilə bağlı açıqlaması təkcə texniki-logistik məsələ deyil, eyni zamanda, yeni regional davranış modelinin formalaşdığını göstərən mühüm siyasi siqnaldır. 30 ildən çox müddətdə mümkünsüz hesab edilən bir prosesin, yəni Rusiyadan Azərbaycan və Gürcüstan üzərindən Ermənistana birbaşa dəmir yolu daşımalarının reallaşması regionda psixoloji baryerlərin də qırılmağa başladığını sübut edir. Rus və qazax buğdasını daşıyan qatarların bu marşrutla hərəkəti, ardınca mineral gübrələrin daşınmasının gündəmə gəlməsi və nəhayət, Azərbaycandan Ermənistana neft məhsullarının göndərilməsi faktiki olaraq yeni iqtisadi normaların əsasını qoyur.

Bu prosesdə diqqətçəkən əsas məqam ondan ibarətdir ki, Azərbaycan bütün mərhələlərdə etibarlı, praqmatik və məsuliyyətli tranzit ölkə kimi çıxış edir. İllərlə işğal, münaqişə və düşmənçilik ritorikası fonunda belə, Bakı real siyasəti emosiyalardan üstün tutaraq regional inteqrasiyanı prioritet seçdiyini praktik addımlarla nümayiş etdirir. Ölkəmizin ərazisindən keçən bu yüklər yalnız iqtisadi mallar deyil, həm də qarşılıqlı etimadın daşıyıcısına çevrilir. Rusiya taxılının, Qazaxıstan buğdasının və Azərbaycan istehsalı olan Aİ-95 markalı benzinin Ermənistan bazarına çatdırılması onu göstərir ki, regionda kommunikasiya xətləri artıq geopolitik təzyiq alətindən daha çox iqtisadi əməkdaşlıq vasitəsinə çevrilir. Xüsusilə dekabrın 18-də Azərbaycandan Ermənistana göndərilən 1220 ton benzin simvolik məna daşıyır. Bu, münaqişədən sonrakı dövrdə real iqtisadi qarşılıqlı asılılığın formalaşa biləcəyini göstərən praktik nümunədir.

A.Overçukun əks istiqamətdə – Ermənistandan Rusiyaya Azərbaycan ərazisi vasitəsilə yük daşımalarının təşkili imkanlarının müzakirə edildiyini deməsi prosesin birtərəfli olmadığını təsdiqləyir. Bu isə Azərbaycanın yalnız tranzit ölkə kimi deyil, regional logistik mərkəz kimi mövqeyini daha da möhkəmləndirir. Bakı faktiki olaraq Şimal–Cənub və Şərq–Qərb xətlərinin kəsişməsində yerləşən strateji qovşaq rolunu praktik reallığa çevirir.

Məsələnin digər vacib tərəfi onun sülh gündəliyinə verdiyi töhfədir. Nəqliyyat marşrutlarının açılması, qarşılıqlı yük daşımalarının başlaması tərəfləri obyektiv şəkildə sabitliyə maraqlı edir. İqtisadi maraq siyasi ritorikadan daha güclü motivatora çevrilir. Bu baxımdan, Azərbaycan ərazisindən keçən dəmir yolu xətləri təkcə taxıl vaqonları və benzin çənləri deyil, həm də münaqişədən sonra qurulan yeni münasibət modelini daşıyır. Hazırkı xətt üzrə formalaşan praktiki əməkdaşlıq qarşıdurma ritorikasını tədricən mənasızlaşdırır və gündəlik ehtiyacların siyasətdən üstün olduğunu göstərir. Nəqliyyat təhlükəsizliyi təmin edildikcə, tərəflər arasında etimadın ciddi əsasları yaranır. Region ölkələri anlayır ki, sabitlik pozulduğu anda ilk zərbə məhz ticarətə və sosial rifaha dəyir. Bu reallıq sülhü mücərrəd anlayışdan konkret iqtisadi marağa çevirir. Azərbaycan isə bu prosesdə rasional davranışı ilə sülhün logistikasını quran əsas platforma rolunu möhkəmləndirir.

Onu da qeyd edək ki, rəsmi Bakının bu prosesdə heç bir siyasi şərt irəli sürmədən, beynəlxalq hüquqa və suverenliyə hörmət əsasında hərəkət etməsi ölkəmizin regional liderlik iddiasını sözlə deyil, əməldə sübut etdiyini göstərir. Rəsmi Bakı göstərir ki, sülh yalnız bəyanatlarla deyil, gündəlik iqtisadi qərarlarla möhkəmlənir. Bu yanaşma həm region ölkələri, həm də kənar güclər üçün aydın mesajdır: Cənubi Qafqazda dayanıqlı sabitliyin açarı məhz əməkdaşlıqdır. Beləliklə, Rusiya–Ermənistan yük daşımalarının Azərbaycan ərazisindən keçməklə genişlənməsi bir logistika xəbəri olmaqdan çıxaraq regionun gələcək arxitekturasını formalaşdıran siyasi-iqtisadi prosesə çevrilir. Bu prosesdə əsas qazanan tərəf isə məsuliyyətli davranışı, coğrafi üstünlüyü və rasional siyasəti ilə Azərbaycan olur.

**Politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, bu nəqliyyat



marşrutlarının bərpası region üçün yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin yaranmasına xidmət edir. Onun sözlərinə görə, ölkəmiz burada açar ölkə rolunu oynayır: “Azərbaycan bununla göstərir ki, tranzit imkanları yalnız iqtisadi gəlir mənbəyi deyil, eyni zamanda, siyasi etimad alətidir. Rusiya və Ermənistan arasında yüklərin Azərbaycan ərazisindən daşınması tərəfləri sabitliyə daha çox maraqlı edir, çünki istənilən gərginlik birbaşa iqtisadi itkilərə çevrilə bilər. Xüsusilə diqqətəlayiq məqam ondan ibarətdir ki, Azərbaycan bu prosesdə neytral, lakin təşəbbüskar mövqe tutur. Heç bir təzyiq dili, heç bir şərt siyasəti yoxdur. Bu isə Azərbaycanın regional sülh modelinin mahiyyətini göstərir: qarşılıqlı fayda üzərində qurulan əməkdaşlıq. Ermənistan üçün bu marşrut alternativsizdir, Rusiya üçün isə etibarlı və qısa yoldur. Bu reallıq Azərbaycanın geosiyasi çəkisini daha da artırır”.

Ekspert onu da qeyd etdi ki, uzunmüddətli perspektivdə bu cür daşımalar regionda eskalasiya ehtimalını minimuma endirən iqtisadi bağlar yaradır. Sülh məhz bu cür praktik mexanizmlər üzərindən möhkəmlənir və Azərbaycan bu mexanizmin mərkəzində dayanır.

*Səxavət HƏMİD*
*XQ*

# 2 əsrlik Bakı sirki yenidən səhnəyə qayıdıb

**İki illik fasilədən sonra Bakı Dövlət Sirki yenidən genişmiqyaslı və rəngarəng şou proqramı ilə tamaşaçıların görüşünə gəlib. İki əsrdən artıq tarixi olan sirk sənətinin bugünkü inkişaf mərhələsini, zəngin repertuarını, beynəlxalq əməkdaşlıqları daha yaxından öyrənmək məqsədilə Bakı Dövlət Sirkinin direktor müavini Nahid Ağayevlə həmsöhbət olduq.**

**– Nahid bəy, Bakı Dövlət Sirkinin bugünkü inkişaf mərhələsini necə xarakterizə edirsiniz?**

– Bakı Dövlət Sirkinin inkişaf konsepsiyası ənənələrin qorunması və müasir tamaşaçı auditoriyasının tələblərinə uyğun yeni proqramların hazırlanması prinsipi üzərində qurulub. Əsas məqsəd klassik sirk elementlərini saxlamaqla məzmun baxımından zəngin tamaşalar təqdim etməkdir. Bu gün Bakı Dövlət Sirkində müxtəlif tematik proqramlar, milli bayramlara və mövsümi tədbirlərə uyğun xüsusi ssenarilər hazırlanır. Yeni ilə həsr olunmuş "Yeni il karvanı" proqramı da bu yanaşmanın ən xarakterik nümunələrindəndir.

İnkişaf konsepsiyası innovativ yanaşmaları da əhatə edir. Xarici ölkələrin peşəkar truppaları ilə əməkdaşlıq edilir, müasir sirk texnologiyalarından istifadə olunur, sosialyönümlü layihələr həyata keçirilir. Eyni zamanda, sosial media üzərindən kommunikasiya gücləndirilir, proqramlar və tədbirlər barədə operativ məlumatlandırma təmin olunur. Bakı Dövlət Sirki klassik dəyərlərə sadiq qalmaqla müasir mədəni tələblərə cavab verən, bütün yaş qruplarına ünvanlanan sirk tamaşaları ilə fəaliyyətini davam etdirir.

**– Müasir mədəni mühitdə sirkin peşəkar əyləncə kimi mövqeyini necə qorumaq olar?**

– Yaradıcı transformasiyaya açıq və zamanın tələblərinə uyğun çevik yanaşma zəruridir. Tamaşaçı auditoriyasının estetik gözləntiləri dəyişib, müasir tamaşaçı vizual zənginlik, texnoloji effektlər və dinamik təqdimatlara üstünlük verir.

Kino, rəqəmsal platformalar və digər vizual kontent formaları fonunda sirk yalnız yeni ideyalar və müasir təqdimat formatları hesabına öz mövqeyini gücləndirə bilər. Dayanıqlı inkişaf üçün peşəkar kadr potensialının formalaşdırılması xüsusi əhəmiyyət daşıyır. Rejissor, səhnə texniki, işıqlandırma üzrə mütəxəssis, proqram prodüseri, marketinq və PR mütəxəssislərindən ibarət peşəkar baza yaradılmalı, kadr hazırlığı məqsədyönlü şəkildə aparılmalıdır.

Müasir texnologiyalardan istifadə də əsas prioritetlərdəndir. İşıqlandırma sistemləri, multimedia effektləri və interaktiv səhnə həlləri tamaşaçı ilə emosional əlaqənin gücləndirilməsi və rəqabətədavamlı kontentin formalaşdırılması üçün vacibdir.

Beynəlxalq əməkdaşlıq isə sirk sənətinin inkişafına əlavə impuls verir. Xarici truppaların dəvəti, beynəlxalq festivallarda iştirak və təcrübə mübadiləsi yeni trendlərin mənimsənilməsi və yaradıcı imkanların genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

**– Bakı Dövlət Sirki öz tamaşaçı auditoriyasını dəyişən zövqlərə necə uyğunlaşdırır?**

– Bu zəruri uyğunlaşma üçün çevik və çoxşaxəli proqramlaşdırma modeli tətbiq edirik. Artıq müasir auditoriya üçün klassik sirk nömrələrinin nümayişi kifayət etmir. Vizual təqdimatın, səhnə həllərinin və teatral elementlərin rolu məqsədyönlü şəkildə artırılıb, proqramlar hekayə xətti üzərində qurulan dramaturji struktura keçirilib.

Teatrallaşdırılmış tematik proqramlar - Yeni il, Novruz və digər mövsümi və milli bayramlara həsr olunmuş hekayə əsaslı tamaşalar müasir tamaşaçı üçün xüsusi maraq doğurur.

Yüksək zövqlü proqramlarda iriölçülü LED ekran dekorasiyaları, multimedia effektləri və dinamik səhnə quruluşları tətbiq olunur. Səhnə dizaynı artıq yalnız dekorativ funksiya daşımır, hekayənin məntiqi axarını tamamlayan əsas bədii vasitəyə çevrilir. Müasir tamaşaçı qlobal informasiya mühitində yaşayır və dünya üzrə təqdim olunan kontentə dərhal çıxış imkanına malikdir. Bu auditoriyanın diqqətini



cəlb etmək üçün sirk tamaşaları həm məzmun, həm də texnoloji baxımdan yüksək səviyyədə hazırlanmalıdır. Bakı Dövlət Sirki proqramlarını bu reallığa uyğun şəkildə mütəmadi yeniləyir, müasir trendləri izləyir və dəyişən estetik gözləntilərə cavab verən kontent istehsalını prioritet kimi müəyyənləşdirir.

**– Repertuar necə formalaşdırılır, seçim zamanı hansı meyarlar əsas götürülür?**

– Sirkin repertuar siyasəti strateji planlaşdırma prinsipi üzərində qurulur və uzunmüddətli proqramlaşdırma tələb edir. Sirk fəaliyyətinin qastrol mexanizmi ilə sıx bağlı olması repertuarın ən azı bir il əvvəl planlaşdırılmasını zəruri edir. Bu çərçivədə mövsümlər və tematik mövzular üzrə proqramların tərkibi müəyyənləşdirilir, dəvət olunacaq artistlərlə danışıqlar aparılır və müqavilələr bağlanır. Repertuarın formalaşdırılması peşəkar yaradıcı heyət tərəfindən vahid plan əsasında həyata keçirilir.

Proqramların seçimində mədəni və estetik meyarlar əsas götürülür. İl ərzində təqdim olunan proqramların böyük hissəsi mövsümi və bayram tematikasına uyğun hazırlanır ki, bu da tamaşaçı marağını təmin edir və milli dəyərlərin təqdimatına xidmət göstərir. Repertuar seçimində əsas meyarlarından biri tamaşaçı auditoriyasının maraqlarının nəzərə alınmasıdır. Uşaqlar üçün interaktiv, nağıl elementləri ilə zəngin nömrələrin yer aldığı proqramlar, gənclər üçün isə dinamik attraksionlar, hava nömrələri və janqlor çıxışları üstünlük təşkil edir. Bu yanaşma müxtəlif yaş qrupları üçün cəlbedici və balanslaşdırılmış repertuar formalaşdırmağa imkan verir.

**– Ən çətin və ən yaddaqalan tamaşanız hansıdır?**

– Bakı sirkinin tarixində ən mürəkkəb, eyni zamanda, ən yaddaqalan layihələrdən biri 2022-ci ilin payızında həyata keçirilmiş proqramla bağlıdır. Həmin dövrdə Belarusdan dəvət olunmuş "Fil və dostları" adlı proqramın təqdimatına hazırlıq işləri gedirdi. Reklam kampaniyası başlamış, müqavilələr imzalanmış, artistlərin gəlişi və rekvizitlərin çatdırılması yekunlaşmaq üzrə idi. Tamaşaya təxminən iki həftə qalmış proqramın əsas vurucu elementi olan fillərlə çıxış etməli olan italyan artistlərin ölkəyə gələ bilməyəcəyi məlum oldu. Yaranmış vəziyyətlə bağlı yaradıcı komanda operativ qərar qəbul edərək proqramın final hissəsi üçün yeni attraksion hazırladı. Qısa müddət ərzində Qarabağ motivləri əsasında dramaturji hekayətli səhnə kompozisiyası quruldu, Qarabağ atlarının obrazları yaradıldı, rəqs ansamblının iştirakı ilə səhnələşdirilmiş nömrə formalaşdırıldı.

Musiqi tərtibatında "Sarı gəlin" mahnısından istifadə olundu və intensiv məşqlər nəticəsində yeni nömrə təqdim olundu. Nəzərdə tutulan final nömrəsinin yerinə Qarabağ tematikalı səhnə kompozisiyası quruldu. Bu tamaşa Bakı Dövlət Sirki üçün yaradıcı çevikliyin, peşəkar təşkilatçılığın və kollektiv məsuliyyətin praktik nümunəsi kimi qiymətləndirilir və sirkin fəaliyyət tarixində mühüm mərhələlərdən biri hesab olunur.

**– Yaradıcı proses hansı mərhələlərdən keçir?**

– Sirk tamaşasının hazırlanması planlı və mərhələli yaradıcı prosesdir. Bu proses əvvəlcədən müəyyənləşdirilmiş konseptual çərçivə əsasında qurulur və ideyadan səhnə təqdimatına qədər ardıcıl mərhələlər üzrə həyata keçirilir. İlkin mərhələdə tamaşanın ideyası və konsepti müəyyənləşdirilir. Konsept tamaşanın məzmununu, estetik xəttini və mesajını formalaşdırır. Mövsümi, milli bayramlara və sosial mövzulara yönəlmiş proqramların tematikası da bu mərhələdə təsdiqlənir. Konsept təsdiqləndikdən sonra ssenari hazırlanır və dramaturji struktur qurulur. Ssenari çərçivəsində obrazlar, səhnə ardıcıllığı, musiqi xətti, dekorasiya həlləri və rəng palitrası müəyyənləşdirilir.

Növbəti mərhələdə repertuar və artist heyəti planlaşdırılır, hər bir nömrənin səhnə ardıcıllığı və ümumi kompozisiya daxilində yeri dəqiqləşdirilir. Hekayə xətti, musiqi tərtibatı, işıqlandırma və rollar vahid dramaturji sistemdə birləşdirilir. Paralel olaraq dekorasiya, kostyum, işıqlandırma və səhnə texnikası üzrə hazırlıq işləri aparılır.

Tamaşalarımızda əsasən orkestrin müşayiəti ilə canlı musiqidən istifadə olunur, bəzi nömrələrdə isə artistlərin repertuarına uyğun fon musiqisi səsləndirilir. Bütün yaradıcı və texniki komponentlər hazır olduqdan sonra məşq mərhələsi başlanır, texniki yoxlamalar və səhnə keçidləri üzrə dəqiqləşdirmələr aparılır. Premyeradan əvvəl baş məşqlər keçirilir və bütün komponentlərin tam hazır olduğu təsdiqləndikdən sonra tamaşa təqdim olunur. Proses rejissor, ssenarist, artistlər, dizaynerlər və texniki heyətin vahid komanda kimi fəaliyyət göstərməsi əsasında həyata keçirilir.

**– Beynəlxalq sirk məktəbləri və kollektivləri ilə əməkdaşlıq əlaqələri barədə nə deyə bilərsiniz?**

– Bakı sirki fəaliyyətə başladığı gündən müxtəlif ölkələrin tanınmış kollektivləri ilə tərəfdaşlıq əlaqələri qurulub. Müxtəlif dövrlərdə Azərbaycan sirk kollektivləri də keçmiş SSRİ məkanı, Şərqi Avropa və Afrika ölkələrində qastrol səfərlərində iştirak edərək milli sirk sənətini beynəlxalq auditoriyalara təqdim edib. Hazırda Bakı Dövlət Sirkinin Moskva Nikulin Sirki, Budapeşt Sirki və Kazan Sirki ilə sıx əlaqələr var. Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə keçirilən regional sirk rəhbərlərinin görüşləri çərçivəsində proqram mübadiləsi, tələbə mübadiləsi və birgə layihələrin inkişaf istiqamətləri üzrə konkret əməkdaşlıq mexanizmləri müəyyənləşdirilib.

Beynəlxalq layihələr dövlət tərəfindən dəstəklənir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət və qayğısı nəticəsində sirk sənətinin inkişafı üçün əlverişli institusional mühit formalaşdırılıb. Beynəlxalq əməkdaşlıq Bakı Dövlət Sirkinin proqram portfelinin zənginləşməsinə, janr müxtəlifliyinin artmasına və regional-mədəni məkanda mövqeyinin möhkəmlənməsinə xidmət edir.

Qeyd edək ki, ötən il Bakı Dövlət Sirkinin rəhbərliyi Moskvada keçirilən III Beynəlxalq Artist Festivalına fəxri qonaq qismində dəvət aldı. Mən də həmin layihədə iştirak etdim və müxtəlif ölkələrdən gəlmiş sənətçilərin təqdim etdiyi maraqlı, müasir və yaradıcı sirk nümunələrinin şahidi oldum. Bu festival beynəlxalq sirk mühitini yaxından tanımaq baxımından olduqca dəyərli təcrübə idi. Daha sonra sentyabr ayında Minsk şəhərində keçirilən III Beynəlxalq Sirk Sənəti Festivalında yüksək peşəkarlıqla hazırlanmış proqramları izlədim və münsif kimi prosesin birbaşa iştirakçısı oldum. Həmin festivalda gördüyümüz bir sıra maraqlı nümunələri artıq növbəti il üçün payız proqramına dəvət etmişik.

**– Xarici təcrübə necə mənimsənilir?**

– İri şəhərlərdə sirk tamaşalarına maraq göstərən potensial auditoriya şəhər əhalisinin orta hesabla təxminən 5 faizini təşkil edir. Bu baxımdan Bakıda hər bir proqram üzrə 150–200 min nəfərlik tamaşaçı auditoriyasının formalaşması real potensial kimi qiymətləndirilir. Hazırda Bakı Dövlət Sirkinin tamaşalarını il ərzində təxminən 200 min tamaşaçı izləyir. Bu göstərici əsasən 3 böyük proqram əsasında formalaşır və bu rəqəmin mərhələli şəkildə artırılması hədəf kimi müəyyənləşdirib.

Qiymət siyasətində ailəvi auditoriya üçün əlçatanlılıq əsas prinsip kimi qorunur. Bakı Dövlət Sirki beynəlxalq sirk proqramlarını ölkəyə gətirməklə tamaşaçılara dünya səviyyəli nümunələrin təqdimatını təmin edir.

Azərbaycan sirk məktəbinin yetirmələri bu gün ABŞ, Avropa ölkələri və Rusiyada keçirilən beynəlxalq festivalların laureatları kimi fəaliyyət göstərir. Bakı Dövlət Sirki həmin sənətkarları öz proqramlarına dəvət edərək milli sirk məktəbinin potensialını nümayiş etdirir və tamaşaçılara dünya səviyyəli çıxışları canlı izləmək imkanı yaradır.

Qeyd etmək istərdim ki, ötən il fəaliyyətimizi daha yaxından tanıtmaq üçün "Sirk" jurnalı dərc edilib. Jurnalda Azərbycan sirk aləmində baş verənləri, sirk tariximizi, ənənələrimizi və bu sahəyə aid bütün istiqamətlərdəki yenilikləri əhatə edən məqalə, müsahibə, reportaj, təhlil və araşdırma materiallarına yer verilib.

**– Dünya sirk sənətində heyvanlarla çıxış məsələsinə münasibət dəyişir. Siz bu məsələyə necə yanaşırsınız?**

– Biz beynəlxalq tendensiyalara uyğun olaraq vəhşi heyvanlardan istifadə etmirik. Proqramlarda əsasən əhliləşdirilmiş ev heyvanlarına – itlərə, pişiklərə və quşlara üstünlük veririk. Bu seçim heyvanlara mərhəmət, tamaşaçı təhlükəsizliyi və uşaqların psixoloji inkişafı baxımından əsaslandırılmış yanaşma kimi tətbiq olunur. Heyvanların saxlanma, qidalanma və tibbi nəzarəti beynəlxalq standartlara uyğun təmin edilir. Eyni zamanda, heyvansız, süjet xətti üzərində qurulan müasir sirk formatları proqram portfelinə daxil edilir. "Sirk dyu Soley" (Cirque du Soleil) modeli bu istiqamətdə tətbiq edilən qabaqcıl təcrübələr sırasında izlənilir və uyğunlaşdırılır.

**– Yaxın vaxtlarda hansı yeniliklər gözlənilir?**

– Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə beynəlxalq tərəfdaşlarla əməkdaşlıq genişləndirilib. Bayraq Meydanı yaxınlığında Macarıstandan gətirilmiş yüngül konstruksiyalı sirk (şapito) quraşdırılıb və tamaşalarımız bu məkanda nümayiş etdirilir. Bu ilin oktyabr



ayından etibarən "Böyük Sirkin Ulduzları" proqramı və mövsümi Yeni il tamaşaları təqdim olunur.

Bakı Dövlət Sirkinin inkişaf strategiyasında dövlətin davamlı dəstəyi xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın mədəniyyət sahəsinə göstərdiyi diqqət və qayğı nəticəsində sirk sənətinin inkişafı üçün əlverişli mühit formalaşdırılıb. Bakı Dövlət Sirkinin kollektivi bu dəstəyi yüksək qiymətləndirir və göstərilən etimada görə ölkə rəhbərliyinə minnətdarlığını bildirir.

*Müsahibəni hazırladı:*
***Ləman TƏHMƏZ***
***XQ***

# Təhsil krediti tələbələrə dövlət dəstəyidir

**Təhsil tələbə krediti ali təhsilin maliyyə yükünü azaltmaq və gənclərin maddi imkanlardan asılı olmayaraq təhsil almaq hüququnu qorumaq məqsədilə tətbiq edilən dövlət mexanizmidir. Təhsilin maliyyələşdirilməsi minlərlə gəncin gələcəklə bağlı verdiyi qərarların, qurduğu planların göstəricisidir. Bu model çərçivəsində ödənişli əsaslarla təhsil alan tələbələrin təhsil haqqı dövlət tərəfindən qarşılanır, ödəniş isə məzuniyyətdən sonra müəyyən şərtlərlə mərhələli şəkildə həyata keçirilir.**

Təhsil Tələbə Krediti Fondu (TTKF) dekabrın 25-də 4 illik hesabatını açıqlayıb. **Fondun İdarə Heyətinin sədri Bəhruz Əzimov** qurumun fəaliyyəti və gördüyü işlər barədə mühüm məlumatlar verib.



Sədr bildirib ki, statistikaya görə, ən çox təhsil tələbə krediti (TTK) rəsmiləşdirilən ali məktəblər sırasında Azərbaycan Dövlət İqtisad Universiteti birinci pillədə yer alır. Burada, ümumilikdə, 4365 gənc təhsil tələbə kreditindən faydalanır. Onların 48 faizi qadın, 52 faizi kişidir. Rəsmiləşdirilən kreditlərin 22 faizi sosial, 78 faizi isə standart kateqoriyaya aiddir. İkinci pillədə olan Gəncə Dövlət Universitetində 4056 tələbə TTK alıb.

Bəhruz Əzimov qeyd edib ki, siyahıda Bakı Dövlət Universiteti (3223 nəfər), Azərbaycan Kooperasiya Universiteti (3169 nəfər), Azərbaycan Dövlət Pedaqoji Universiteti (2711 nəfər), Mingəçevir Dövlət Universiteti (2491 nəfər), Lənkəran Dövlət Universiteti (2488 nəfər), Bakı Biznes Universiteti (2457 nəfər) və Azərbaycan Memarlıq və İnşaat Universiteti (2184 nəfər) var.

Onun sözlərinə görə, TTK üzrə ən çox vəsait ayrılan 10 ixtisas sırasında siyahıya "Biznesin idarə edilməsi" ixtisası liderlik edir. Bu ixtisas üzrə 4647 müqavilə bağlanıb və ümumilikdə 5 milyon 352 min 664,30 manat vəsait ayrılıb. İkinci yerdə qərarlaşan "Sosial iş" ixtisası üzrə 2 203 müqavilə əsasında 1 milyon 931 min 211 manat ödənilib. "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə 2 434 tələbə TTK ilə əhatə olunub, ümumi maliyyələşmə 1 milyon 930 min 330,25 manatdır.

Bəhruz Əzimov vurğulayıb ki, təhsil kreditlərində 90 gündən artıq gecikmə halları valideynlərə heç bir hüquqi və maliyyə məsuliyyəti yaratmır, bütün öhdəlik yalnız tələbənin üzərində qalır. Təqdim olunan təhsil kreditləri zamin və girov olmadan verildiyi üçün valideynlərin kredit üzrə məsuliyyəti yoxdur və bu gecikmələr onların gələcək-



də kredit götürmək imkanlarına təsir etmir. Kreditin geri qaytarılmasına görə isə, yalnız tələbə cavabdehdir. Hazırda 125 tələbənin gecikməsi qeydə alınıb.

Sədr əlavə edib ki, sosial kredit üzrə müraciətlər elektron sistem vasitəsilə yoxlanılır və tələbənin qanunvericiliklə müəyyən edilmiş sosial status meyarlarına uyğunluğu əsas götürülür. Həmin meyarlar təmin olunmadıqda, sosial kredit üzrə müraciət rədd edilir. Standart kreditdə isə qərar yalnız tələbənin təhsil göstəriciləri əsasında verilir. Belə ki, tələbənin ikinci və sonrakı semestrlərdə akademik göstəricisi 71 baldan aşağıdırsa və ya hər iki kredit növündə fənn üzrə kəsiri varsa, bu zaman standart kredit üzrə müraciətinə imtina verilir.

Ümumi orta müvəffəqiyyət göstəriciləri yüksək olan məzunlar üzrə 681 sosial təhsil tələbə krediti müqaviləsinə 50 faiz, 1679 standart TTK müqaviləsinə isə 25 faiz güzəşt tətbiq olunub.

İndiyədək 13 min 254 tələbə TTK-dan yararlanıb. Ümumilikdə, bağlanmış müqavilələrin sayı 34 min 908 təşkil edib. Kreditlərin verilmə qaydasına əsasən normativ təhsil müddətində akademik göstəriciləri yüksək olan məzunların kredit vəsaitlərinin müəyyən hissəsi dövlət tərəfindən qarşılanır. Bu günə qədər 761 min manata yaxın kredit vəsaiti dövlət tərəfindən bağışlanıb.

Əmək bazarına çevik çıxışı dəstəkləmək məqsədilə Təhsil Tələbə Krediti Fondunun 4 illik fəaliyyəti dövründə kreditdən faydalanan 3 mindən çox tələbə və məzun təlim-təcrübə proqramlarına yönəldilib. Fond tərəfindən 400-ə yaxın məzunun işlə təmin olunmasına vasitəçilik edilib. Bu məqsədlə 9 təhsil müəssisəsi, 7 dövlət qurumu, 19 özəl şirkət ilə Anlaşma Memorandumu imzalanıb.

İndiyədək 2 tələbəsi olan 1667 ailədən ümumilikdə 3334, 3 tələbəsi olan 41 ailədən 123, 4 tələbəsi olan 3 ailədən isə 12 tələbə təhsil kreditindən yararlanıb. 1711 ailəni əhatə edən 3469 tələbə isə kreditlə təmin olunub.

**Elm və Təhsil Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev** vurğulayıb ki,



2030-cu ilə qədər ölkəmizdə 21 peşə təhsili müəssisəsinin yenidən qurulması, 2 peşə təhsili müəssisəsində əsaslı təmir işlərinin aparılması nəzərdə tutulur. Peşə təhsilində əsas problemlərdən biri hesab olunan infrastruktur məsələsi artıq mərhələli şəkildə öz həllini tapır və bu istiqamətdə müsbət gözləntilər var.

*Hazırladı:*
***Fidan ƏLİYEVA***
***XQ***

*Mətbuat konfransı*

# Azərbaycan–Çin: Uzaq ölkələr, yaxın xalqlar

**Dekabrın 25-də Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyində keçirilən mətbuat konfransında Çin-Azərbaycan münasibətlərinin ötən il ərzində keçdiyi inkişaf yolu və əldə olunan mühüm nəticələr diqqət mərkəzində oldu. Çinin Azərbaycandakı səfiri Lu Mei çıxışının əvvəlində media nümayəndələrini salamlayaraq, jurnalistlərin iki ölkə arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə verdiyi töhfəni yüksək qiymətləndirdi.**



Səfir qeyd etdi ki, 2025-ci il Çin - Azərbaycan münasibətləri baxımından xüsusilə məhsuldar il kimi yadda qaldı. ÇXR Sədri Si Cinpin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin strateji rəhbərliyi altında ikitərəfli münasibətlər keyfiyyətcə yeni mərhələyə yüksəlib və tarixdə ilk dəfə hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə çatıb. Siyasi qarşılıqlı etimad daha da möhkəmlənib, praktik əməkdaşlıq konkret nəticələr verib, humanitar əlaqələr isə daha dərin məzmun qazanıb. Səfir bildirdi ki, diplomatik fəaliyyəti dövründə bu münasibətlərin inkişafında bir sıra tarixi məqamların şahidi olub.

Lu Mei çıxışında dövlət başçılarının diplomatiyasının Çin - Azərbaycan münasibətlərinin əsas hərəkətverici qüvvəsi olduğunu vurğuladı. Aprel ayında Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı Sədr Si Cinpinlə aparılan danışıqlar nəticəsində bir sıra mühüm razılaşmalar əldə olunduğunu diqqətə çatdıran xanım Mei əlavə etdi ki, tərəflər hərtərəfli strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyanat imzaladılar, eyni zamanda, müxtəlif sahələri əhatə edən 20 əməkdaşlıq sənədinə imza atdılar.

Avqustun sonu – sentyabrın əvvəlində Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatının sammitində və İkinci Dünya müharibəsində Qələbənin 80 illiyinə həsr olunmuş tədbirlərdə iştirakı iki ölkənin beynəlxalq ədalətin və sülhün qorunması istiqamətində ortaq mövqeyini nümayiş etdirdi. Çinli diplomat diqqətə çatdırdı ki, Prezident İlham Əliyevin Çinə hər iki səfərində ailə üzvlərinin də iştirak etməsi Azərbaycanın Çini etibarlı dost kimi qəbul etdiyini göstərən rəmzi məqam kimi dəyərləndirilir. Görüşlər zamanı Sədr Si Cinpin Prezident İlham Əliyevi Çin xalqının köhnə və etibarlı dostu adlandırdı.

İqtisadi və ticarət sahəsində əməkdaşlığın sürətlə genişləndiyini diqqətə çatdıran Lu Mei əlavə etdi ki, 2025-ci ilin yanvar–oktyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi 2,44 milyard ABŞ dollarına çatıb və bu da ötən ilin eyni dövrü ilə müqayisədə 21,9 faiz artım deməkdir. Gözlənilir ki, ilin yekununda bu göstərici yeni tarixi rekord olacaq və artıq üçüncü ildir ardıcıl olaraq ikitərəfli ticarət həcmi ən yüksək səviyyəyə yüksələcək. Çin Azərbaycanın ən böyük idxal mənbəyi və dördüncü ən iri ticarət tərəfdaşı olaraq mövqeyini qoruyur.

Səfir çıxışında enerji, sənaye və nəqliyyat sahələrində həyata keçirilən birgə layihələrə də toxundu. BYD zavodunda istehsal olunan ilk 50 elektrik avtobusunun artıq təhvil verildiyi, ilin sonunadək 300 avtobusun istehsal edilərək Bakı, Naxçıvan və Qarabağda istismara buraxılacağı bildirildi. Bərpaolunan enerji sahəsində imzalanmış layihələrin ümumi gücünün 1570 MVt olduğu və bu layihələrin Azərbaycanın "yaşıl enerji" istehsalı potensialını iki dəfə artıracağı vurğulandı. Eyni zamanda, Çinin müəssisələri tərəfindən həyata keçirilən 240 MVt gücündə külək elektrik stansiyasının bu il istifadəyə veriləcəyi, Ələt Azad İqtisadi Zonasında 3 GVt gücündə günəş panelləri istehsalı layihəsinin isə Azərbaycanın yüksək texnologiyalı sənayesinə yeni imkanlar yaradacağı qeyd olundu.

Səfir nəqliyyat sahəsində də mühüm irəliləyişlərin əldə edildiyini bildirdi. Bu ilin yanvar – noyabr aylarında Çindən Azərbaycana 351 yük qatarı göndərilib ki, bu da ötən illə müqayisədə 34 faiz artım deməkdir. Çin yükləri Orta Dəhlizin əsas yük mənbəyinə çevrilərək onun inkişaf potensialını əhəmiyyətli dərəcədə artırıb.

Humanitar əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələrin iki ölkə xalqları üçün birbaşa fayda verdiyi vurğulandı. Çin tərəfindən Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə maliyyə dəstəyi göstərilib, uşaq evlərində Çin–Azərbaycan dostluq sinifləri yaradılıb, Naxçıvan Muxtar Respublikasında 216 məktəb distant təhsil avadanlıqları ilə təmin edilib. Eyni zamanda, Azərbaycanın Çinin ucqar bölgələrində məktəb infrastrukturu layihələrinə verdiyi dəstək qarşılıqlı diqqət və ehtiramın nümunəsi kimi qeyd olunub.

Çıxışda mədəniyyət, təhsil və turizm sahələrində əməkdaşlığın genişləndiyi, vizasız rejimin tətbiqindən sonra qarşılıqlı turist axınının artdığı diqqətə çatdırılıb. 2025-ci ilin 10 ayında Azərbaycana gələn Çin turistlərinin sayı 57 mini ötüb və bu göstərici ötən illə müqayisədə təxminən 50 faiz artım təşkil edib. Azərbaycan gəncləri arasında Çin dilinə və mədəniyyətinə marağın sürətlə artdığı, universitetlərdə Çin dili kurslarının genişləndirildiyi bildirilib.

Mətbuat konfransında Çində keçirilmiş ÇKP Mərkəzi Komitəsinin IV plenumunun nəticələri və qəbul edilən 15-ci beşillik inkişaf planı barədə də məlumat verilib. Qeyd olunub ki, bu plan Çinin yüksəkkeyfiyyətli inkişafını, texnoloji müstəqilliyini və əhalinin rifahının yüksəldilməsini hədəfləyir və Azərbaycanın 2027–2030-cu illər üçün sosial-iqtisadi inkişaf strategiyası ilə bir çox məqamda üst-üstə düşür. Bu baxımdan, plan Çin–Azərbaycan əməkdaşlığı üçün yeni imkanlar açır.

Səfir Lu Mei sonda vurğuladı ki, 2025-ci ildə əldə olunan nəticələr Çin – Azərbaycan münasibətlərinin möhkəm təməl üzərində inkişaf etdiyini göstərir və 2026-cı ildə hərtərəfli strateji tərəfdaşlığın daha geniş perspektivlər qazanacağı gözlənilir. Çin tərəfi Azərbaycanla birgə "Bir kəmər, bir yol" təşəbbüsünün keyfiyyətli icrasını davam etdirməyə, strateji inkişaf planlarını uzlaşdırmağa və xalqların rifahı naminə əməkdaşlığı daha da dərinləşdirməyə hazır olduğunu bəyan edir.

***SE LAY***
***XQ***


## "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı bəzi əmlakların müsabiqə yolu ilə satışının keçirilməsi barədə

## ELAN

### *Müsabiqəyə çıxarılan əmlaklar barədə məlumat*

1. Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsi, Baksol ərazisi, 1-ci döngə, 3-cü dalan, 12 nömrəli ünvanda, 0,01319 hektar torpaq sahəsində yerləşən 431,8 kv.m sahədən ibarət fərdi yaşayış evi. Əmlak yüklü deyil.

**Start qiymət - 222.000,00 (iki yüz iyirmi iki min manat) manat.**

2. Bakı şəhəri, Xətai rayonu, 2944a nömrəli məhəllə, Xudu Məmmədov küçəsi, A-1A nömrəli ünvanda 0,06206 hektar torpaq sahəsində yerləşən 1790 kv.m qeyri-yaşayış binası (yarımçıq tikili). Əmlak yüklü deyil.

**Start qiymət - 948.000,00 (doqquz yüz qırx səkkiz min manat) manat.**

3. İmişli rayonunda yerləşən 2 ədəd əmlak kompleksi kimi müəssisə (8,5 hektar torpaq sahəsində yerləşən 21,675.00 kv.m və 1.23 hektar torpaq sahəsində yerləşən 12,054.90 kv.m tikili) və 8 çıxarışdan ibarət cəmi 7,4 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahələri (Quşçuluq kompleksi). Əmlak yüklü deyil.

**Start qiymət - 6.459.200,00 (altı milyon dörd yüz əlli doqquz min iki yüz manat) manat.**

4. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 121.6 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 223.744,00 (iki yüz iyirmi üç min yeddi yüz qırx dörd manat) manat.**

5. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus , 65 nömrəli ünvanda yerləşən 108.5 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 208.320,00 (iki yüz səkkiz min üç yüz iyirmi manat) manat.**

6. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 112.0 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 215.040,00 (iki yüz on beş min qırx manat) manat.**

7. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 62.2 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 119.424,00 (bir yüz on doqquz min dörd yüz iyirmi dörd manat) manat.**

8. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3-cü korpus, 65 nömrəli ünvanda yerləşən 34.0 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 65.280,00 (altmış beş min iki yüz səksən manat) manat.**

9. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 3- cü korpus , 65 nömrəli ünvanda yerləşən 61.2 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 117.504,00 (bir yüz on yeddi min beş yüz dörd manat) manat.**

10. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 201C nömrəli girişdə yerləşən 242.3 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət - 445.832,00 (dörd yüz qırx beş min səkkiz yüz otuz iki manat) manat.**

11. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 195X nömrəli girişdə yerləşən 60.9 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 116.928,00 (bir yüz on altı min doqquz yüz iyirmi səkkiz manat) manat.**

12. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 197B nömrəli girişdə yerləşən 214.8 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 395.232,00 (üç yüz doxsan beş min iki yüz otuz iki manat) manat.**

13. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 197A nömrəli girişdə yerləşən 164.7 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 303.048,00 (üç yüz üç min qırx səkkiz manat) manat.**

14. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 195G nömrəli girişdə yerləşən 244.1 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 439.380,00 (dörd yüz otuz doqquz min üç yüz səksən manat) manat.**

15. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 195H nömrəli girşdə yerləşən 347.2 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 597.184,00 (beş yüz doxsan yeddi min bir yüz səksən dörd manat) manat.**

16. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 199E nömrəli girişdə yerləşən 48.5 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 93.120,00 (doxsan üç min bir yüz iyirmi manat ) manat.**

17. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 199C nömrəli girişdə yerləşən 51.0 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 97.920,00 (doxsan yeddi min doqquz yüz iyirmi manat) manat.**

18. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 199B nömrəli girişdə yerləşən 61.7 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 118.464,00 (bir yüz on səkkiz min dörd yüz altmış dörd manat) manat.**

19. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, 199D nömrəli girişdə yerləşən 68.6 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 131.712,00 (bir yüz otuz bir min yeddi yüz on iki manat) manat.**

***Ərizələrin qəbulunun başlanma və bitmə tarixi:*** *26 dekabr 2025-ci il saat 10.00 – dan 23 yanvar 2026-cı il saat 16.00-dəkdir.*

***Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı:*** *29 yanvar 2026-cı il saat 16.00-dır.*

**Müsabiqənin keçirildiyi ünvan:** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, AZ-1022, Bakı şəhəri, Nəsimi rayonu, S.Vurğun küçəsi 135.

**Əmlaka, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydasına və müddətinə** 2025-ci il dekabrın 26-dan 2026-cı il yanvarın 23-dək, həftənin 3-cü və 5-ci günləri, "Aqrarkredit" QSC-nin baş ofisində, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda baxılmalıdır.

**Əlaqələndirici şəxs**:
Şahin Seyidov, 050-235-99-90
Əhəd Vəhədzadə, 050-374-27-27

### *İddiaçılar qarşısında irəli sürülən şərtlər*

1. İddiaçı tərəfindən əmlakın elan olunan ilkin satış dəyərinin 0,5% faizi həcmində beh məbləği ödənilməlidir. Müsabiqənin qalibi hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır.

2. İddiaçılar tərəfindən təqdim edilmiş təklifdə əmlak üçün təklif olunan məbləğ aydın şəkildə rəqəm və Azərbaycan dilində sözlə yazılmalı, iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndələri tərəfindən imzalanmalıdır. Sözlə rəqəm arasında fərq aşkar edildikdə, sözlə ifadə olunmuş yazı əsas götürülür. Təklif müsabiqənin keçirilməsi haqqında məlumatda göstərilən müddət ərzində imzalanmış (hüquqi şəxsdirsə möhürlənmiş) qapalı zərfdə "Aqrarkredit" QSC-yə təqdim edilməlidir.

3. Bir iddiaçı müsabiqədə iştirak etmək üçün yalnız bir ərizə verə bilər. İddiaçı Müsabiqə Komissiyasına yazılı bildiriş verməklə ərizələrin qəbulu müddəti bitənədək ərizəsini geri götürə bilər.

4. Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir. Təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndəsinin iştirakı ilə açılır.

5. Müsabiqə zamanı əmlakın start qiymətindən ən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur. İddiaçılar tərəfindən təqdim edilmiş təkliflər eyni məbləğ olduqda həmin iddiaçılar əmlak üçün təklif olunan məbləği göstərməklə yenidən təklif təqdim edirlər. Bu zaman da təklif məbləğləri eyni olduqda proses fərqli təklif olanadək davam etdirilir. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir.

6. Müsabiqənin qalibi əmlakın dəyərinin 30 (otuz) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət verməlidir.

### *Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər*

1. İddiaçının ərizəsi (ərizə forması "Aqrarkredit" QSC tərəfindən veriləcək).
2. İddiaçının şəxsiyyətini təsdiq edən sənəd.
3. Təklif olunan qiymət (bağlı zərfdə rəqəmlə və sözlə göstərilməklə).
4. İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz.
5. Etibarnamə (nümayəndə iştirak etdikdə).

**Qeyd**: **iddiaçı hüquqi şəxs olduqda** – (Dövlət qeydiyyatı haqqında şəhadətnamə, nizamnamə və qanuni təmsilçinin və ya nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd (surəti).

**Beh ödənilməsi üçün bank rekvizitləri**
Kod: 501587
VÖEN: 1300025711
SWIFT BIC: ACJTAZ22
Ünvan: AZ 1006, Bakı şəhəri, Qədirli küçəsi 125.
M/h: Mərkəzi Bankda:
AZ45NABZ 01350 1000 000 000 35944
H/h: AZ67ACJT45019192794010094401



## "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı bəzi əmlakların müsabiqə yolu ilə satışının keçirilməsi barədə

## ELAN

### *Müsabiqəyə çıxarılan əmlaklar barədə məlumat*

1. Abşeron rayonunun Qobu qəsəbəsində yerləşən 3,8666 hektar torpaq sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət - 773.000,00 (yeddi yüz yetmiş üç min manat) manat.**

2. Abşeron rayonunun Qobu qəsəbəsində yerləşən 5,18 hektar torpaq sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət - 1.191.000,0 (bir milyon bir yüz doxsan bir min manat) manat.**

3. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küşəsi 65, 3 nömrəli binada yerləşən 418.10 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət - 750.000,0 (yeddi yüz əlli min manat) manat.**

4. Gəncə şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 391 nömrəli ünvanda yerləşən 2000 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət – 2.400.000,00 (iki milyon dörd yüz min manat) manat.**

5. Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti 167 nömrəli ünvanda yerləşən 1625.6 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.

**Start qiymət –1.800.000,0 (bir milyon səkkiz yüz min manat) manat.**

***Ərizələrin qəbulunun başlanma və bitmə tarixi:*** *26 dekabr 2025-ci il saat 10.00-dan 23 yanvar 2026-cı il saat 16.00-dəkdir.*

***Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı:***
*29 yanvar 2026-cı il saat 16.00-dır.*

**Müsabiqənin keçirildiyi ünvan**: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, AZ-1022 Bakı şəhəri, Nəsimi rayonu, S.Vurğun küçəsi 135.

**Əmlaka, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydasına və müddətinə** 2025-ci il dekabrın 26-dan 2026-cı il yanvarın 23-dək, həftənin 3-cü və 5-ci günləri, "Aqrarkredit" QSC-nin baş ofisində, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 nömrəli ünvanda baxılacaqdır.

**Əlaqələndirici şəxs:** Şahin Seyidov - 050-235-99-90.
Əhəd Vəhədzadə - 050-374-27-27.

### *İddiaçılar qarşısında irəli sürülən şərtlər*

1. İddiaçı tərəfindən əmlakın elan olunan ilkin satış dəyərinin 0,5% faizi həcmində beh məbləği ödənilməlidir. Müsabiqənin qalibi hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır;

2. İddiaçılar tərəfindən təqdim edilmiş təklifdə əmlak üçün təklif olunan məbləğ aydın şəkildə rəqəm və Azərbaycan dilində sözlə yazılmalı, iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndələri tərəfindən imzalanmalıdır. Sözlə rəqəm arasında fərq aşkar edildikdə, sözlə ifadə olunmuş yazı əsas götürülür. Təklif müsabiqənin keçirilməsi haqqında məlumatda göstərilən müddət ərzində imzalanmış (hüquqi şəxsdirsə möhürlənmiş) qapalı zərfdə "Aqrarkredit" QSC-yə təqdim edilməlidir.

3. Bir iddiaçı müsabiqədə iştirak etmək üçün yalnız bir ərizə verə bilər. İddiaçı Müsabiqə Komissiyasına yazılı bildiriş verməklə ərizələrin qəbulu müddəti bitənədək ərizəsini geri götürə bilər.

4. Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir. Təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndəsinin iştirakı ilə açılır.

5. Müsabiqə zamanı əmlakın start qiymətindən ən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur. İddiaçılar tərəfindən təqdim edilmiş təkliflər eyni məbləğ olduqda həmin iddiaçılar əmlak üçün təklif olunan məbləği göstərməklə yenidən təklif təqdim edirlər. Bu zaman da təklif məbləğləri eyni olduqda proses fərqli təklif olanadək davam etdirilir. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir;

6. Müsabiqənin qalibi əmlakın dəyərinin 30 (otuz) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət verməlidir.

### *Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər*

1. İddiaçının ərizəsi (ərizə forması "Aqrarkredit" QSC tərəfindən veriləcək).
2. İddiaçının şəxsiyyətini təsdiq edən sənəd.
3. Təklif olunan qiymət (bağlı zərfdə rəqəmlə və sözlə göstərilməklə).
4. İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz.
5. Etibarnamə (nümayəndə iştirak etdikdə).

**Qeyd: iddiaçı hüquqi şəxs olduqda** – (Dövlət qeydiyyatı haqqında şəhadətnamə, nizamnamə, qanuni təmsilçinin və ya nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd (surəti).

**Beh ödənilməsi üçün bank rekvizitləri**
Kod: 501587
VÖEN: 1300025711
SWIFT BIC: ACJTAZ22
Ünvan: AZ 1006, Bakı şəhəri, Qədirli küçəsi 125.
M/h Mərkəzi Bankda: AZ45NABZ 01350 1000 000 000 35944
H/h: AZ67ACJT45019192794010094401



## "Dərnəgül Dəmir Beton" ASC-nin səhmdarlarının nəzərinə!

9 fevral 2026-cı il saat 12.00-da "Dərnəgül Dəmir Beton" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin icra orqanının seçilməsi.
**2.** Cəmiyyətin direktorlar (müşahidə) şurasının, sədr və üzvlərinin seçilməsi.
**3.** Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada təsdiqi.

Yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

**Telefon:** (099) 899-99-87 .

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, 6-cı Köndələn küçəsi 44.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 272 (30966) 26 dekabr 2025-ci il, cümə

## İDMAN

### Prezident Kubokunu “Elit” qazandı



**Azərbaycan Atçılıq Federasiyasının təşkilatçılığı ilə Binə Atçılıq Mərkəzinin qapalı manejində Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin doğum gününə həsr olunmuş çövkən oyunu üzrə 12-ci Prezident Kubokunun final görüşü və mükafatlandırma mərasimi keçirilib.**

Federasiyadan verilən məlumata görə, Dövlət Himninin səsləndirilməsi ilə başlayan mərasimdə Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestri, rəqs ansamblı və tanınmış sənətçilər çıxış edərək tədbirə xüsusi rəng qatıblar. Altı komandanın iştirak etdiyi turnirdə əvvəlcə 3 qrup oyunu keçirilib, birinci və ikinci yerləri tutan komandalar yarımfinal mərhələsində mübarizə aparıblar.

Daha sonra yarımfinalın qalibləri çempionluq uğrunda, məğlub komandalar isə üçüncülük uğrunda qarşılaşıblar.

Gərgin keçən üçüncülük görüşündə “Sərhədçi” komandası “Embavud”u 2:1 hesabı ilə məğlub edərək turnirin bürünc medalını qazanıb.

Prezident Kubokunun finalında isə “Elit” “Polad” kollektivini 3:2 hesabı ilə üstələyərək çempion olub.

Final görüşündən sonra mükafatlandırma mərasimi keçirilib.

### Boksçularımız bu il 231 medal qazanıblar



**2025-ci il Azərbaycan boksu üçün uğurlu bir il kimi tarixdə qalacaq. Bu il müxtəlif yaş qrupları üzrə Azərbaycan milli komandaları 231 medal qazanıblar. Yığmalarımız qatıldıqları 47 beynəlxalq yarışda 69 qızıl, 60 gümüş və 102 bürünc medal qazanıblar. Nəticədə komandalarımızın nailiyyətləri ötən illə müqayisədə 44 faiz artıb.**

Azərbaycan Boks Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, idmançılarımız 231 mükafatdan 5-ni dünya, 55-ni Avropa çempionatlarında (hər ikisi World Boxing və IBA) əldə edib. Milli komandalarımız Gimnaziada İdman Oyunlarında 21 (9-8-4), Dünya kubokunda 3 (0-0-3), III MDB Oyunlarında 24 (6-5-13) və VI İslam Həmrəyliyi Oyunlarında 6 (1-3-2) dəfə fəxri kürsüyə qalxıblar.

Komandalarımız Dünya və Avropa çempionatlarında 2024-cü illə müqayisədə 72 faiz yüksək nəticə göstəriblər.

Müxtəlif yaş qrupları üzrə milli komandalarımız 47 yarışda 477 boksçu ilə təmsil olunub. Onlardan 50 faizə yaxın çıxışını medalla başa vurub.

Qeyd edək ki, 1 il öncə boksçularımız 35 beynəlxalq yarışda 135 (44-48-68) medal qazanmışdı.

### AFFA-da təlimatçı kursu



**Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) təşkilatçılığı ilə məşqçi kurslarının təlimatçıları üçün kurs keçirilib. Bu barədə milli assosiasiyadan məlumat verilib.**

AFFA-nın Təhsil və Reabilitasiya Mərkəzində təşkil edilən kursa təhsil şöbəsinin rəhbəri Aslan Kərimov və təlimatçı Osman Rəhimov rəhbərlik ediblər.

*Qabil YUSİFOĞLU*
*XQ*

*I Türkoloji Qurultay – 100*

# Sovet Azərbaycanının baş əlifba islahatçısı

## *Səməd ağa Ağamalıoğlu “türkçülüyə dözümlü” bolşevik idi*

**Sovet hakimiyyətinin ilk onilliyində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri kimi yüksək vəzifə tutmuş Səməd Ağamalıoğlu (1867–1930) latın qrafikalı Yeni əlifba hərəkatının öncüllərindən biri olmuş, həm ictimai-siyasi xadim, həm publisist, həm də maarifçi kimi Azərbaycan tarixində iz qoymuşdur. Onun ən böyük amalı Azərbaycan və türkdilli xalqların mədəniyyətini yüksəltmək, dilini və əlifbasını inkişaf etdirmək olmuşdur. O, həmçinin qadın hüquqları, təhsil, dil, mədəniyyət və maarif sahəsində islahatların həyata keçirilməsində mühüm rol oynamışdır.**



1922-ci il avqustun 11-də Sovet dövlətinin rəhbəri Vladimir Leninlə görüşmüş, Azərbaycan SSR-in ictimai, siyasi və iqtisadi vəziyyəti haqqında məlumat vermişdir. Azərbaycan SSR-də istifadə olunan ərəb-fars əlifbasının latın qrafikalı əlifba ilə əvəz olunmasını təklif etmiş və həmin dövrdə müsəlman dünyasında geniş etiraz və müzakirələrə səbəb olan yenilikçi ideyanın müəllifi olmuşdur. Lenin bu təklifi yüksək qiymətləndirmiş və Şərqdə mədəni inqilab adlandırmışdır.

Tam adı Səməd ağa Həsən oğlu olan Səməd Ağamalıoğlu 1867-ci ildə Qazax qəzasının Qıraq Kəsəmən kəndində varlı mülkədar ailəsində dünyaya gəlmişdir. Zəmanəsinin maarifli simalarından olan Səməd ağa ədalət və bərabərliyi ön planda saxlayan bir şəxs idi. 1905-ci ildə ata-babadan qalan heyvan sürülərini, torpaq sahələrini və qiymətli əşyalarını xidmətçilərinə paylayaraq ağalıqdan imtina etmişdi.

Təhsilini Qori Müəllimlər Seminariyasında tamamladıqdan sonra 1887-ci ildə Vladiqafqaz Hərbi Progimnaziyasını bitirmişdir. 1918-ci ilin fevralında Tiflisin siyasi mühitinə qoşularaq yerli bolşevik təşkilatı olan “Hümmət”in fəal üzvü, “Gələcək” və “Pobujdeniye” qəzetlərinin redaktoru olmuşdur. Həmin ilin sonunda Bakıya köçərək 1920-ci ildən Kommunist Partiyasına üzv seçilmişdir. Bu dövr onun siyasi fəaliyyətinin genişlənməsi və dövlət idarəçiliyində rol alması baxımından çox əhəmiyyətli olmuşdur. O, yüksək vəzifələrdə çalışmasına baxmayaraq, hər zaman milliliyi və xalqın inkişafını ön planda tutmuş, dövlət siyasətində Azərbaycan və ümumtürk maraqlarını müdafiə etmişdir.

1921-ci ildə qurulan Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin sədri təyin olunmuş, Azərbaycanda və Sovet Şərqinin digər respublikalarında latın qrafikalı yeni əlifbaya keçid prosesinə rəhbərlik etmişdir. Sovetləşmə dövründə Azərbaycanın ilk Xalq Torpaq Komissarı olmuş, 1921-ci ildə Azərbaycan SSR MİK sədrinin müavini vəzifəsini icra etmiş, 1922-ci ildə SSRİ-nin Birinci Sovetlər Qurultayında SSRİ MİK-in üzvü, daha sonra isə SSRİ MİK Rəyasət Heyətinin üzvü seçilmişdir. 1922–1929-cu illərdə Azərbaycan SSR MİK-in sədri və eyni zamanda, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) MİK sədrlərindən biri kimi fəaliyyət göstərmişdir.




Səməd ağa həm də yüzlərlə məqalənin, doqquz əsərin müəllifi olmuşdur. Onun qələmindən çıxmış “Azərbaycanın siyasi vəziyyəti”, “Bizim yolumuz nəyə xidmət edir?”, “Türk aləmində mədəni məsələlər”, “Oktyabr inqilabı və yeni əlifba”, “İki mədəniyyət”, “Yeni türk əlifbasının müdafiəsində” və digər əsərlər dövrünün aktual mövzularına həsr edilmişdir. Bu əsərlər böyük tirajlarla çap olunmuş, ictimai-siyasi mühitdə geniş rəğbət qazanmışdır. Səməd ağa ərəb-fars əlifbasının milli dilimiz üçün əngəl yaratdığını vurğulayaraq latın əlifbasının tətbiqini zəruri hesab edirdi. Bu ideya müsəlman aləmində geniş narazılıq doğurmuş, lakin onun məqsədi dilin, maarifin və mədəniyyətin inkişafına xidmət etmək idi.

Səməd Ağamalıoğlu yalnız dil və mədəniyyət deyil, sosial sahədə də islahatçı olmuşdur. O, qadınlara təhsil almaq, vəzifə tutmaq, seçmək və seçilmək hüquqlarının verilməsini, qadınların azadlığını müdafiə etmişdir. Bu təkliflər sovet rəhbəri Lenin tərəfindən də yüksək qiymətləndirilmişdir. Lakin radikal dini qurumlar və qatı dindarlar onun ideyalarını qəbul etməyərək ölümünə fətva vermişlər.

I Türkoloji Qurultayın təşkili və həyata keçirilməsində fəal iştirak edən Xalid Səid Xocayev qeyd edirdi ki, qurultay çağırmaq və vahid əlifba sistemi yaratmaq heç də sadə iş deyildi. Çünki bir çox türk xalqları mənəvi və ideoloji baxımdan bu dəyişikliyə hazır deyildi. Onlar inanırdılar ki, yeni əlifbaya keçidlə dini dəyərlərdən, hətta “Qurani-Kərim”dən uzaq düşəcəklər. Bəzi bölgələrdə xurafat geniş yayıldığından ziyalılar bu prosesə qoşulmaqdan çəkinir, təqib və təzyiqlərdən qorxurdular. Digər tərəfdən, bəzi ziyalılar yeni əlifbanın perspektivlərini görmədikləri üçün köhnə əlifbanı dəyişdirməyi məqsədəuyğun hesab etmirdilər.

Səməd Ağamalıoğlu isə bütün bu çətinlikləri aradan qaldırmağın yolunu qurultayın çağırılmasında görürdü. Onun baxışına görə, qurultaya gedən yol türk dövlətləri arasında aparılan təbliğatdan və onların mənəvi-ideoloji birliyindən keçir.

Səməd Ağamalıoğlu Azərbaycan dilinin inkişafına da böyük diqqət göstərirdi. O, ərəb-fars əlifbasına qarşı çıxaraq dilimizə uyğunlaşdırılmış latın qrafikalı əlifbaya keçidin zəruri olduğunu vurğulayırdı. Sovet hökuməti onun bu mühüm və faydalı təşəbbüslərinin həyata keçirilməsinə şərait yaratdı.

Filologiya üzrə fəlsəfə doktoru Salatın Əhmədova Səməd ağa Ağamalıoğlunun fəaliyyətini qiymətləndirərkən yazır ki, M.F.Axundovdan sonra əlifba islahatı ideyasının davamçıları olan N.Nərimanov, M. Şahtaxtlı, F.Köçərli, M.Cəlil, Ü.Hacıbəyov və S.Ağamalıoğlu xalqın maarif və mədəni inkişaf strategiyasının müəyyənləşməsində böyük rol oynamışlar. Səməd ağa Ağamalıoğlunun türk dünyası qarşısında ən böyük xidmətlərindən biri I Bakı Türkoloji Qurultayının ideya müəllifi və əsas təşkilatçılarından biri olmasıdır. O, bu qurultayın təşkili üçün böyük əzmlə çalışmış, iki aya yaxın Orta Asiya çöllərində gəzib-dolaşaraq qazax, qırğız, özbək, başqırd türklərini, çuvaşları, yakutları, saxaları bir araya gətirmişdir. 1926-cı ilin fevral-mart aylarında keçirilən bu ali məclis türk xalqlarının elmi-mədəni birliyinin formalaşmasına, latın qrafikalı əlifbanın tətbiqinə və ortaq milli-mənəvi dəyərlərin inkişafına mühüm təsir göstərmişdir.






Səməd Ağamalıoğlu 1930-cu ildə Moskvada gözlənilmədən vəfat etmiş və orada dəfn olunmuşdur. 1937-ci ilin repressiyasından və uzun sürən ağrılı-acılı işgəncələrindən vaxtsız ölümün xilas etdiyi Səməd Ağamalıoğlunun cənazəsi Azərbaycan hökumətinin qərarı ilə Bakıya gətirilmiş və Fəxri xiyabanda dəfn olunmuşdur. Bu addım Səməd Ağamalıoğlunun Azərbaycan xalqı və Türk dünyası qarşısında misilsiz xidmətlərinin rəsmi şəkildə tanınması idi.

*Namiq ƏHMƏDOV*
*XQ*

## HAVA

### Dağlıq ərazilərdə qar, aranda yağış

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 3-5, gündüz 6-8 dərəcə isti olacaq. Atmosfer təzyiqi 769 millimetr civə sütunundan 760 millimetr civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacaq. Gecə bəzi dağlıq ərazilərdə yolların buz bağlaması ehtimalı var.

*Q.ƏLİYEV*
*XQ*

### Maradonanın forması – 152 min avro!



**Əfsanəvi argentinalı futbolçu Dieqo Maradonanın İspaniyanın “Barselona” klubunda geyindiyi forma hərracda rekord məbləğə satılıb.**

“Mundo Deportivo” nəşri xəbər verir ki, formaya 152 min avro ödənilib.

Bu forma indiyədək hərraca çıxarılan bütün digər Maradona formaları arasında ən yüksək qiymətə satılan olub.

### ALLAH RƏHMƏT ELƏSİN!

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası maliyyə nazirinin müavini Azər Bayramova əzizi professor

**FİKRƏT İSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3596
SİFARİŞ 2333
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00